QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 213 (8529) CÜMƏ, 16 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




## *Prezident İlham ƏLİYEV:*

## "Azərbaycan Ordusu Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının bir neçə kəndini işğaldan azad edib"

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Dükçü, Edilli, Çiraquz kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində yazıb.

## "Təkcə dronlarımız Ermənistana 1 milyard dollar ziyan vurub"

### Prezident İlham Əliyev "France 24" televiziya kanalına müsahibə verib

Oktyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "France 24" televiziya kanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

*- Salam, "France 24"ün müsahibə rubrikasına xoş gəlmisiniz. Bu gün biz Azərbaycanın paytaxtı Bakı şəhərindəyik və mən Azərbaycan Prezidenti İlham Əliyevin yanındayam. Prezident Əliyev, bizim suallarımızı cavablandırmağa razılıq verdiyiniz üçün çox sağ olun. Əlbəttə ki, mən Sizdən Dağlıq Qarabağ münaqişəsi haqqında soruşacağam. Humanitar atəşkəs kimi nəzərdə tutulan atəşkəs barədə razılıq imzalandıqdan bəri zorakılıq və müharibə davam etmişdir. Bu gün Sizdən soruşuram, bu atəşkəs rəsmən artıq etibarsız, bitmiş və ləğv edilmiş hesab olunur?*

*Ardı 3-cü səh.*



## Azərbaycanın hərbi zəfərləri Qafqaza sülh gətirir

"Bu xain hücumlar bizi zərrə qədər də yolumuzdan döndərə bilməz. Ermənistanın digər bir məqsədi bizi dayandırmaqdır. Onlar zənn edirlər ki, bu xain zərbələr bizi dayandıracaq. Bizi heç kim dayandıra bilməz. Çünki biz haqq yolundayıq, bu yolu davam edirik və uğurla davam edirik. Bayrağımızı qaldırırıq, torpaqlarımızı azad edirik və sona qədər bu yolu gedəcəyik!"

Türkiyənin "Haber Türk" televiziya kanalına müsahibəsində Prezident İlham Əliyev humanitar atəşkəs elan edildikdən sonra Ermənistanın Gəncə şəhərinə raket zərbələrinin səbəbi, Azərbaycan Ordusunun Qarabağda apardığı uğurlu antiterror əməliyyatlarının gedişatı ilə bağlı ətraflı məlumat verdi.

### Prezidentdən növbəti müjdə

Dövlət başçısı yenə də xalqımıza müjdə verdi. Bildirdi ki, Azərbaycan Ordusu bütün cəbhə boyu uğurlu əməliyyat keçirərək bir neçə kəndimizi işğaldan azad edib və uğurlu əməliyyatlar davam edir: "Bu gün səhər mənə verilən məlumata görə, Azərbaycan Ordusu bu istiqamətdə daha böyük uğurlara imza atdı. Bu məsələ ilə bağlı lazım olan vaxtda açıqlama veriləcək".

Bunun ardınca Ali Baş Komandan özünün rəsmi "Twitter" səhifəsində bu müjdəni paylaşdı: "Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Prezident həmçinin əməliyyatların gedişatını da dəyərləndirdi. Azərbaycan Ordusunun antiterror əməliyyatları nəticəsində düşmənin hərbi hədəfləri bir daha nəzərdən keçirilib və dəqiq, sərrast atışlarla məhv edilib. Erməni ordusuna çox böyük zərər vurulub, 200-dən çox tank, 2 "S-300" hava hücumuna qarşı qurğu, bir çox başqa texnika məhv edilib, 33 tank və digər texnika qənimət kimi götürülüb.

Bu xoş xəbər əlbəttə ki, ürəyi ordumuzla döyünən hər bir ölkə vətəndaşının böyük sevincinə səbəb oldu.

### Mülki şəxsləri yalnız faşist Ermənistan hədəfə ala bilər

Prezident Gəncədə baş verənləri Ermənistanın növbəti terror aktı kimi qiymətləndirərək dedi ki, mülki şəxslərə, insanlara qarşı qəddarlıq göstərmək faşist xislətli ermənilər üçün adi bir haldır.

*Ardı 5-ci səh.*

## "Ermənistan terror ölkəsi kimi bir daha öz sifətini bütün dünyaya göstərdi"

### Prezident İlham Əliyev Türkiyənin NTV televiziyasına müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Türkiyənin NTV televiziyasına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

*- Cənab Prezident, əvvəlcə NTV adından Sizə çox təşəkkür edirəm. Belə bir tarixi dövrdə - həm bölgə üçün, həm Azərbaycan üçün əhəmiyyətli günlərdə bu sıx qrafikinizdə bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirəm.*

- Sağ olun.

*- Birinci sualım cəbhə xətti ilə bağlı olacaq, cənab Prezident. İşğal altındakı ərazilərin sentyabrın 27-dən bəri nə qədəri geri alındı? Çünki son iki gündə gözəl xəbərlər gəlməyə başladı.*

- Bəli, xəbərlər gəlir. Azərbaycan Ordusu, demək olar ki, hər gün uğurlu əməliyyatlar keçirir. Bu əməliyyatlar haqqında ictimaiyyətə də məlumat verilir. Bizim əsas məqsədimiz ərazi bütövlüyümüzü bərpa etməkdir. Ona görə döyüş meydanında da əsas hədəf strateji yüksəklikləri işğalçılardan azad etmək və böyük əraziləri nəzarət altına almaqdır.

*Ardı 2-ci səh.*

## "Ordumuz qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə tam qadirdir"

### Prezident İlham Əliyev Rusiyanın Ria Novosti agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Rusiyanın Ria Novosti agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

*- Cənab Prezident, Azərbaycan üçün və bütün dünya üçün bu qədər çətin bir vaxtda Sizə suallar verməyə yaratdığınız imkana görə Sizə ürəkdən təşəkkür edirəm. Beləliklə, icazənizlə, birinci sualı verim. Siz sentyabrın 27-dən başlanmış hərbi əməliyyatların nəticələrini necə qiymətləndirirsiniz? Sizin hesablamalara görə tərəflərin itkiləri nə qədərdir və əsirlər çoxdurmu?*

- Sentyabrın 27-də Azərbaycan Ermənistan silahlı qüvvələrinin növbəti hücumuna məruz qalıb. Bu, son üç ay ərzində birinci hücum deyildi. İyul ayında dövlət sərhədində buna bənzər, lakin nisbətən kiçik miqyaslı hadisə baş vermişdi.

*Ardı 3-cü səh.*

## *Birinci vitse-prezident Mehriban ƏLİYEVA:*

## "Dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıram"



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Nə dərəcədə insaniyyətdən kənar, rəhmsiz və mənəvi tənəzzülə uğramış olmalısan ki, dəfn mərasimi zamanı qəbiristanlığı qəsdən atəşə tutasan? Dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıram. Həlak olanların ailələrinə və doğmalarına başsağlığı verirəm. Allah rəhmət eləsin".

## Erməni raketi 2 yaşlı Nilayın ad gününü valideynlərinin qətl gününə çevirdi

### İşğalçıların Gəncədə dağıtdıqları binaları ziyarətə gələnlərin ardı-arası kəsilmir

Gəncəyə raket hücumu Ermənistanın hərbi-siyasi rəhbərliyinin qeyri-insani, faşist simasını bir daha ifşa etdi. Bir daha sübut olundu ki, Ermənistanın əsas hədəfi yaşayış məntəqələri və dinc əhalidir.



Oktyabrın 10-da Rusiyanın vasitəçiliyi ilə əldə olunmuş humanitar atəşkəs hər iki tərəfə həlak olmuş hərbçilərin cəsədlərini təhvil vermək imkanı yaradırdı. Bu, eyni zamanda Ermənistana iddialarından geri çəkilmək, işğal siyasətinə son qoymaq, münaqişənin beynəlxalq hüquq çərçivəsində həll edilməsində real addımlar atmaq üçün verilən son şans idi. İşğalçı üçün imkan idi ki, daha ağır zərbələr almaqdan xilas olsun. Lakin Paşinyan rejimi bu imkanı əldən verdi və təcavüzkar siyasətini davam etdirməkdə davam etdi. Məkrli düşmən indiyədək etdiyi vəhşiliyin ən dəhşətlisini həyata keçirdi. Gəncədə çoxmənzilli binaları raket atəşinə tutmaqla qətliam törətdi.

*Ardı 7-ci səh.*

## Azərbaycan Ermənistan iqtisadiyyatını tam çökdürür



İstənilən müharibənin aparılması böyük resurslar tələb edir. Xüsusən lazımi iqtisadi güc və insan resursuna malik olmayan istənilən ölkə müharibədə məğlubiyyətə məhkumdur.

Bu, Ermənistanın timsalında öz təsdiqini tapmaqdadır. Buna qədər Ermənistan koronavirus səbəbindən ciddi çətinliklər yaşayırdı. Cəbhədə son hərbi əməliyyatlar isə iqtisadi tənəzzüldə olan Ermənistanın vəziyyətini daha da gərginləşdirdi.

*Ardı 7-ci səh.*

**Azərbaycan Ordusu tərəfindən düşmənin 2 ədəd T-72 tankı, 1 ədəd "Tor-M2KM" zenit raket kompleksi, 4 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-20, 1 ədəd D-30 və 2 ədəd D-1 haubitsa topu, bir neçə PUA-sı və avtomobil texnikası məhv edilib**

## İlham Əliyev beynəlxalq informasiya məkanında erməni faşizmini ifşa edir

# “Ermənistan terror ölkəsi kimi bir daha öz sifətini bütün dünyaya göstərdi”

*Əvvəli 1-ci səh.*

Dünən mənim tərəfimdən verilən açıqlama Azərbaycan xalqını növbəti dəfə sevindirdi. Füzuli rayonunun 3, Xocavənd rayonunun 5 kəndi işğalçılardan azad edildi. Onu da deyim ki, həm şimal, həm cənub və həm də şərq istiqamətlərində strateji yüksəkliklər artıq bizim nəzarətimizdədir.

Bizim uğurlu əməliyyatımız davam edir. Bugünə qədər, - əlbəttə ki, hər gün bu rəqəmlər dəyişir, - təqribən 40-a yaxın, ya da ki, 40-dan çox yaşayış məntəqəsi, - şəhərlər və kəndlər işğalçılardan azad edilmişdir. Yaxın vaxtlarda növbəti sevincli xəbərlər, xoş xəbərlər gələcəkdir.

*- Zənnimcə, Xankəndinə yaxınlaşdınız.*

- Biz əsas əməliyyatları indi şimal, cənub istiqamətlərində aparırıq. Bildiyiniz kimi, Cəbrayıl şəhərinin işğaldan azad edilməsi çox uğurlu əməliyyat nəticəsində baş vermişdir. Cəbrayıl rayonunun kəndlərinin böyük qismi artıq bizdədir. Eyni zamanda, Füzuli rayonunun bir çox kəndlərini işğalçılardan azad etdik. Əminəm ki, yaxın zamanlarda Füzuli rayonundan da çox yaxşı xəbərlər gələcək. Eyni zamanda, şimal istiqamətində Suqovuşan qəsəbəsinin işğalçılardan azad edilməsi də çox uğurlu əməliyyat nəticəsində baş vermişdir. O da strateji əhəmiyyətə malikdir. Çünki orada həm yüksəkliklər böyük əraziyə nəzarət etməyə imkan yaradır, həm də orada çox önəmli su anbarı yerləşir. Eyni zamanda, Ermənistan bizə qarşı su terroru təşkil etmişdir və bizim yüz mindən çox hektar torpağımızda su yox idi. Biz artezian quyuları qazmalı idik. İndi Suqovuşan qəsəbəsində yerləşən anbar bizim nəzarətimizə keçəndən sonra artıq böyük bir əraziyə su verilir.

Ona görə biz əməliyyatımızı tədricən, vahid bir planlama əsasında aparırıq. Bütün hədəflər seçilib. Ermənistan tərəfi, sadəcə olaraq, bu reallıqla hesablaşmalı və təcavüzünü dayandırmalıdır, atəşkəsə əməl etməlidir və qalan torpaqlardan da öz xoşu ilə çıxmalıdır ki, qan tökülməsin və bundan sonra bu məsələ sülh yolu ilə həll edilsin.

*- Cənab Prezident, soruşmaq istərdim, hələ də atəşkəsdən söhbət getməsi mümkündürmü? Gördüyümüz kimi, Ermənistan atəşkəsə əməl etmir, - Gəncəyə hücum zamanı mən də Gəncədə idim, - əməl edəcək kimi də görünmür. Bu atəşkəs Azərbaycan Ordusunun sürətini azaltdımı? Bu barədə nə deyə bilərsiniz?*

- Bilirsiniz, biz vasitəçilərə çox böyük bir jest etdik. Çünki bilirsiniz ki, ilk günlərdən bizə atəşkəslə bağlı müxtəlif yerlərdən mesajlar gəlirdi. Təbii ki, dünyanın öz qaydaları var, müharibənin öz qaydaları, öz qanunları var. Əgər sənə kimsə hücum edirsə, sən öz torpaqlarını, öz əhalini müdafiə etməlisən. Bildiyiniz kimi, atəşkəs rejiminin təbliğ edilməsinin əsas səbəbi humanitar məsələlərdir. Bu istiqamətdə müəyyən işlər aparıldı. Biz cəsədlərin dəyişdirilməsi istiqamətində çox önəmli addımlar atdıq. Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara təşkilatını bu işlərə cəlb etdik. Ancaq təəssüf ki, Ermənistan bu atəşkəsdən istifadə edərək, bunu istismar edərək bizə yeni hücumlar təşkil etdi. Təkcə Gəncə şəhəri deyil, digər şəhər və kəndlərimiz də bombalandı. Bu, müharibə cinayətidir, bu, terror aktıdır. Ermənistan terror ölkəsi kimi bir daha öz sifətini bütün dünyaya göstərdi, eyni zamanda, döyüş meydanında da. Atəşkəsdən sonra onlar bu imkanlardan istifadə etmək istədilər və Hadruta iki-üç dəfə hücum etdilər, Hadrutu yenidən işğal etməyə çalışdılar. Amma buna nail ola bilmədilər və orada çox böyük canlı qüvvə və texnika itirdilər. Digər istiqamətlərdə - Cəbrayıl rayonunda, Cəbrayılın cənub istiqamətində Araz çayı boyunca bizə qarşı yenə hücumlar təşkil edilmişdir. Bütün bu hücumlar təbii ki, dəf edildi. Bütün bunlar onu göstərir ki, Ermənistan danışıqlar masası arxasında da səmimi deyil. Ona görə əgər Ermənistanda bu çirkin siyasət davam edərsə, onlar özləri peşman olacaqlar. Mən bu döyüşlərin ilk saatlarından onlara və erməni xalqına müraciət edərək demişdim ki, bu torpaqlardan sülh yolu ilə çıxın, qan tökülməsin, insanlar həlak olmasın. Ancaq təəssüf ki, Ermənistan buna əməl etmir. Bu gün döyüş meydanında Ermənistan ordusunun tam darmadağın olmasında əsas günahkar Ermənistanın hərbi-siyasi rəhbərliyidir.

*- Qarabağ probleminin həllində Türkiyənin də iştirakının vacibliyinə dair Sizin açıqlamanız var. Dünən cənab Ərdoğan ilə Putinin danışığından sonra Minsk qrupu və ikitərəfli əlaqələr çərçivəsində həllə dair Ankarada açıqlama verildi. Ancaq dünən Sergey Lavrov etiraz etdi, dedi ki, Türkiyə ilə biz - Rusiya Qarabağ məsələsində fərqli mövqelərdəyik. Nə düşünürsünüz? Rusiya nə üçün Türkiyənin prosesə daxil olmasına, - bunu Siz də dəstəkləyirsiniz, - etiraz edir? Bu mövqe ilə nə demək istəyir?*

- Onu onlardan soruşsanız daha yaxşı olar. Mən onların bu açıqlamalarını şərh etmək istəməzdim. Sadəcə olaraq, biz mövcud reallıqları gərək nəzərdən keçirək. Bu reallıqlar, həqiqi vəziyyət ondan ibarətdir ki, bu gün Türkiyənin iştirakı olmadan bu bölgədə hər hansı bir məsələ həll edilə bilməz. Bunu artıq son illərin tarixi göstərmişdir. Bu, kiminsə xoşuna gələ bilər, gəlməyə bilər, bu, faktdır, bu, gerçəkdir. Təbii ki, Türkiyə Azərbaycanın, Ermənistanın və digər Cənubi Qafqaz ölkəsi olan Gürcüstanın qonşusu olaraq bu bölgədə fəal rol oynayır. Bu, Türkiyənin haqqıdır. Bu, tarixən belə olubdur. Biz tarixi yaxşı bilirik.

Ona görə bu döyüşlərin ilk saatlarından onu hərbi müstəvidən siyasi müstəviyə, siyasi prosesə çevirmək üçün biz çox açıq və dəqiq mövqeyimizi bildirdik ki, Türkiyə mütləq bu işlərdə olmalıdır. Əgər olarsa, o zaman bu döyüşlər daha tez bir vaxtda dayanacaq və sülh prosesi başlayacaq. Mən onu da bildirmişdim ki, faktiki olaraq Türkiyə prosesdə var. Çünki dünən cənab Ərdoğanın və cənab Putinin danışığı bunu göstərir. Eyni zamanda, ondan əvvəlki günlərdə Türkiyənin və Rusiyanın Xarici İşlər nazirlərinin, Müdafiə nazirlərinin də telefon danışıqları olub. Onlar Qarabağ mövzusunu müzakirə edirlər.

Ona görə bizim mövqeyimiz bundan ibarətdir ki, Türkiyə mütləq olmalıdır. Hansı statusda olacaq, bu, texniki məsələdir. De-fakto artıq Türkiyə var. Onsuz da Türkiyə Minsk qrupunun üzvüdür. Minsk qrupu da otuz il ərzində bir nəticəyə nail olmadı, otuz il ərzində Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsinin icra olunmasına kömək etmədi. Bu vəziyyət faktiki olaraq münaqişənin dondurulmasına gətirib çıxardı. Ancaq nəticə etibarilə iyul ayında bizə edilən hücum, avqust ayında erməni təxribatçı qrupunun bizə göndərilməsi və nəhayət, sentyabr ayında genişmiqyaslı hücum göstərdi ki, bu münaqişə dondurulmuş məsələ deyil.

Biz mövqeyimizdə qalırıq və əlbəttə, ümid edirik ki, bu məsələ tez bir zamanda masa arxasında həll edilsin. Türkiyə mütləq bu işlərdə fəal rol oynamalıdır və əminəm ki, oynayacaqdır.

*- Yenə həmin açıqlamada dedi ki, əgər iki ölkə - Azərbaycan və Ermənistan qəbul edərsə, təmas xəttinə, yəni cəbhə xəttinə rus hərbi müşahidə heyətini göndərə bilərik. Siz buna necə yanaşırsınız? Hərbi baxımdan belə bir müşahidə heyəti yaradılacaqsa hansı ölkələr olmalıdır? Bu barədə nə deyə bilərsiniz?*

- Bilirsiniz, bu məsələ - sülhməramlı qüvvələrin bölgəyə gətirilməsi baza prinsiplərində təsbit olunub. Yəni, baza prinsipləri arasında bu da var. Amma bu məsələ prosesin son mərhələsində öz həllini tapmalı idi. Nəzərə alsaq ki, baza prinsipləri razılaşdırılmayıb, hələ ki onlar, sadəcə olaraq, müzakirə mövzusudur, indidən bu məsələyə fikir bildirmək, bilmirəm, nə dərəcədə düzgün ola bilər.

Bir də ki, bu məsələ Ermənistan-Azərbaycan arasında geniş müzakirə olunmadığı üçün sülhməramlı qüvvələrin kimdən təşkil edilməsi, hansı ölkələr orada olacaq, bunun tərkibi necə olacaq, bu, heç müzakirə olunmayıb. Ona görə indiki şəraitdə - münaqişənin fəal mərhələsi hələ ki davam edir, bu, hesab edirəm ki, bir qədər tezdir. Əlbəttə ki, bu işdə Azərbaycanın sözü mütləq nəzərə alınmalıdır və alınacaq. Çünki hər kəs bilməlidir ki, bu gün münaqişə Azərbaycanın torpaqlarında gedir. Beynəlxalq hüquq baxımından bu, bizim torpağımızdır, tarixi ədalət baxımından bu, bizim torpağımızdır və Azərbaycana hər hansı bir başqa ölkənin silahlı qüvvələrinin gətirilməsi Azərbaycanın razılığı olmadan mümkün deyil.

*- Ona görə soruşdum, misal üçün Türkiyə və Rusiya Suriyada müəyyən bölgələrdə müəyyən müşahidəçiliyi edirlər, hərbi heyətlər, müşahidəçilər patrul xidməti həyata keçirir. Bəlkə gələcəkdə belə bir format təklif edilərsə, bu barədə nə deyə bilərsiniz?*

- İndidən bu barədə bir şey söyləmək istəməzdim. Çünki mən hadisələri qabaqlamaq istəmirəm. Hər bir məsələnin həlli üçün münasib zaman olmalıdır, münasib vəziyyət yetişməlidir. Bu, nə zaman olacaq, biz bunu deyə bilmərik, olacaqmı, olmayacaqmı deyə bilmərik. Amma bir şey qətidir, artıq bu hərbi qarşıdurma başa çatandan sonra təbii ki, sülhü təmin etmək üçün müəyyən beynəlxalq cəhdlər də olmalıdır. Bu cəhdlər hansı cəhdlər olacaq, siyasi cəhdlər, hərbi sahədə hansısa bir təkliflər, bunu biz nəzərdən keçirməyə hazırıq. Təbii ki, azad edilmiş ərazilərə qayıdacaq Azərbaycan əhalisi də sülh şəraitində yaşamalıdır. Onların təhlükəsizliyi təmin edilməlidir. Bax, Ermənistanın Ermənistan ərazisindən Gəncə şəhərinə törətdiyi o xain hücum göstərir ki, bu terrorçu dövlət hər şeyə əl ata bilər. Ona görə təbii ki, bu məsələ beynəlxalq müstəvidə müzakirə edilməlidir. Ancaq bunun nə zaman olacağı haqqında bir şey deyə bilmərəm.

### Prezident İlham Əliyev Türkiyənin NTV televiziyasına müsahibə verib



*- Cənab Prezident, Türkiyə ilə müəyyən çərçivələrdə hərbi razılaşmalar var. Bu razılaşmalar çərçivəsində, ya da yeni razılaşmalara əsasən Azərbaycanda bir Türkiyənin hərbi bazasının qurulması fikrinə necə baxırsınız? Belə bir fikriniz varmı?*

- Bu haqda bugünə qədər bizim ikitərəfli əlaqələrdə məsələlər müzakirə olunmamışdır. Bizim Türkiyə ilə çox geniş hüquqi sənədlər bazası var. Yəni, bir çox sahələrdə bizim imzaladığımız müqavilələr qüvvədədir, o cümlədən bu müqavilələrdə hərbi sahədə işbirliyi və qarşılıqlı yardım haqqında da maddələr var. Bu, bizim haqqımızdır. Əgər belə bir vəziyyət, Azərbaycan üçün çox ciddi təhlükə yaranarsa, təbii ki, Türkiyə bizim müttəfiqimizdir və biz bu imkanlardan istifadə edə bilərik. Amma Türkiyənin hərbi bazasının Azərbaycanda yaradılması haqqında hər hansı bir müzakirə olmamışdır. Bizim hərbi sahədə işbirliyimiz ildən-ilə güclənir. Təkcə keçən il 10 birgə hərbi təlim keçirilmişdir. Bu il koronavirusa görə bir az ara verildi. Yalnız iki dəfə təlim keçirilmişdir. Ancaq bu təlimlər də bizim bölgəmizdə böyük narahatlıq yaratdı. Hesab edirəm ki, bu narahatlığın heç bir səbəbi, heç bir əsası yoxdur. Çünki bu təlimlər hər hansı bir ölkəyə qarşı hazırlıq xarakterli təlimlər deyil. Bu təlimlər bizim hərbi sahədə işbirliyimizin möhkəmləndirilməsi, Azərbaycan Ordusunun təkmilləşdirilməsi, Türkiyə Ordusunun standartlarına yaxınlaşması və Türkiyənin hərbi quruculuq sahəsində müsbət təcrübəsinin öyrənilməsi mənasını daşıyır. Ona görə Türkiyənin hərbi bazası ilə bağlı beynəlxalq mediada kifayət qədər çox məlumatlar gedir. Bunun heç bir əsası yoxdur. Türkiyə-Azərbaycan işbirliyi o qədər güclüdür, o qədər genişşaxəlidir ki, biz istənilən anda bir-birimizin yanındayıq. Baza olsa da, olmasa da, biz Türkiyəyə güvənirik, Türkiyə isə bizə güvənir.

*- Problemin həllində Siz ya sülh yolu ilə müzakirə tərəfdarısınız, ya da müharibə apararaq bu işi həll edəcəksiniz deyirsiniz. Ruslar, Moskva isə dünən hərbi həlli qəbul etmirik dedi. Bunu necə dəyərləndirirsiniz, yəni əməliyyatı dayandırın deyirsə, dayandıracaqmısınız?*

- Bilirsiniz, biz artıq bir neçə dəfə bu məsələ ilə bağlı öz mövqeyimizi açıqladıq. Mən də bunu söylədim, yenə də mən öz fikrimdə qalıram ki, demək olar bütün yerlərdən bizə ünvanlanan mesajlar, təkcə bu dövrdə deyil, bundan əvvəlki dövrdə də bu məsələnin hərbi həlli yoxdur. Biz də buna necə deyərlər, vaxtından əvvəl heç bir reaksiya vermirdik. Onlar belə söyləyir, söyləsinlər, onların fikri budur, bizim də fikrimiz odur ki, bu, sülh yolu ilə həll olunsun. Ancaq həll olunsun. Amma biz nə gördük, bu 30 il heç bir nəticə vermədi. Otuz il ərzində bu atəşkəs rejimində Ermənistan işğal edilmiş torpaqlarda güclü mühəndis-istehkam qurğuları qurmuşdur. Bu gün Azərbaycan Ordusunun peşəkarlığı və cəsarəti nəticəsində biz o istehkamları yarırıq. Otuz il ərzində Ermənistan sülhə yox, bu torpaqları daim işğal altında saxlamağa səy göstərmişdir. Çünki əgər sən sülhə meyilli olsaydın, niyə Füzulidə, niyə Cəbrayılda, yaxud da ki, Ağdam istiqamətində bu istehkamları qurursan? Qurursan ki, daim bu torpaqları öz nəzarətin altında saxlayasan. Yəni, bu sülh, atəşkəs prosesi bunu gətirib çıxardı. Ondan sonra Ermənistan rəhbərliyi daha da azğınlaşdı. Baxın, Paşinyan nələr söyləyirdi, onun müdafiə naziri nə söyləyirdi? Müdafiə naziri söyləyirdi ki, biz Azərbaycanla yeni müharibə aparacağıq, yeni torpaqlar uğrunda yeni müharibə. Bu, bizə qarşı açıq hədə idi. Paşinyan deyirdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Yəni ki, bir santimetr torpaq bizə verilməyəcək. O zaman hansı sülh yolları ilə bunun həlli mümkündür? Mən isə deyirdim ki, biz indi məsələnin hərbi yollarla həlli prosesindəyik. Biz istəyirik ki, bu proses nə qədər tez olsa bitsin və ondan sonra diplomatik proses başlasın. Yəni, bizim yanaşmamız budur ki, bu məsələ hərbi-siyasi yollarla çözülsün. Tək hərbi yolla həll edilə bilməz. Mən bunu qəbul edirəm. Çünki hərbi toqquşma prosesindən sonra tərəflər gərək sülh müqaviləsi haqqında düşünsünlər və bunu etsinlər. Yəni, siyasi yollar olacaq. Ona görə hərbi-siyasi yolla bu məqbul yoldur. Biz hərbi yolu dayandırmaq istəyirik. Ancaq Ermənistan hələ də düşünür ki, itirilmiş, yəni, bizim azad etdiyimiz torpaqları geri qaytaracaq. Ona görə döyüş meydanında da bizə daim hücum edir.

*- Cənab Prezident, o zaman bunu anlayıram ki, qarşı tərəf masaya oturmağa razı olana qədər siz cəbhədə irəliləyəcəksiniz.*

- Biz irəliləyəcəyik. Bir də ki, onlar gərək atəşkəsə riayət etsinlər. Çünki onlar atəşkəsi pozdular. Günorta saat 12-dən atəşkəs elan edildi. Biz bütün hərbi birləşmələrimizə çox ciddi əmr verdik ki, atəşkəsə riayət edin, dayandırın. Halbuki bunu etmək o qədər də asan deyil. Biz saat 12-də dayandıq, amma onlar dayanmadı. Ondan sonra təqribən 1 saat ərzində biz yenə də özümüzü müdafiə etmək üçün hərəkətə keçdik və yenə də bir neçə kəndi azad etdik. Ona görə Ermənistan nəhayət, anlamalıdır ki, bu yolla o, heç nəyə nail olmayacaq. Yalnız atəşkəsə onlar əməl etməlidirlər. Hesab edirəm Ermənistan rəhbərliyi bu məsələ ilə bağlı yeni bir açıqlama verməlidir ki, onlar atəşkəsə sadiqdir və buna əməl edirlər. O zaman biz də dayanarıq. Amma, əlbəttə, proses daha illər boyunca davam edə bilməz. Ondan sonra bizə təqvim verilməlidir. Biz Moskva görüşlərində də təqvim üçün o qədər də israr etmədik. Çünki bir gün ərzində bunu razılaşdırmaq çətin bir işdir. Biz bunu anlayırıq. Ancaq sülh prosesi başlanan kimi gündəlikdə duran ilk məsələ təqvim məsələsidir. Tarixlər verilməlidir. Hansı tarixlərdə qalan torpaqlardan erməni silahlı qüvvələri çıxır və biz bu torpaqlara giririk. Əks təqdirdə, biz davam edəcəyik, dediyim kimi sona qədər.

*- Yəni, bunu başa düşürük, əgər Ermənistan hücumları dayandırarsa, atəşkəs həyata keçərsə yeni bir müzakirə prosesi başlayır və zəmin formalaşdırılacaq. Moskvadakı müzakirədə başa düşdüyümüz qədər Minsk 2007, 2009, 2012 Madrid prinsiplərindən bəhs olunmadı. Amma o prinsiplərin ilk maddəsi, səhv etmirəmsə, yeddi rayondan geri çəkilməklə bağlı idi.*

- Bəli, doğrudur.

*- Siz o prinsipləri hələ də gündəmdə saxlayırsınızmı, yoxsa onları yeniləmək lazımdır?*

- Yox, onları gündəmdə saxlayırıq. Mən bunu artıq açıqlamışam. Biz Madrid prinsipləri adlandırılan təməl prinsiplərə sadiqik. Çünki bu prinsiplər bizim maraqlarımıza cavab verir. Onsuz da Ermənistan bu prinsipləri qəbul etmədiyi barədə artıq açıqlama vermişdir. Mənə verilən məlumata görə, Ermənistanın baş naziri dünən, ya ondan əvvəlki gün belə bir açıqlama vermişdi ki, bu, onlar üçün keçərli deyil. Yəni, kim danışıqlar prosesini pozur? Ermənistan. Biz indi torpaqlarımızı azad edirik. Biz bayrağımızı artıq şəhərlərimizi əhatə edən dağlara sancırıq, şəhərlərimizdə mövcud olan binalara sancırıq, biz zəfər marşındayıq. Belə olan halda baza prinsiplərinə sadiqlik göstərmək çox böyük siyasi iradə və məsuliyyət tələb edir. Ona görə biz bu baza prinsiplərinə sadiqik. Siz dediyiniz kimi, orada göstərilib ki, 5 rayon birinci mərhələdə, ondan sonra 2 rayon, ondan sonra Dağlıq Qarabağın gələcəyi ilə bağlı söhbət aparılacaq. Azərbaycan köçkünləri Dağlıq Qarabağa, o cümlədən Şuşaya qayıtmalıdırlar, - çünki Şuşanın əhalisinin 98 faizi azərbaycanlılar idi, - Xankəndiyə qayıtmalıdırlar və ondan sonra necə ki, Azərbaycanın başqa yerlərində, Bakıda, başqa şəhərlərdə azərbaycanlı və erməni əhali bir yerdə yaşadıqları kimi orada da bir yerdə yaşayacaqlar. Bizim mövqeyimiz budur. Ermənistanın mövqeyi isə azərbaycanlıları oradan qovmaq, - necə ki, bunu etdilər, - sonra azərbaycanlılara imkan verməmək ki, qayıtsınlar, - orada etnik təmizləmə siyasətinin nəticələrini möhkəmləndirmək, bizim tarixi dini, mədəni abidələrimizi yerlə yeksan etmək, azərbaycanlıların mədəni irsini silmək və ondan sonra bu torpaqları erməniləşdirməkdir. Bax, onların yanaşması budur, bizim yanaşmamız isə budur.

*- Daha fərqli bir sualım da var. Dünən Paşinyan bir açıqlama verdi, Azərbaycan Ordusu şimaldan və cənubdan irəliləyir, Sizin də söylədiyiniz kimi. Dedi ki, biz, əslində, bir taktika olaraq oradan çəkildik. Bu barədə nə deyə bilərsiniz?*

- Bu, Paşinyanın növbəti yalanıdır. Bilirsiniz, hər bir məsuliyyətli adam gərək yalan danışmasın. Hər bir insan. Xüsusilə siyasətçi, xüsusilə ölkə başçısı. Bu, heç bir insana yaraşan deyil. Onun isə bütün əməli, bütün sözü yalandır - tarixlə bağlı, bu münaqişə ilə bağlı, bu gün baş verən hadisələrlə bağlı. O, əgər bunları bilmirsə, o zaman necə ali baş komandan olur? Əgər real durumu ona demirlərsə, o zaman o, öz hərbi rəhbərlərinə irad tutmalıdır. Əgər bilib yalan danışırsa, - mən daha çox bu versiyaya inanıram, - o zaman bu, böyük ayıbdır.

Bu gün Azərbaycan Ordusu bütün istiqamətlər üzrə erməni ordusuna çox sarsıdıcı zərbələr endirib. Mən bəzi açıqlamalar da verdim və bu rəqəmlər hər gün dəyişir. Dünənə olan dəqiq məlumata görə, 200 erməni tankı məhv edildi, 33 erməni tankı qənimət götürüldü, - Ermənistanın əlində bir dənə də olsun Azərbaycanın hərbi texnikası yoxdur, - 33 tank, özü də saz vəziyyətdə, indi bizim ordumuzdadır. Ondan sonra 2 ədəd S-300 hava hücumuna qarşı müdafiə sistemi məhv edildi, 35 ədəd OSA hava müdafiə sistemi məhv edildi, KRUQ KUB və başqa texnikalar. Beləliklə, erməni ordusunun texniki təchizatı çox sarsıldı, yəni çökür. Biz irəliləyirik, hər dəfə yeni torpaqları azad edirik və bu, reallıqdır. Yaxın vaxtlarda yeni açıqlamalar olacaq və bu onları daha da sarsıdacaq. Erməni xalqı da həqiqəti bilməlidir. Ən dəqiq məlumatı biz veririk. Ona görə erməni xalqı əgər real vəziyyəti öyrənmək istəyirsə, bizə qulaq assın, bizi eşitsin.

*- Cənab Prezident, başa düşdüyümə görə otuz illik problem həll ediləcəkmi? Mənə elə gəlir ki, həll ediləcək, amma mən Sizdən soruşmaq istəyirəm. 1990-cı illərdən bəri davam edən bu işğal problemi bu dəfə həll ediləcəkmi, yoxsa hər kəs bir nöqtədə duracaq, bir status-kvo formalaşacaq və o status-kvo davam edəcəkmi? Tam həll reallaşacaqmı, reallaşmayacaqmı? Bəlkə erkən bir sualdır, amma nə deyə bilərsiniz?*

- Məncə artıq həll edilir. Hesab edirəm ki, beynəlxalq təşkilatlar və bu məsələ ilə yaxından məşğul olan ölkələr bunu görürlər və bu, yeni reallıqdır. Bu yeni reallığı biz təşkil etdik və bu məsələ həll olunur. Çünki baza prinsiplərində göstərilmişdir ki, birinci mərhələdə 5 rayon bizə qaytarılır. Onlardan artıq 2 rayonun böyük qismi, tam deyil hələ, amma böyük qismi artıq bizdədir. Əgər Ermənistan yenə də mənfi davranış nümayiş etdirərsə, ümid edirəm ki, yaxın gələcəkdə digər rayonlar da bizdə olacaq. Bu, məsələnin həlli deyilmi? Yəni, biz, əslində, baza prinsiplərini döyüş meydanında həyata keçiririk, gerçəkləşdiririk. Minsk qrupu buna nail ola bildimi? Xeyr, ola bilmədi. Ona görə bu məsələnin həlli, bir daha demək istəyirəm ki, hərbi-siyasi yollarla mümkündür. Hərbi yol hazırda baş verir, biz istəyirik ki, nə qədər tez olursa-olsun, bitsin, ondan sonra siyasi proses başlansın və baza təməl prinsipləri də əsas olsun.

Məsələnin həll edilməməsinin səbəbi, ilk növbədə, beynəlxalq təşkilatların öz qərarlarına hörmətsiz yanaşmasıdır. Çünki Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası bildiyiniz kimi, 1993-cü ildə 4 qətnamə qəbul etmişdir və orada göstərilir ki, erməni silahlı qüvvələri torpaqlarımızdan qeyd-şərtsiz, yəni, heç bir şərt qoymadan çıxmalıdır, tam həcmdə. Amma bu, icra edildi? Edilmədi. Sonra Minsk qrupu yaradıldı, ondan bir il öncə yaradıldı, 28 il ötdü, bir şey oldu? Olmadı. Yəni, bizə elə gəldi ki, sanki beynəlxalq təşkilatlar münaqişənin bu vəziyyətdə saxlanmasına tərəfdardırlar ki, necə var elə də qalsın. Azərbaycan köçkünləri əbədi olaraq belə vəziyyətdə qalsın. Ermənistan işğal edilmiş torpaqlarda daha da möhkəmlənsin. Bilirsiniz, orada qanunsuz məskunlaşma aparılırdı. Qanunsuz! Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına zidd olan məsələdir. Onlar erməniləri Suriyadan Dağlıq Qarabağa, Şuşaya köçürürlər, onlara imkan yaradırlar, pul verirlər və artıq bunu televiziyalarda açıq nümayiş etdirirlər. Yəni, bu, beynəlxalq müstəvidə qəbul edilmiş cinayətdir. Onların istəyi budur ki, vaxt keçsin, Azərbaycan xalqı bu torpaqlardan əlini üzsün. O torpaqları görməyən yeni nəsil yetişəcək və o nəsil oraya qayıtmaq istəməyəcək. Azərbaycan bu vəziyyətlə barışacaq, bununla paralel olaraq, ermənilər başqa ölkələrdən oraya gətiriləcək, orada erməni əhalisi çoxalacaq, sabah da deyəcəklər ki, “bilirsiniz, artıq reallıq budur, barışın”. Bu idi onların məqsədi və təəssüf ki, onların hamiləri, onların havadarları bu işlərdə onlara yardımçı olmuşlar. Biz bu məkrli, çirkin planları məhv etdik. Biz yeni reallıq yaratdıq. Bu gün gərək hər kəs bu reallıqla razılaşsın və barışsın.

*- Mən Sizə bir mesaj da gətirdim. Tərtərdə bombardman zamanı sığınacağa girmişdik. Bir vətəndaş vardı, məcburi köçkün, oradan köçmüş. Reportaj hazırlayarkən dedi ki, artıq mən köçkün deyiləm. Dedi ki, mən azad bir vətəndaşam, Suqovuşandan gəlmişdi. Dedi, əgər Prezidentlə qarşılaşsanız, ona hörmətimizi, sevgimizi və salamlarımızı çatdırın. Anladığımıza görə, regionda balanslar artıq dəyişib. Yəni, əvvəlki balanslar - status-kvo yoxdur. Daha da dəyişəcək. Həm dünyaya, həm də Türkiyəyə hansı mesajlar vermək istərdiniz?*

- İlk növbədə, istəyirəm ki, həmin vətəndaşa sizin televiziya vasitəsilə öz sözlərimi deyim. Mən şadam ki, bu gün onun kimi bu sözləri deyən minlərlə insan var. Onlar sevincdən göz yaşları tökürlər, deyirlər ki, mən artıq köçkün deyiləm. Mən bu köçkünlük vəziyyətindən canımı qurtarmışam. Bilirsiniz, mənə minlərlə məktub gəlir. Bu məktubları oxuyanda, sözün düzü, mən də bəzi hallarda sevinc göz yaşlarımı saxlaya bilmirəm. O məktublarda o qədər səmimi, o qədər isti, o qədər qürurverici sözlər yazılır və mənə mesaj kimi çatdırılır. O məktubları oxuyanda bir daha görürəm ki, Azərbaycan xalqı nə qədər böyük xalqdır. Uzun illər belə vəziyyətdə yaşamaq, ancaq ümidlərlə yaşamaq, ümidlərlə ki, gün gələcək və onlar öz dədə-baba ocağına qayıdacaqlar. Bu, doğrudan da, böyük fədakarlıqdır. Mən çox xoşbəxtəm ki, bu qələbə sevincini biz hamımız bizim insanlara bəxş edə bildik.

Bir daha demək istəyirəm, mən artıq bunu demişəm, orada hər şey dağılıb. İnşallah, bu hərbi toqquşma başa çatandan sonra siz də, biz hamımız da - bütün insanlar gedib görəcəklər ki, ermənilər orada hansı vəhşiliyi törədiblər. Bütün şəhərlər darmadağın edilib, yəni, Stalinqraddan da pis mənzərə. Evlər dağıdılmış, bizim bütün əmlak talan edilmiş, çərçivələr, qapılar sökülmüş, yəni talançılıq. Heç nə yoxdur. İndi Füzulinin kəndlərindən bizim əsgərlərimiz xəbər verir, materiallar göndərir. Füzuli şəhəri də artıq bizim gözümüzün qabağındadır. Orada bir dənə də salamat bina tapmaq mümkün deyil. Yəni, bu vəhşiliyi törətdilər. Amma köçkünlərimiz bilirlər ki, biz o şəhərləri, kəndləri bərpa edəcəyik. Evləri inşa edəcəyik. Onlar oraya qayıdacaq və sülh, əmin-amanlıq şəraitində öz dədə-baba torpaqlarında yaşayacaqlar.

O ki qaldı bölgədə mövcud olan duruma, təbii ki, durum dəyişir. Əgər son illər ərzində bizim bölgəmizdə daha geniş mənada dəyişən mənzərəyə nəzər salsaq, görərik ki, bir çox yeniliklər var. Əvvəllər sanki bir doğmalar var idi - bu ölkələr müttəfiqdir, bu ölkələr müttəfiq deyil, yaxud da ki, bunlar bir-birinə qarşıdır. Ancaq indi bu dəyişdi. Misal üçün, NATO üzvü olan Türkiyə indi Rusiya ilə çox səmərəli əməkdaşlıq edir, həm Suriyada, həm Liviyada, başqa yerlərdə və eyni zamanda, artıq danışdığımız kimi bizim bölgəmizdə. Bu, bir yenilikdir. Bunu 10 il bundan əvvəl kimsə desəydi, bəlkə də inanmazdıq. Eyni zamanda, NATO-nun daxilində bəzi ölkələr arasında münasibətlər o qədər də səmimi deyil. Bu da bir yenilikdir. Orada sanki həmrəylik pozulur. Avropa İttifaqı ilə əlaqədar olan hadisələr. Kimin ağlına gələ bilərdi ki, Böyük Britaniya Avropa İttifaqından çıxacaq və ondan sonra bir böhran yaranacaq. Heç kimin ağlına gələ bilməzdi. Yəni, ənənəvi fərziyyələr artıq yoxdur. Hansı ölkə buna daha tez uyğunlaşsa, o ölkə də öndə olacaq.

Bizim siyasətimiz hər zaman praqmatik olub - real durumu düzgün təhlil etmək, öz maraqlarımızı düzgün təsbit etmək. Bu maraqlara necə nail olacağıq, bunu düşünmək, taktikamızı yaratmaq, strateji baxış çərçivəsində taktiki gedişlərdə düzəlişlər etmək. Ancaq bununla bərabər prinsipial mövqeyimizdən dönməmək. Bu siyasət bu gün bizə uğur gətirir. Mən hesab edirəm ki, Türkiyə və Azərbaycan dünyanın yeni nizamına daha tez hazır olmuş ölkələr sırasındadır. Eyni zamanda, Türkiyə bu gün dünya miqyasında böyük güc kimi dünyanın yeni nizamının formalaşmasında çox fəal rol oynayır. Təkcə bizim regionda deyil, dünyada.

O ki qaldı bizim regionumuza, artıq Türkiyə-Azərbaycan birliyi bir reallıqdır. Bununla hər kəs barışmalıdır. Nə qədər çox vaxt keçsə, bizim birliyimiz daha da güclənəcək. Çünki Türkiyənin potensialı, Azərbaycanın təbii resursları, bizim aramızda olan nəqliyyat layihələri, Türkiyə və Azərbaycan vasitəsilə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda, Orta Asiyadan, Əfqanıstandan Azərbaycan və Türkiyə ərazilərindən yeni nəqliyyat layihələrinin icra edilməsi - bütün bunlar yenilikdir. Yeni bir nəqliyyat xəritəsi mövcuddur. Yeni enerji xəritəsi mövcuddur. Mən gələcəyi çox nikbin görürəm. Mən əminəm ki, biz istədiyimizə nail ola biləcəyik. Çox şadıq ki, bizim Türkiyə kimi qardaş ölkəmiz var, güclü dövlət var, sözünü deyən, maraqlarını müdafiə edən, heç kimdən çəkinməyən və irəliyə gedən. Bu, bizim gücümüzü artırır. Türkiyə üçün Azərbaycan, Azərbaycan üçün Türkiyə bir nömrəli müttəfiqdir. Bu, böyük sərvətdir. Bu hadisələr bizim əlaqələrimizi daha da möhkəmləndirdi.

*- Cənab Prezident, sonuncu sualım olacaq, çox qısa. Bu dəfə dayanmayacağıq deyirsiniz və bizim şərtlərimiz işğal altındakı torpaqlar azad edilənə qədər gedəcəyik deyirsiniz. Sizi səhv anlamadım ki?*

- Yox, doğru anladınız. O mənada ki, bizim son hədəfimiz dəyişməz olaraq qalır. Azərbaycanın beynəlxalq təşkilatlar, dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyü təmin edilməlidir. Biz döyüş meydanında dayanmağa hazırıq. Əgər Ermənistan buna hazır olarsa və bizə təqvim verilərsə, biz sabah dayanmağa hazırıq. Ancaq proses olaraq biz dayanmayacağıq. Biz istəyirik ki, artıq hərbi proses siyasi prosesə çevrilsin. Ermənistan buna hazırdırsa və beynəlxalq təşkilatlar, böyük ölkələr Ermənistanı inandıra bilərlərsə, bu, daha tez bir zamanda olacaq. Yox, o zaman Azərbaycan Ordusunun zəfər yürüşü davam edəcək.

*- Cənab Prezident, mən 1993-cü ilin ilk aylarında burada cəbhə bölgəsində idim. 1994-cü ildə rəhmətlik dövlət başçısı cənab Heydər Əliyev ilə görüşdüm. Bakıda bura o zaman yox idi, deyəsən.*

- Eləmi? Görüşdünüz? Bu, yox idi, bu, sonra inşa edildi.

*- Bu gün də Sizinlə görüşdüm, yəni, iki dövlət başçısı ilə görüşdüm. 1993-cü ildə cəbhədəki vəziyyətlə indiki vəziyyət çox fərqlidir, xeyli çox fərqlidir. Bunu da gördük.*

- Doğrudur.

*- Sizə çox təşəkkür edirəm. Sonda bir mesajınız, ya da ki, sözləriniz varsa, onu da eşitmək istəyirəm. Qəbul etdiyiniz və suallarımızı cavablandırdığınız üçün həm NTV, həm də öz adımdan çox təşəkkür edirəm.*

- Çox sağ olun. Mən də təşəkkür edirəm, NTV-nin bütün əməkdaşlarına salamlarımı çatdırın. Azərbaycanda türk kanalları əvvəllər də izlənilirdi, bu dövrdə, demək olar ki, daha geniş auditoriyaya malikdir. Mən özüm də hər səhər tezdən televizoru açanda, o cümlədən türk kanallarına da baxıram, o cümlədən NTV-yə. Bu günlər ərzində Türkiyə mətbuatında və Türkiyə cəmiyyətində bizə göstərilən dəstək və həmrəylik əsl qardaşlıq təzahürüdür. Biz bir daha gördük ki, atamın məşhur kəlamı “Bir millət, iki dövlət”, sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Bu reallığı biz yaratdıq.

Bilirsiniz, dünyada bir çox ölkələr var ki, o ölkələrin xalqları bir-birinə yaxındır - etnik, dini, mədəniyyət, dil baxımından. Ancaq bu, o demək deyil ki, o ölkələr arasında möhkəm işbirliyi, qardaşlıq olsun. Belə misallar çoxdur, siz də bunu yaxşı bilirsiniz. Bizim üstünlüyümüz odur ki, Türkiyə və Azərbaycan prezidentləri - əziz qardaşım Rəcəb Tayyib Ərdoğan ilə birlikdə bu təməl - ortaq tarix, etnik köklər və dil üzərində elə bir möhkəm bina inşa etdik ki, bu, əbədi qalacaq. Bizdən sonra gələn nəsillər də hərəsi bu binanın üstünə bir daş qoyarsa, bu möhtəşəm bir bina olacaq - Türkiyə-Azərbaycan qardaşlığı binası. Mən bütün qardaşlarıma, Türkiyədə yaşayan bütün insanlara Azərbaycan xalqı adından dərin təşəkkürümü bildirirəm. Biz gördük ki, biz tək deyilik. Qardaşım Tayyib bəyin dediyi kimi, Azərbaycan hər zaman bilməlidir və bilir ki, Türkiyə onun yanındadır və bu, bizə güc verir.

Eyni zamanda, onu da bir daha demək istəyirəm, bu gün başqa ölkələrin bu işlərə qarışmamasının əsas səbəbi də ilk saatlardan hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın açıqlamalarıdır ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır, işin sonuna qədər də yanında olacaq.

Bir daha təşəkkür edirəm və bütün türk qardaşlarıma xoşbəxtlik, rifah arzulayıram.

*- Çox təşəkkür edirəm, cənab Prezident.*

- Sağ olun.

# İlham Əliyev beynəlxalq informasiya məkanında erməni faşizmini ifşa edir

## "Təkcə dronlarımız Ermənistana 1 milyard dollar ziyan vurub"

### Prezident İlham Əliyev "France 24" televiziya kanalına müsahibə verib



*Əvvəli 1-ci səh.*

- Bu, Ermənistanın davranışından asılıdır, çünki biz həmişə öhdəliyimizə sadiq qalırıq. Bildiyiniz kimi, humanitar zəmində atəşkəsin elan olunması qərarı Rusiyadan gəlmişdir və biz bunu dəstəklədik. Çünki düşünürəm ki, ölmüş əsgərlərin cəsədlərini və girovları mübadilə etmək, fəaliyyəti danışıqlar masasında davam etdirmək üçün bu, doğru qərar idi. Çünki Moskvada elan olunmuş bəyannamədə faktiki olaraq danışıqların əsas prinsiplər çərçivəsində aparılacağı təmin edilmişdir. Bu, həmişə bizim mövqeyimiz olub. Ermənistan tərəfi həmişə prosesi pozmağa və danışıqlar masasına yeni yanaşmaları tətbiq etməyə çalışırdı. Bunlar bizim tərəfimizdən və Minsk qrupunun həmsədrləri tərəfindən rədd edilmişdir. Digər məsələlərlə birlikdə bəyannamənin ən mühüm hissəsi ondan ibarətdir ki, danışıqların formatı dəyişməz olaraq qalacaq. Bu, çox önəmlidir. Ola bilsin, bunun geniş beynəlxalq auditoriya üçün nə anlam daşıması o qədər aydın deyil. Mən, əlbəttə, bu barədə daha ətraflı məlumat verəcəyəm. Çünki Ermənistanda yeni hökumət hakimiyyətə gələndən sonra son iki il ərzində fəaliyyətlərindən biri qondarma "Dağlıq Qarabağ respublikasının hökumətini" danışıqlar masasına cəlb etmək və beləliklə də, danışıqların formatını dəyişmək idi. Çünki iyirmi ildən artıqdır ki, danışıqlar Minsk qrupu prosesi çərçivəsində Ermənistan və Azərbaycan arasında aparılır. Odur ki, qondarma "Dağlıq Qarabağ respublikası hökumətini" danışıqlara cəlb etmək səyləri formatı dəyişdirmək cəhdləri idi.

Beləliklə, hər iki tərəf formatın dəyişməz olaraq qalmasına sadiq qaldıqda, bu, hər şeyin əvvəllər razılaşdırılmış çərçivədə olacağı deməkdir. Biz atəşkəs rejiminə əməl edirdik. Lakin bildiyiniz kimi, Ermənistan atəşkəsi kobud şəkildə pozdu və bu, təkcə Gəncədə baş verməyib. Gəncədə mülki vətəndaşlara hücum onların təcavüzkar siyasətini əks etdirir. Həmçinin onlar atəşkəsi hər gün pozurlar. Bu gün mənə məlumat verilmişdir ki, bu səhər saat 7-dən 9-a qədər onlar Tərtər və Ağdam şəhərlərini 150 dəfədən çox artilleriya atəşinə tutublar. Əfsuslar olsun ki, bu gün Tərtərdə mülki şəxslər arasında bir nəfər həlak olub.

*- Lakin Azərbaycan da atəşi davam etdirib, elə deyilmi? Dünya Dağlıq Qarabağdakı Stepanakertdə mülki şəxslərin artilleriya atəşinə tutulması görüntülərini görüb.*

- Atəşkəs elan olunandan bəri Azərbaycan tərəfindən bütün artilleriya atəşi dayandırılmışdır. Bu, birincisi. İkincisi, biz işğal olunmuş ərazilərdə istənilən şəhərdə və ya kənddə qəsdən mülki şəxsləri heç vaxt atəşə tutmuruq. Bizim hədəflərimiz yalnız hərbi qurğular idi. Bizim hərbi hədəflərimiz çox diqqətlə müəyyən olunmuşdur. Odur ki, biz yalnız insanlarımızın və əsgərlərimizin həyatına təhlükə olan hədəfləri vururuq. Lakin əfsuslar olsun ki, ermənilər insanların yaşadığı şəhər yerlərində hərbi qurğuları yerləşdirmək taktikasından istifadə edirlər, biz də özümüzü müdafiə etməli idik. Lakin atəşkəs müəyyən olunandan bəri biz ona sadiq idik, ancaq Ermənistan atəşkəsi pozdu, odur ki, biz cavab verməli idik.

*- Beləliklə, Siz deyirsiniz ki, atəşkəs müəyyən olunandan sonra Azərbaycan tərəfindən heç bir zərbə endirilməmişdir? Hətta hərbi hədəflərə də?*

- Xeyr, hərbi hədəflərə zərbələr endirilmişdir. Biz bunu təkzib etmirik. Lakin bu, təbiidir, çünki biz özümüzü müdafiə etməli idik. Atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əks halda Ermənistan üstünlüyə malik olacaq və öz məqsədinə çatacaq. Əslində, onlar elə bunu etməyə çalışırlar. Onlar azad edilmiş əraziləri geri götürməyə cəhd edirlər. Xüsusilə onlar Hadrut şəhərini geri götürməyə cəhd ediblər. Lakin uğursuzluğa düçar oldular. Mənim onlara məsləhətim belədir və mən artıq Ermənistan hökumətinə və həmçinin Ermənistan xalqına açıq şəkildə mesajımı ünvanlamışam ki, onlar azad edilmiş əraziləri geri götürmək cəhdlərini dayandırmalıdırlar. Bu, yalnız yeni qurbanlara səbəb olacaq və qan tökülməsinə gətirib çıxaracaqdır.

*- Bəs Dağlıq Qarabağdakı kilsələrin bombardman edilməsi görüntüləri barədə nə deyə bilərsiniz? Əlbəttə ki, onlar hərbi hədəflər deyil.*

- Bəli, siz haqlısınız. Biz bu məsələni araşdırırıq. Onu qeyd etmək istəyirəm ki, Azərbaycan dini tolerantlıq səviyyəsi çox yüksək olan bir ölkədir və bu, bütün aparıcı beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən qeyd olunmuşdur. Zati-müqəddəsləri, Vatikanın rəhbəri, Roma Papası Fransisk Bakıya səfəri zamanı açıq şəkildə demişdir ki, Azərbaycanda mədəniyyətlərarası və dinlərarası dialoqun səviyyəsi çox yüksəkdir. Siz yəqin ki, Bakının mərkəzində olan, tərəfimizdən bərpa edilmiş erməni kilsəsini görmüsünüz. Biz onu erməni xalqının mirası kimi qoruyuruq. Biz bu kilsədə erməni dilində 5000-dən artıq qədim kitab saxlayırıq. Lakin Ermənistan bizim məscidlərimizə nə edib? Onlar Ağdamın, Füzulinin və Şuşanın məscidlərinə nə ediblər? Demək olar ki, onlar nəinki onları dağıdıblar, orada heyvan saxlayırlar. Onlar orada donuz saxlayırlar və bununla təkcə bizim deyil, bütün müsəlmanların hisslərini təhqir edirlər.

Mən demirəm ki, biz bunu qisas almaq üçün etmişik. Xeyr. Biz bu məsələni araşdırmalıyıq. Biz nə baş verdiyindən əmin deyilik. Bizi günahlandırmaq üçün bunun ermənilər tərəfindən törədilə biləcəyinə dair şübhələrimiz var. Əgər bu, Azərbaycan hərbi birləşmələri tərəfindən törədilibsə, bu, səhv olub. Bizim hədəflərimiz arasında heç bir tarixi və ya dini hədəf yoxdur.

*- Mən indi Sizdən diplomatik proses barədə soruşmaq istəyirəm. ATƏT-in Minsk qrupu, hazırkı həmsədrlər olan Fransa, ABŞ və Rusiya ilə vasitəçilik davam edir. Sizcə Fransanın bu danışıqlarda həmsədr qalması ilə bağlı bu struktur qalmalıdır?*

- Bilirsiniz ki, toqquşmaların əvvəlindən biz bəzi ziddiyyətli bəyanatlar və bəzi mesajlar alırıq. Lakin düşünürəm ki, qarşılıqlı diplomatik səylərimiz sayəsində vəziyyəti nəzarət altında saxlamağa müvəffəq olmuşuq. Bildiyiniz kimi, Prezident Makron mənə bir neçə dəfə telefonla zəng edib və bizim sonuncu söhbətimiz çox müsbət idi. Biz münaqişənin siyasi həll yolunun tapılması səylərinə sadiqik. Mənə məlumat verildi ki, Fransa həmsədr olaraq neytral qalacaq, çünki bu, həmsədrin mandatıdır. Bu səhər mənə məlumat verildi ki, Fransanın Xarici İşlər naziri bəyanat verib ki, Fransa Minsk qrupunun həmsədri olduğuna görə neytral olmalıdır. Biz bu mövqeyi tam dəstəkləyirik və bizim mövqeyimiz hər zaman belə olub ki, bütün həmsədrlər neytral olmalıdır, onlar tərəf tutmamalıdırlar. Çünki bu, onların mandatına ziddir. Hər bir ölkənin milli səviyyədə müttəfiqləri, dostları var, bəzi ölkələrlə daha fəal, bəzi ölkələrlə daha az fəal əlaqələri var. Bu, normaldır və heç kim buna etiraz etmir. Lakin əgər bəzi ölkələrin vasitəçilik mandatı varsa, əlbəttə, əminəm ki, hər iki tərəf - Ermənistan və Azərbaycan neytrallıq gözləyir və hazırda biz bu neytrallığı görürük. Ona görə də düşünürəm ki, sizin indi qeyd etdiyiniz məsələ bitib, beləliklə, biz həmin səhifəni bağlamışıq.

*- Əvvəlki müsahibələrinizdə Suriyadan 300 döyüşçünün Sizin tərəfinizdə vuruşmaq üçün gətirildiyinə dair açıqlamasından sonra Siz Emmanuel Makrondan üzrxahlıq tələb etmişdiniz. Siz onunla sonuncu dəfə söhbət edən zaman bu məsələ haqqında - onun muzdluların Sizin tərəfinizdə döyüşməyi ilə bağlı ittihamı barədə danışdınızmı?*

- Bəli, əlbəttə ki. Biz bu barədə danışdıq və mən hələ də dəlil gözləyirəm. Mənə heç bir dəlil təqdim olunmayıb. Bizim digər rəsmilərə heç bir dəlil təqdim olunmayıb. Mən Fransa Prezidentindən dəlil təqdim etməyi və danışmaq, bu məlumatı mübadilə etmək üçün müvafiq dövlət qurumlarının rəhbərləri arasında təmaslar təşkil etməyi xahiş etdim. Bu təmas baş tutdu və sizə deyə bilərəm ki, bizə heç bir dəlil təqdim olunmayıb. Ona görə əgər heç bir dəlil yoxdursa, düşünürəm ki, bu şayiələr də keçmişdə qalmalıdır. Bizdə muzdlular yoxdur. Bu, bizim rəsmi bəyanatımızdır. Toqquşmalar başlayandan artıq 2 həftədən çox vaxt keçib və heç bir ölkə bizə buna dair bir dəlil belə təqdim etməyib. Bundan əlavə, bizim buna ehtiyacımız yoxdur. Bizim 100 mindən çox döyüşçüdən ibarət ordumuz var. Bizim hazırda döyüş meydanında etdiklərimiz ordumuzun öz torpaqlarını özünün azad etməyə qadir olduğunu göstərir.

*- Fransanın Xarici İşlər naziri Jan-İv Le Drian deyib ki, Türkiyənin hərbi iştirakı mövcuddur və bu da münaqişənin beynəlmiləlləşdirilməsinə gətirib çıxara bilər. O, bu məsələdə səhv edir?*

- Bəli, o, bu məsələdə səhv edir. Türkiyənin hərbi iştirakı daha bir feyk xəbərdir. Türkiyənin hərbi iştirakı yoxdur. Biz Türkiyə istehsalı olan hərbi avadanlıqlardan istifadə edirik, bu, doğrudur. Lakin biz Rusiya istehsalı olan hərbi avadanlıqlardan, İsrail istehsalı olan hərbi avadanlıqlardan, digər ölkələrin istehsalı olan hərbi avadanlıqlardan istifadə edirik. Bunu pulsuz əldə edən Ermənistandan fərqli olaraq, biz bu hərbi avadanlıqları alırıq. Siyasi müstəvi istisna olmaqla, Türkiyə heç bir halda prosesdə iştirak etmir. Burada Türkiyə qoşunları yoxdur. Türkiyənin F-16-ları buradadır, lakin onlar burada birgə hərbi təlimdən sonra qalıblar. Yeri gəlmişkən, ötən il biz hava qüvvələri də daxil olmaqla, Türkiyə ilə 10 birgə hərbi təlim keçirmişik. Bu il pandemiya səbəbindən biz cəmi 2 təlim keçirdik. Belə alındı ki, hərbi təlimdən sonra bu toqquşma baş verdi. Beləliklə, biz F-16-ları yerdə saxlamağı qərara aldıq və onlar yerdədir, havada deyil.

*- Siz Türkiyə istehsalı olan neçə dron cəlb etmisiniz?*

- Hədəflərimizə çatmağımız üçün kifayət qədər varımızdır. Zənnimcə, məni başa düşə bilərsiniz ki, bu, mənim açıqlamamağa üstünlük verdiyim məlumatdır.

*- Lakin onlar bu münaqişədə öz sözünü deyirlər?*

- Əlbəttə, onlar çox müasir, inkişaf etmiş silahlardır. Sizə deyə bilərəm ki, təkcə Türkiyədən əldə etdiyimiz dronlar vasitəsilə biz Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikasını məhv etmişik, yalnız dronlar vasitəsilə. Əlbəttə, bildiyiniz kimi, biz başqa mənbələrdən olan dronlardan da istifadə edirik. Biz artilleriyadan istifadə edirik, geniş çeşiddə hərbi avadanlıqdan istifadə edirik. Lakin təkcə dronlar Ermənistana 1 milyard dollar ziyan vurub. Bu, onlar üçün ciddi ziyandır. Mənə maraqlıdır, onlar bütün bu avadanlığı almaq üçün bu qədər pulu haradan tapıblar, çox güman ki, onu pulsuz əldə ediblər.

*- Təəssüf ki, biz burada yekunlaşmalıyıq. Əlbəttə, Sizə verə biləcəyimiz o qədər çox suallarımız var idi. Prezident İlham Əliyev, bu gün suallarımıza cavab verdiyinizə görə Sizə təşəkkür edirəm. Bizə baxan tamaşaçılara da təşəkkür edirəm. Qarşıda yayımlanacaq beynəlxalq xəbərlərə baxmaq üçün "France 24"ü izləməyə davam edin.*

- Təşəkkür edirəm.

*- Təşəkkür edirəm. Sizinlə söhbət etmək çox maraqlı idi.*

## "Ordumuz qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə tam qadirdir"

### Prezident İlham Əliyev Rusiyanın Ria Novosti agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib



*Əvvəli 1-ci səh.*

O vaxt həmin hücum dəf edildi. Sonra avqust ayında Azərbaycanın dinc əhalisinə və hərbi qulluqçularına qarşı terror aktları törətmək üçün Ermənistan tərəfindən təxribat qrupu göndərildi və bu qrupun başçısı saxlanıldı. Hazırda o, ifadə verir. Sentyabrın sonunda bizim yaşayış məntəqələrimiz yenidən artilleriya atəşlərinə məruz qaldı. Elə ilk saatlarda bizdə həm dinc əhali, həm də hərbi qulluqçular arasında tələfat oldu. Bugünə qədər bizdə dinc əhali arasında 43 nəfər həlak olan və 200-dən çox yaralı var, təmas xəttinə yaxın kəndlərdə və şəhərlərdə 2 minə yaxın ev ya tamamilə dağıdılıb, ya da zərər çəkib. Təəssüf ki, atəşkəs parametrləri razılaşdırıldıqdan sonra da Ermənistan tərəfindən artilleriya atəşləri davam edir, o cümlədən Gəncə şəhərinin vəhşicəsinə bombardman edilməsi nəticəsində 10 nəfər dinc sakin həlak olub və 40-a yaxın adam yaralanıb.

Döyüş meydanında itkilərə gəldikdə isə bizdə olan məlumata görə erməni tərəfin itkiləri bizim itkilərdən xeyli çoxdur. Biz hərbi qulluqçular arasında itkilərimizi münaqişənin qaynar fazası başa çatandan sonra elan edəcəyik. Döyüş əməliyyatlarının nəticələrinə gəldikdə, onlar Azərbaycan Ordusu üçün çox uğurludur. Biz düşmənin dərin eşelonlaşdırılmış müdafiə xəttini yarmağa nail olduq. Bəzi sahələrdə hətta 4 müdafiə xətti vardı. Lakin ərazinin relyefi, dağ relyefi, əlbəttə, müdafiə olunmaq üçün əks-hücumla müqayisədə daha münasibdir. Bugünə qədər onlarca yaşayış məntəqəsi, o cümlədən Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun kəndlərinin çox hissəsi, Füzuli rayonunun kəndlərinin əksəriyyəti, strateji əhəmiyyətli Suqovuşan qəsəbəsi işğaldan azad edilib. Biz işğalçıları Murovdağ silsiləsindəki strateji yüksəkliklərdən çıxarmışıq və ölkəmizin ərazi bütövlüyünün bərpası üzrə uğurlu əməliyyatı davam etdiririk.

*- Cənab Prezident, Suriyadan və ya Livandan olan muzdluların Azərbaycan Ordusu tərəfində iştirak etməsi barədə müxtəlif mənbələrdən xəbərlər eşidirik. Buna nə dərəcədə inanmaq olar?*

- Bu mövzuda dəfələrlə danışmışam. Azərbaycanda hər hansı xarici hərbi iştiraka ehtiyac yoxdur. Bizim orduda 100 mindən çox döyüşçü var. Zərurət yaranarsa, səfərbərlik hesabına bu rəqəm bir neçə dəfə artırıla bilər. Bu gün malik olduğumuz silahlı dəstələr onların qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə tam qadirdir. Erməni hərbi texnikasının məhv edilməsi kadrları internetdə əlçatandır. Əlbəttə, heç bir muzdlunun bu dərəcədə ixtisası və belə texniki imkanları yoxdur. Biz təkcə pilotsuz zərbə uçuş aparatları vasitəsilə düşmənin 1 milyard dollardan artıq dəyərində hərbi texnikasını məhv etmişik. Buraya bizim malik olduğumuz başqa vasitələr daxil deyil. Azərbaycan Ordusunun potensialı məlumdur. Bizim nəyə malik olduğumuz heç kəs üçün sirr deyil. Buna görə bizim əlavə hərbi qüvvələrə ehtiyacımız yoxdur. Azərbaycan beynəlxalq terrorizmə qarşı həmişə ardıcıl mübariz olub. Əlbəttə, hansısa terror təşkilatlarının bizim ərazimizdə yuva salmalarına, xüsusən bizim xalqımız və qonşularımız üçün təhdid mənbəyi olmalarına heç vaxt imkan verməyəcəyik. Biz buna heç vaxt imkan verməyəcəyik. Azərbaycan ərazisində indiki hərbi toqquşmalarda iştirak edən xarici silahlı dəstələrin mövcudluğu barədə heç kəs bizə heç bir sübut təqdim etməyib. Bizim rəsmi mövqeyimiz belədir ki, bizdə heç bir əcnəbi muzdlu yoxdur.

*- Cənab Prezident, 10 oktyabr tarixli Moskva razılaşmalarında nizamlamanın baza prinsiplərinin adları çəkilir. Zəhmət olmasa, bu prinsipləri açıqlayın, Siz onları necə başa düşürsünüz?*

- Bu prinsiplər uzun illər ərzində, deyərdim ki, 10 ildən artıq müddətdə işlənib hazırlanıb. Ermənistanın əvvəlki rəhbərliyi ilə iş prosesində biz mövqelərimizin razılaşdırılması istiqamətində çox fəal irəliləyirdik. Bu, çox mürəkkəb məsələ idi. Danışıqlar istənilən halda, xüsusən belə mühüm məsələdə mürəkkəb prosesdir. Buna baxmayaraq, hər iki tərəf siyasi nizamlama yolu ilə getmək arzusu nümayiş etdirirdi. Lakin təəssüf ki, Ermənistanın indiki rəhbərliyi hakimiyyətə gələndən sonra erməni tərəfi o vaxta qədər əldə edilənlərin hamısını sadəcə kənara atdı. Üstəlik, danışıqların formatını dəyişməyə, qondarma "Dağlıq Qarabağ respublikası"nın qondarma "hakimiyyət orqanları"nı danışıqlara cəlb etməyə cəhd göstərildi. Bu cəhd həm bizim tərəfimizdən, həm də ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən rədd edildi.

Baza prinsiplərinə gəldikdə, orada hər şey dəqiq yazılıb. Azərbaycanın işğal edilmiş rayonlarının mərhələli şəkildə azad olunması nəzərdə tutulur. Birinci mərhələdə işğal edilmiş ərazilərin cənub-şərq hissəsindəki 5 rayon, ikinci mərhələdə Dağlıq Qarabağ ilə Ermənistan arasında yerləşən ərazilər - Laçın və Kəlbəcər rayonları işğaldan azad edilməli, bütün kommunikasiyalar, o cümlədən Ermənistan-Azərbaycan sərhədinin digər hissələrində yerləşən kommunikasiyalar açılmalı, qaçqınlar və məcburi köçkünlər əvvəlki yaşayış yerlərinə qaytarılmalıdır. Bu, azərbaycanlı köçkünlərin həm Şuşa ərazisinə, həm də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin digər rayonlarının ərazisinə qaytarılmasını və Dağlıq Qarabağın tərəflər arasında razılaşdırılmalı olan qəti statusunun müəyyən edilməsinə dair danışıqları nəzərdə tutur. Qısa desək, Azərbaycanın həmişə hörmətlə yanaşdığı baza prinsipləri bunlardır və onları biz hazırlamışıq. Lakin Ermənistanın yeni hakimiyyət orqanları dəfələrlə bəyan ediblər ki, bu prinsiplər onlar üçün qəbuledilməzdir, onlar bircə qarış belə torpağı qaytarmayacaqlar. Bunu Ermənistanın baş naziri deyirdi. Ermənistanın müdafiə naziri deyirdi ki, Ermənistan yeni ərazilər üçün yeni müharibəyə hazırlaşır. Bizim ünvanımıza daim hədələr və təhqirlər səslənirdi, nəticəsi də bax bu cür qarşıdurma oldu. Düşünürəm ki, erməni tərəf vəziyyəti, yaranmış yeni vəziyyəti ayıq şəkildə qiymətləndirməli və atəşkəs rejiminə sadiq olmalıdır. Halbuki, o, bir neçə saatdan sonra gecənin bir aləmində dinc Gəncə şəhərini bombalayaraq atəşkəsi vəhşicəsinə pozub.

*- Cənab Prezident, kompromislər barədə danışmalı olsaq, hər halda, Siz hansı kompromislərə hazır olardınız? Elə bir hədd varmı ki, Siz heç bir halda həmin həddən artıq geri çəkilməzsiniz?*

- Bizim mövqeyimiz həmişə çox konstruktiv, ardıcıl olub. Bu mövqe həm də BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi, Ermənistan qüvvələrinin bizim ərazilərdən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamənin yerinə yetirilməsi baxımından beynəlxalq hüququn normalarına əsaslanıb. Bizim mövqeyimiz həmişə praqmatik yanaşmaya əsaslanıb. Düşünürəm ki, danışıqlar masası üzərində olan variantlar bunu aşkar göstərir. "Qırmızı xətlərə" gəldikdə isə biz bunu çox dəqiq bəyan etmişik və Minsk qrupunun həmsədrləri bunu yaxşı bilirlər. Azərbaycanın ərazi bütövlüyü heç bir şərtlə pozula bilməz. Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə heç bir şərtlə razılıq verməyəcək. Lakin, eyni zamanda, bizim təklifimiz buna əsaslanırdı ki, gələcəkdə Dağlıq Qarabağ ərazisində erməni icması və Azərbaycan icması dinc yanaşı yaşamalıdır. Yeri gəlmişkən, Azərbaycanın digər yaşayış məntəqələrində, o cümlədən çoxminlik erməni icmasının mövcud olduğu Bakıda, Rusiyada, Gürcüstanda, digər ölkələrdə ermənilərlə azərbaycanlılar bəzən bir kənddə yaşayır və işləyir, onların arasında heç bir ziddiyyət yaranmır. Buna bizdə nə üçün nail olmaq mümkün deyil? Biz bu əzmdəyik. Lakin əlbəttə, etnik təmizləmələrin nəticələri aradan qaldırılmalıdır və bizim bütün məcburi köçkünlər öz evlərinə qayıtmalıdırlar. Prinsip etibarilə mən sizə mümkün kompromislərə bizim yanaşmamızı baza prinsiplərindən bir qədər geniş açıqladım.

*- Cənab Prezident, bu müharibə öz qəddarlığına görə artıq tarixə düşüb və Siz artıq bu müharibənin tarixinin bir hissəsisiniz. Siz tarixdə necə qalmaq istərdiniz?*

- Bilirsiniz, hər bir müharibə qəddarlıq, qurbanlar, insanların iztirabları, yaxın adamların itirilməsi deməkdir. Fərq ondadır ki, Azərbaycan xalqı üçün bu müharibə azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir. Heç kəs üçün gizli deyil və bu faktı artıq beynəlxalq vasitəçilər də bilir ki, qondarma "Dağlıq Qarabağ ordusu" yoxdur. Bu gün erməni tərəfin belə adlandırdığı birləşmədəki hərbi qulluqçuların 90 faizi Ermənistan vətəndaşıdır. Onlar hərbi xidmətə Ermənistanın hərbi komissarlıqları tərəfindən çağırılır və Azərbaycanın işğal edilmiş ərazilərinə - Ağdama, Füzuliyə, Cəbrayıla, Kəlbəcərə, Qubadlıya, Laçına, Zəngilana göndərilir. Sual olunur: onlar orada nə edirlər? Bu gün Ermənistanın işğalçı qüvvələri Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazilərindədir. Buna heç nə ilə haqq qazandırmaq olmaz - istər beynəlxalq hüquq baxımından, istərsə də bəşəri əxlaq baxımından. Başa düşürsünüzmü, 30 il ərzində azərbaycanlıların öz əzəli torpaqlarına buraxılmaması siyasətini yürütmək mümkün deyil. Axı, erməni əhalisi bu ərazilərdə heç vaxt yaşamayıb. Başqa bir məsələ də var ki, orada hər şey dağıdılıb, oraya qayıtmaq üçün çox böyük qüvvə və vaxt sərf etmək lazımdır. Ermənilərin bu siyasətinə heç cür haqq qazandırmaq olmaz. Ona görə ki, bizim hərbi qulluqçular Azərbaycan torpağında döyüşür və həlak olur. Erməni hərbi qulluqçular isə onların hökumətinin işğal altında saxlamaq istədiyi torpaqda həlak olurlar.

Tarixdə rol məsələsinə gəldikdə isə, bilirsiniz, mən əvvəllər heç vaxt, indi isə xüsusən bu barədə düşünməmişəm. Mənim əsas amalım Azərbaycan xalqının etimadını doğrultmaq, bu vəzifədə olduğum bütün illər ərzində verdiyim vədləri yerinə yetirmək və ölkəni inkişaf yolu ilə aparmaq, onun ərazi bütövlüyünü təmin etməkdir. Mənim rolumun gələcəkdə necə qiymətləndiriləcəyi isə artıq bizim nəyə nail olacağımızdan, Azərbaycan xalqının iradəsindən asılı olaraq müəyyən ediləcək. Ona görə düşünürəm ki, bu məsələni o adamların mülahizəsinə saxlamaq lazımdır ki, onların fikri məndən ötrü bu və ya digər qərarların, o cümlədən Dağlıq Qarabağ məsələsi ilə bağlı qərarların qəbul edilməsində həmişə əsas olub.

*- Cənab Prezident, sağ olun. Mən nəzərdə tutduğum sualların hamısını verdim. Bəlkə Siz daha nə isə əlavə etmək istərdiniz?*

- Mən bu fürsətdən istifadə etmək istərdim. Yeri gəlmişkən, öz sözlərimi çoxmilyonluq Rusiya auditoriyasına çatdırmaq üçün bu imkana görə təşəkkürümü bildirirəm. Sadəcə istərdim ki, Azərbaycanın mövqeyini anlayanlar çox olsun. Ona görə ki, bəzən bu münaqişə, onun tarixi, bugünkü vəziyyəti ilə bağlı müxtəlif fikirlər olur. Sadəcə, faktlara istinad etməklə, əslində, nələr baş vermiş olduğunu və indi nələr baş verdiyini tamaşaçıların diqqətinə çatdırmaq istəyirəm. XIX əsrin əvvəlində Qarabağ və Şuşa xanı İbrahimxəlil, - onun statusu məhz belə olub, - Qarabağ xanlığının Rusiyanın tərkibinə daxil olması barədə general Sisiyanovun şəxsində çar Rusiyası ilə müqavilə bağlayıb. Kürəkçay müqaviləsi adlanan bu sənədin mətni internetdə yerləşdirilib. Onunla hər kəs tanış ola bilər. Bu müqavilədə Qarabağ xanlığının erməni əhalisi barədə bircə kəlmə də deyilməyib.

*Ardı 4-cü səh.*

# “Sizin xalqa müraciətləriniz və işğaldan azad olunan yaşayış məntəqələrinin adlarını açıqlamağınız bizim üçün ən sevimli anlara çevrilir”

Azərbaycan Ordusunun cəbhədə ard-arda qazandığı qələbələr bütün vətəndaşlarımızın, eləcə də xaricdə yaşayan soydaşlarımızın böyük sevincinə səbəb olur. Onlar bu sevinc hisslərini yaşadıqlarına görə dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə çoxsaylı təşəkkür məktubları yazırlar.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.



Türkiyənin Ankara şəhərindən **Süleyman Vəliyev** yazır: “Hörmətli cənab Prezident, doğma torpaqlarımızın mənfur erməni düşmənindən azad edilməsi münasibətilə Sizi özümün və hazırda Ankarada təhsil aldığım “Gülhane” Tibb Universitetinin tələbə və həkim kollektivi adından təbrik edir, həmçinin Sizə minnətdarlığımızı bildirir, uzun ömür və cansağlığı arzu edirəm. İnanırıq ki, Azərbaycan Ordusu öz gücü və qüdrəti ilə tezliklə hazırkı qələbəni böyük qələbəyə çevirəcəkdir. Sizin apardığınız daxili və xarici siyasəti dəstəkləyir, alqışlayırıq. Biz hər zaman Sizin və güclü Azərbaycan Ordusunun yanındayıq. Artıq bütün dünya bilir ki, Azərbaycanın davası haqq davasıdır, vətənpərvərlik, qəhrəmanlıq, igidlik, ölməzlik, əbədilik zirvəsidir. Belə bir zirvəyə yüksəlmək, bu zirvəni qorumaq bizim hər birimizin müqəddəs vətəndaşlıq borcudur. Ehtiyac olarsa, hamımız cəbhəyə getməyə hazırıq. Cənab Prezident, Allah Sizə və ordumuza bu haqq yolunda yardımçı olsun. Biz birlikdə güclüyük. Qarabağ Azərbaycandır!”

Ağdam sakini **Şövqi Qədirov** yazır: “Hörmətli cənab Ali Baş Komandan, sentyabrın 27-də düşmən təxribatına cavab olaraq ordumuzun Sizin əmrinizlə başladığı əkshücum əməliyyatları və ard-arda gələn tarixi uğurlar bir gənc müəllim kimi bizləri hədsiz qürurlandırdı. Bu gün xalqımızda müşahidə olunan milli ruh çox yüksəkdir. Sizin həm daxili, həm də xarici siyasətinizi ailəliklə bəyənir və dəstəkləyirik. Mən əminəm ki, qısa müddət ərzində Şanlı Ordumuz bizə Sizin rəhbərliyinizlə xoş xəbərləri verəcək. Allah Sizi və Vətən uğrunda şücaətlə vuruşan Ordumuzu qorusun”.

Bakı şəhər sakini **Sevda Əkbərova:** “Hörmətli Prezident, cənab Ali Baş Komandan, hazırda torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən müharibə şəraitində dövləti əzmlə, layiqincə idarə etməyiniz bizlərə çox qürur verir. Sizin əzmkar iradəniz və hadisələri əvvəlcədən təhlil etmək qabiliyyətiniz sayəsində qələbəyə nail olacağımıza inanırıq. Biz Sizinləyik və yanınızdayıq! Azərbaycan xalqı Sizi sevir və öz Prezidenti ilə fəxr edir. Yaşasın Azərbaycan! Yaşasın onun Ali Baş Komandanı! Qarabağ Azərbaycandır!”

Bərdə sakini **Gülnar Muradova:** “Möhtərəm cənab Prezident, Siz hamımızın doğma, əzizi, qüdrətli liderimiz, fəxrimizsiniz. Sizinlə hər birimiz qürur duyuruq. Allah Sizi xalqımıza çox görməsin. 27 ildir Vətənimdən - Ağdamımdan ayrı düşmüşəm. Sizin sayənizdə bu həsrət sona çatacaq, inşallah. Buna əminəm. Bizə bu xoşbəxtliyi yaşatdığınız üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Qarabağ Azərbaycandır! Xalq İlham, İlham xalqdır! Vuran ürəyimiz, tökülən qanımız, axan göz yaşımız Vətənə qurbandır. Mən fəxr edirəm ki, azərbaycanlıyam. Yaşa Prezidentim, yaşa millətinlə başbaşa. Mən bu misraları yazanda top, tüfəng səsindən ev titrəyir. Amma qorxmuruq, Sizin kimi dayağımız varsa, biz heç nədən qorxmuruq! Siz var olduqca, bizlər də var olacağıq. Allah Sizi qorusun. Amin!”

Bakı şəhər sakini **Qiyas Əhmədovun** məktubunda deyilir: “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, mən Xocalı rayonunun Kosalar kəndindən məcburi köçkünəm, hazırda Qəbələ rayonunda məskunlaşmışam. Çox-çox şükür edirəm ki, Azərbaycan xalqının Sizin kimi müdrik, dərin savadlı Prezidenti var. Mən və ailə üzvlərim Sizinlə fəxr edirik. Bu gün hər bir azərbaycanlı qələbəyə köklənib. Gözümüz yolda, qulağımız səsdədir. Hər an xoş xəbərlərin sorağındayıq. Sizin xalqa müraciətləriniz və işğaldan azad olunan yaşayış məntəqələrinin adlarını açıqlamağınız bizim üçün ən sevimli anlara çevrilir. Cəbhədə qazanılan uğurlar münasibətilə Sizi və ailənizi ürəkdən təbrik edirəm. Yolunuz açıq, uğurlarınız bol olsun!”

Lənkəran sakini **Camal Sadıqov:** “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, indiki müharibə şəraitində apardığınız məqsədyönlü siyasətinizi dəstəkləyir və Sizinlə fəxr edirik. Siz başda olmaqla, bütün Azərbaycan Ordusuna bu haqq yolunda yeni-yeni uğurlar arzu edirik. İnanırıq ki, Sizin cəsarətiniz və qəhrəman Ordumuzun şücaəti xalqımızı uğurlu gələcəyə aparacaqdır. Bu şərəfli yolda hamımız Sizə arxa və dayağıq. Biz birlikdə güclüyük! Qarabağ Azərbaycandır!”

Astara sakini **Cankişi Qurbanov:** “Hörmətli Prezident, cənab Ali Baş Komandan, Azərbaycan bayrağının Hadrut qəsəbəsində dalğalanmasını izləyəndə hiss etdiyim xoşbəxtlik hisslərini sözlə ifadə edə bilmərəm. Bilirəm ki, bütün Azərbaycan xalqı, bütün qarabağlılar da həmin dəqiqələrdə mənim kimi xoşbəxt idilər. Sizinlə, əsgərlərimizlə, birlik göstərən xalqımla fəxr edir, qürur hissi keçirirəm. Hamımızın daxilində Sizin dediklərinizin həyata keçəcəyi ilə bağlı əminlik, rahatlıq var. İnanıram, çox inanıram ki, hər şey gözəl olacaq”.

Qusar sakini **Yüzbəy Abuyev:** “Hörmətli cənab Prezident, biz qusarlılar Sizin siyasətinizə, Ordumuzun gücünə, zəfər çalacağımıza inanırıq. Bu haqq yolunda bir addım belə geri çəkilməyəcəyik. Qüdrətli Ordumuzun cəbhədəki uğurları tarixi torpaqlarımızın işğalçılardan təmizlənəcəyinə və məcburi köçkünlərin öz doğma yurdlarına qayıdacağına böyük əminlik yaradır. Əminik ki, xalqımız Sizin ətrafınızda həmişə olduğu kimi, sıx birləşərək mənfur düşmənlərimizə layiq olduğu yeri göstərəcəkdir. Cənab Ali Baş Komandan, cəbhə bölgəsindən gələn ürəkaçan, şad xəbərlərə görə Sizə minnətdarlığımızı bildiririk. Bu yolda Sizə və rəşadətli Ordumuza güc-qüvvət, yeni böyük uğurlar arzulayırıq. Zəfər bizimlədir, Qarabağ Azərbaycandır!”

Şəki sakini **Baba Səmədov** dövlətimizin başçısına yazır: “Möhtərəm cənab Ali Baş Komandan, qısa zaman kəsiyində mənfur düşmən üzərində qazanılan uğurlar münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Allah qoysa, tezliklə bütün Qarabağın azad ediləcəyinə, şanlı Ordumuzun zəfər çalacağına əminik. Ən böyük arzumuz odur ki, üçrəngli bayrağımız Xankəndidə, Şuşada dalğalansın. Bu çətin və şərəfli işdə Sizə uğurlar diləyirəm. Qəti əmin ola bilərsiniz ki, xalq Sizin ətrafınızda çox sıx birləşib. Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir, bizim əzəli torpağımızdır. Qarabağ Azərbaycandır!”

İmişli sakini **Almaz Abışov:** “Cənab Ali Baş Komandan, işğal altında olan torpaqlarımızın bu günlərdə Sizin vahid komandanlığınız altında erməni terrorçulardan azad olunması xəbəri məni çox sevindirdi. Ona görə ki, 1991-ci ilin noyabr ayında Qarabağ uğrunda gedən qanlı döyüşlərdə mən dörd həmkarımla birgə həmin ərazidə vuruşmuşuq. Döyüşçü dostlarımdan biri Azərbaycanın Milli Qəhrəmanı İmamverdi Əliyev idi. Ovaxtkı rəhbərliyin siyasi səriştəsizliyinin acı nəticəsi olaraq, bir çox torpaqlarımızı itirdik. Cəbrayıl rayonu və Hadrut qəsəbəsinin bu günlərdə işğaldan azad edilərək həmin ərazilərdə Azərbaycan bayrağının sancılması xəbəri məni sevinc göz yaşlarına qərq etdi. Çünki mən özüm də o ərazidə yaralanmışam. Bu gün təkcə mənim silahdaşlarım fərəhlənmir, eyni zamanda, həmin ərazilərdə şəhid olanların ruhları şad olur. Cənab Prezident, bütün bunları bizə yaşatdığınıza görə Sizə və qüdrətli Ordumuza öz adımdan və İmişli Rayon Polis Şöbəsinin əməkdaşları və veteranları adından sonsuz minnətdarlığımızı bildiririk. Biz həmişə Sizinlə bir yerdəyik. Allah Sizə yar olsun!”

Bakı şəhər sakini **Tağı Məmmədov:** “Cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə Azərbaycan xalqının öz ata-baba torpaqlarını erməni qəsbkarlardan azad etmək uğrunda apardığı mübarizə bizim üçün də bir çağırışdır. Məhkumluq həyatı yaşadığımdan mən bu mübarizədə iştirak edə bilmirəm. Ancaq hər zaman buna hazıram. Mənim hərbi təhsilim var. Bir çox silahdan istifadə etməyi mükəmməl bacarıram.

Cənab Prezident, razılıq olduğu təqdirdə, mən də bu yurdun bir oğlu kimi cəbhə bölgəsinə yollanmağa hazıram. Yetər ki, əmr edəsiniz”.

Paytaxt sakini **Nicad Niyazi:** “Hörmətli cənab Prezident, möhtərəm Ali Baş Komandan, bizə verdiyiniz qələbə müjdəli xəbərlərə görə Sizə təşəkkür edirəm. Hər zaman Sizi dəstəkləmişəm və dəstəkləyəcəyəm. Siz dünya siyasətçiləri arasında öz sözünü deyən qüdrətli, qətiyyətli, güclü bir lidersiniz. Sizin erməni cəlladlarına verdiyiniz tutarlı dərs ömür boyu onların yaddaşlarından silinməyəcək. Bütün xalq olaraq, Azərbaycan vətəndaşı olaraq Sizin atdığınız hər bir addımı dəstəkləyirik, Sizə güvənirik, hər zaman da güvənəcəyik. İnanırıq ki, işğal olunmuş bütün torpaqlarımızdan sonuncu düşmən cəlladları çıxana qədər mübarizəni davam etdirəcəksiniz. Sizin xalqa etdiyiniz müraciətlərinizdə dediyiniz hər bir söz bizim üçün bir sevincdir, ruh yüksəkliyidir, qələbə hissidir. Allah Sizi qorusun”.

Bakı sakini **Uğur Şıxəlizadə:** “Hörmətli cənab Ali Baş Komandan, mən Bakı şəhərində yaşayan bir məktəbli olaraq Azərbaycan Silahlı Qüvvələrinin 30 ilə yaxın düşmən tapdağı altında olan qiymətli torpaqlarımızın düşmən dən azad edilməsi istiqamətində apardığı uğurlu əməliyyatlardan qürur duyuram. İnanırıq ki, yaxın vaxtlarda xilaskar Azərbaycan əsgərinin gücü və döyüş bacarığı sayəsində daha xoş xəbərlərin şahidi olacağıq. Bu bir neçə gündə gedən uğurlu əməliyyatlar mənə gələcəyin bir əsgəri kimi böyük qürur hissi yaşadır. Allah Sizə və ordumuza cansağlığı versin. Biz Sizə və güclü ordumuza çox güvənirik. Biz birlikdə güclüyük! Qarabağ Azərbaycandır!”

Sabirabad sakini **Araz Budaqov:** “Əziz və hörmətli Prezident, mən bu məktubu Sizə böyük sevinc və qürur hissi ilə yazıram. Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı olaraq bu gün Siz də xalqı sevir, onun inkişafı, dünya xalqları içərisində layiqli yer tutması üçün əlinizdən gələni edirsiniz. Siz xalq üçün işləyirsiniz. Xalqın xoşbəxtliyi üçün nə lazımdırsa, edirsiniz, qaçqın, köçkün və şəhid ailələrinə hər cür kömək edirsiniz. Ölkəmizdə baş verən bədbəxt hadisələr, təbii fəlakətlər zamanı Siz həmişə xalqın yanında olursunuz. Bu, hər bir vətəndaşı sevindirir, qəlbini qürur hissi ilə doldurur. Bu, xalqa olan böyük məhəbbətdir. Hörmətli və əziz Prezident, sentyabrın 27-də erməni işğalçıları növbəti dəfə təxribata əl ataraq Azərbaycana hücum etdilər. Sizin rəhbərliyinizlə ordumuz böyük qəhrəmanlıq göstərərək düşmənə layiqli cavab verdi. Torpaqlarımız azad edilir. Siz “Qarabağ Azərbaycandır!” deyəndə adamın sevincdən gözləri yaşarır. Sizin bütün çıxışlarınız insanların qəlbində sevinc, fərəh və qürur hissi yaradır. Allah Sizi qorusun. Əziz və hörmətli Prezident, Siz xarici televiziya telekanallarına müsahibələr verirsiniz. Hamısında da Vətən sevgisi, xalq məhəbbəti vardır. Ordumuz işğal olunmuş torpaqlarımızı geri aldıqca, irəli getdikcə, insanlar sevinir, sanki uçmağa qanadları çatmır. Qoy, Allah Sizi Azərbaycana çox görməsin. Ömrünüz uzun olsun. Allah Sizi və Azərbaycanı qorusun. Torpaqlarımız tam azad olsun və hər bir guşəsində Azərbaycan bayrağı dalğalansın. Cənab Prezident, ürəyimdə bir arzu və istək var. Siz cəbhədə baş verən hadisələr barədə məlumat verəndə Sizi qucaqlayıb bağrıma basmaq istəyirəm. Elə istəyirəm ki, müharibə tezliklə qurtarsın, qələbə çalınsın. Yaşasın Azərbaycan xalqı və onun Prezidenti İlham Əliyev! Yaşasın qəhrəman Azərbaycan Ordusu! Qoy ədalət həmişə zəfər çalsın!”

Yardımlı rayonundan **Raqil Baloğlanov:** “Hörmətli cənab Ali Baş Komandan, son həftələr Ordumuzun göstərdiyi igidlik Sizin uğurlu addımlarınızın bariz nümunəsidir. Sizin məqsədyönlü siyasətiniz bir daha göstərdi ki, Azərbaycan hər şeyə qadirdir. Bu gün Azərbaycan Ordusu torpaqlarımız uğrunda qəhrəmanlıqla vuruşur. Əsgərlərimiz canından keçər, amma bir qarış torpağı geri verməz. Mən azərbaycanlı və Sizin rəhbərlik etdiyiniz ölkənin vətəndaşı olduğum üçün qürur duyuram. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!”

Bakı şəhər sakini **Abdullah Nəzərli:** “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Sizin uğurlu siyasətiniz sayəsində biz bu gün Qarabağda uğur əldə edirik. Biz 30 il səbr etdik. Amma bu illər ərzində işimizdə səbrlə yanaşı, qəti əminlik də var idi. Əmin idik ki, rəhbərliyinizlə doğma Qarabağı erməni işğalından azad edəcəyik. O günlər yetişdi. 30 ildən sonra müqəddəs borcumuzu yerinə yetirməyə başladıq. İnşallah, bu yaxınlarda bütün Azərbaycan, həmçinin dünya “Qarabağ torpaqları tamamilə erməni işğalından azad olundu” xəbərini eşidəcək. Allah Sizi qorusun. İnşallah, Azərbaycan bayrağı Şuşada dalğalanacaq. 30 il sonra Ağdamda, Şuşada, Qarabağımızın hər yerində məscidlərimizdə namaz qılınacaq, azan oxunacaq. Amin. Biz məktəblilər tarixə yazılacaq bu hadisələri canlı izlədiyimizə, təkcə kitablardan oxumadığımıza görə xoşbəxtik”.

# “Ordumuz qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə tam qadirdir”

**Prezident İlham Əliyev Rusiyanın Ria Novosti agentliyi üçün “Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi” media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib**

*Əvvəli 3-cü səh.*

Erməni əhalisinin bu regiona kütləvi şəkildə köçürülməsi 1813-cü və 1828-ci illərdə iki Rusiya-İran müharibəsindən sonra başlanıb və o vaxtdan müasir İran ərazisindən və qismən Şərqi Anadoludan ermənilərin Qarabağ regionuna kütləvi şəkildə köçürülməsi başlanıb. Bu, həmin torpağın tarixən kimə məxsus olması barədə.

Rusiya imperiyası dağılandan sonra, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti və müstəqil erməni dövləti yaradıldı. Azərbaycan Xalq Cümhuriyyəti bütün bu ərazilər çərçivəsində yaradılmışdı. Üstəlik, Azərbaycan Xalq Cümhuriyyəti onun yaradılmasının elan edilməsinin ertəsi günü İrəvan şəhərinin paytaxt kimi Ermənistana verilməsi barədə qərar qəbul etdi. Bu da tarixi faktdır. 1921-ci ildə Qafqaz Bürosu Dağlıq Qarabağın, bəzi yalançı tarixçilərin dedikləri kimi Azərbaycana verilməsi haqqında deyil, onun Azərbaycanın tərkibində saxlanılması haqqında qərar qəbul etdi. Bu regionun tarixi belədir. SSRİ-nin dağılması mərhələsində nələr baş verdiyi isə, düşünürəm ki, hamıya məlumdur. Əslində, SSRİ-nin dağılması da Dağlıq Qarabağda separatizmdən başlandı. Bu, bir növ tətik oldu. Axı, çoxları həmin mitinqləri, onları kimin təşkil etməsini, bu hadisələrin arxasında kimlərin dayandığını unudur. Mən tez-tez deyirəm ki, Paşinyan Sorosun məhsuludur. Düşünürəm ki, hamı mənimlə razılaşar. Lakin Soros artıq şəxsiyyət deyil. Bu, anlayışdır və mən bunu əsla istisna etmirəm ki, o vaxt böyük ölkəni dağıtmaq üçün bu cür vasitələr işə salınmışdı. Onu daxildən partlatmaq, nifaq toxumu səpmək, xalqları bir-birinə qarşı qızışdırmaq və dövlətləri parçalamaq - yeri gəlmişkən, belə də oldu. Buna görə də, sadəcə, bu tarixi faktları Rusiya ictimaiyyətinin diqqətinə çatdırmaq və demək istərdim ki, Azərbaycan və Rusiya çoxəsrlik dostluq, əməkdaşlıq, qarşılıqlı anlaşma telləri ilə bağlıdır. Əminəm ki, heç bir qüvvə buna təsir göstərə bilməz. Doğrudur, müxtəlif istiqamətlərdən nifaq salmaq, müəyyən etimadsızlıq yaratmaq cəhdlərini görürük. Lakin həm Rusiya, həm də Azərbaycan rəhbərliyinin ardıcıl siyasəti sayəsində biz nəinki geriləmirik, biz irəliyə gedirik. Bu gün Rusiya və Azərbaycan bir-birini strateji tərəfdaşlar adlandırır. Bizim ölkələrimiz arasında qarşılıqlı əlaqələrin səviyyəsi hər hansı qonşular üçün nümunə ola bilər. Əminəm ki, münaqişənin hərbi fazası başa çatandan və siyasi nizamlamaya keçəndən sonra, - əgər Ermənistan tərəfi itirdiklərini və ona mənsub olmayanı güclə qaytarmaq cəhdlərindən əl çəkərsə, biz bunu etməyə günü sabah hazırıq, - inanıram ki, Rusiya bizim regionda sabitləşmə işində aparıcı rol oynamaqda davam edəcək. Buna görə sizin kanalınız vasitəsilə bütün rusiyalıları səmimi salamlamaq, onlara ən xoş arzularımı çatdırmaq istərdim. Keçən il bir milyon rusiyalı Azərbaycana səfər edib. Ümidvaram ki, pandemiyadan sonra bu dinamika bərpa olunacaq. Rusiyalı qonaqlarımıza həmişə şadıq. Onlar da bilirlər ki, Azərbaycana gələndə özlərini evlərində olduğu kimi hiss edirlər.

*- Cənab Prezident, bu səmimi müsahibəyə görə çox sağ olun.*

- Sağ olun.

# Baş Nazir Əli Əsədov Türkiyənin Vitse-prezidenti Fuat Oktaya məktub ünvanlayıb

Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov oktyabrın 15-də Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktaya məktub ünvanlayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məktubda Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təxribatı barədə son məlumatlar verilib.

Xüsusi vurğulanıb ki, təxribatın ilk saatlarından etibarən qardaş Türkiyə bütün səviyyələrdə bu xain təcavüz aktını qətiyyətlə pisləyib və hər zaman Azərbaycanın yanında olduğunu bəyan edib.

Türkiyə Respublikasının Prezidenti və Vitse-prezidentinin, müvafiq dövlət qurumlarının rəhbərlərinin, parlament üzvlərinin və ümumiyyətlə, bütün qardaş türk xalqının Ermənistanın təcavüz aktına qəti və birmənalı münasibət bildirməsi Azərbaycanın öz haqq işində yalnız olmadığının göstəricisi kimi qiymətləndirilib.

# Baş Nazir Əli Əsədov Gürcüstanın Baş Naziri Giorgi Qaxariyaya məktub ünvanlayıb

Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov oktyabrın 14-də Gürcüstanın Baş Naziri Giorgi Qaxariyaya məktub ünvanlayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məktubda Gürcüstanın Baş Naziri sentyabrın 27-dən başlayaraq Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti hərbi təxribat barədə məlumatlandırılıb. Xüsusi vurğulanıb ki, humanitar atəşkəsə dair razılıq əldə edildikdən bir gün sonra Ermənistan silahlı qüvvələrinin gecə saatlarında Gəncənin mərkəzindəki çoxmənzilli yaşayış binalarını “SCUD” raket sistemindən atəşə tutması nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak olub, 10-u qadın, 9-u uşaq olmaqla 34 nəfər yaralanıb.

Ermənistanın Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinə zərbə endirmək cəhdinə Gürcüstan Xarici İşlər Nazirliyinin dərhal münasibət bildirməsinin təqdirəlayiq olduğu vurğulanıb.

Qeyd edilib ki, Azərbaycan və Gürcüstan bütün beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir, iki ölkənin üzləşdiyi münaqişələrin beynəlxalq hüququn prinsip və normaları, xüsusilə suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı əsasında, habelə beynəlxalq təşkilatların müvafiq qətnamə və qərarlarına uyğun olaraq həll olunması məsələsində bir-biri ilə həmrəylik göstərir.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Yeni döyüşlər və açıq silahlı hücum haqqında xəbəri böyük narahatlıqla oxudum. Dinc əhali arasında həlak olanlar, yaşayış evləri, xəstəxanalar və məktəblər də daxil olmaqla, bir çox ictimai binaların dağılması haqqında xəbərlər məni dərindən kədərləndirdi. Mən dinc əhaliyə qarşı güc tətbiqini şiddətlə qınayıram.

Bütün bunlarla əlaqədar Sizə dərin hüznlə başsağlığı verirəm.

Cənab Prezident, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

***Stepan MESİÇ,***
***2000-2010-cu illərdə Xorvatiyanın Prezidenti***

Hörmətli cənab Prezident!

Biz hazırda Azərbaycandakı vəziyyəti böyük narahatlıqla izləyirik. Tarixi və mühüm əhəmiyyətli Gəncə şəhərində mülki şəxslərin həlak olması ilə bağlı xəbərlər ciddi narahatlıq doğurur.

Biz kənar qüvvənin beynəlxalq hüququ kobud şəkildə pozaraq ölkənizin ərazisini işğal etməsi və beynəlxalq təşkilatların buna lazımi reaksiya göstərməməsi ilə bağlı məyusluğun nə olduğunu Ukraynada yaxşı başa düşürük.

Cənab Prezident, biz Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvləri olaraq Sizin yanınızdayıq. Biz bu problemlə bağlı təbliğat işlərinin aparılması məqsədilə lazımi tədbirləri əlaqələndirmək üçün həmsədrlərimiz və baş katibimizlə sıx əməkdaşlıq edirik.

Ölkəniz və xalqınız üçün dua edirik.

*Dərin hörmətlə,*

***Viktor YUŞENKO,***
***2005-2010-cu illərdə Ukraynanın Prezidenti,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

***Katerina YUŞENKO,***
***2005-2010-cu illərdə Ukraynanın birinci xanımı,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin***
***Qəyyumlar Şurasının üzvü***

Hörmətli cənab Prezident!

Ermənistan ilə Azərbaycan arasında gərginliyin artmasını, Gəncə şəhərinin atəşə tutulmasını, insanların, o cümlədən uşaqların həlak olmasına gətirib çıxaran son hadisələri həyəcanla izləyirəm.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü kimi mülki şəxslərin həlak olması ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verir, yaranmış vəziyyətlə bağlı narahatlığımı ifadə edirəm. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin dərhal yerinə yetirilməsi müzakirə mövzusu ola bilməz.

Həmsədrlərimiz ölkənizə güclü dəstək ifadə edən bəyanat qəbul ediblər. Həmin sənəd baş katibimiz tərəfindən bütün üzvlərə və tərəfdaşlarımıza göndərilib. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri olaraq Mərkəzin təşkil etdiyi beynəlxalq müzakirələrdə öz təcrübəmizdən istifadə edirik.

Məhz belə vəziyyətlərdə bütün səviyyələrdə dialoqun aparılmasına ehtiyac var. Bu işdə Sizə dəstək verməyə hazırıq.

Cənab Prezident, üzüntülərimlə yanaşı, Sizə olan ən yüksək hörmət və ehtiramımı da qəbul etməyinizi rica edirəm.

*Hörmətlə,*

***Yaşar YAKIŞ,***
***Türkiyənin 39-cu Xarici İşlər naziri,***
***2002-2011-ci illərdə Türkiyə Böyük Millət Məclisinin üzvü,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

Zati-aliləri!

Ermənistanın Azərbaycanın Gəncə şəhərində və digər rayonlarında mülki insanlara qarşı həyata keçirdiyi mənfur hücumları dərin kədər və narahatlıq hissi ilə izləyirəm. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü kimi beynəlxalq və humanitar hüququn belə aşkar və qeyri-legitim şəkildə pozulması məni çox narahat edir. Bizə tariximizin ən dahi şairlərindən birini bəxş edən və adı bu Mərkəzin bütün üzvləri üçün qürur mənbəyi olan qardaş Gəncənin sakinlərinə insanların həlak olması ilə əlaqədar dərin hüznlə başsağlığı verirəm.

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) 9-cu Baş katibi vəzifəsində olarkən təşkilatın bütün üzv dövlətlərini Ermənistanın təcavüzünə və işğalına qarşı lazımi tədbirlər görməyə çağırmışam, bir sıra mühüm qətnamələr qəbul etmişəm. Bu qətnamələrə əsasən, İƏT-in 57 üzv dövləti Ermənistanın təcavüzkar və işğalçı olduğunu təsdiqləyib və qəbul edib, hərbi təcavüzün qurbanlarına maliyyə və iqtisadi yardım etmək öhdəliyi götürüb, nəhayət, Azərbaycan ərazisindəki İslam dininə aid tarixi abidələrin məhv edilməsini pisləyib.

Zati-alinizin müdrik rəhbərliyi sayəsində bu gün Azərbaycan işğal altındakı torpaqlarının əhəmiyyətli hissələrini azad etməkdə davam edir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünya ictimaiyyətinin bu münaqişə ilə bağlı məlumatlandırılmasında fəal rol oynamasından qürur duyuram. Əminəm ki, Mərkəz dinamik şəbəkəsi vasitəsilə Azərbaycanın haqq işini beynəlxalq forumlarda uğurla təqdim edəcəkdir.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı bildirir, davamlı və əhəmiyyətli uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Ekmələddin İHSANOĞLU,***
***İslam Əməkdaşlıq Təşkilatının 9-cu Baş katibi,***
***Türk Elm Tarixi Cəmiyyətinin fəxri prezidenti,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

Hörmətli cənab Prezident!

Biz - XXIII Avrasiya İqtisadi Zirvə Görüşünün iştirakçıları Dağlıq Qarabağda baş verən hadisələri narahatlıqla izləyirik.

Azərbaycan ərazisi olan Dağlıq Qarabağın işğalı cinayətdir, qanunsuzluqdur, zülmdür. İşğalçı Ermənistan müharibə cinayəti, bəşəriyyətə qarşı cinayət törətməkdədir. Ermənistanın dünyanın gözü qarşısında beynəlxalq hüququ pozaraq müharibə və bəşəriyyət əleyhinə cinayət törətməkdə davam etməsini qınayırıq. Əvvəlcə Dağlıq Qarabağın işğalı, sonra Xocalı soyqırımı, daha sonra Tovuza hücum, indi isə Azərbaycanın digər bölgələrinə qarşı törətdiyi hərbi təxribatlar Ermənistanın tarixində qara ləkə kimi qalacaq.

Siz legitim olaraq özünümüdafiə hüququnuzdan istifadə edirsiniz.

Birləşmiş Millətlər Təşkilatının qərarlarına əsasən, hər hansısa ölkənin ərazisi işğal edilərsə, həmin ərazilərin geri qaytarılması üçün mübarizə aparması onun legitim haqqıdır.

Eyni zamanda, Siz həm də vətəndaşlarınızın yaşamaq hüququnu qoruyursunuz. Buna görə də Ermənistanın işğal etdiyi ərazilərdən dərhal geri çəkilməsi zəruridir. İnsan haqlarının pozulması davam etdikcə, mübarizəniz haqlıdır.

XXIII Avrasiya İqtisadi Zirvə Görüşünün iştirakçıları olaraq əminik ki, Siz sülh və ədalət uğrunda mübarizə aparırsınız.

Haqlı mübarizənizdə daim Sizin yanınızdayıq.

*Dərin hörmətlə,*

***XXIII Avrasiya İqtisadi Zirvə Görüşünün iştirakçıları***

# Azərbaycan ilə BMT arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub



Oktyabrın 14-də Milli Məclisin Sədri Sahibə Qafarova BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Qulam İshaqzai ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, qonağı salamlayan Spiker Azərbaycanın dünyanın nüfuzlu beynəlxalq qurumları, o cümlədən BMT ilə əlaqələrin inkişafına böyük önəm verdiyini qeyd edib, təşkilatın Bakıdakı ofisinin ölkəmizdə keçirilən müxtəlif tədbirlərdə fəal iştirakını vurğulayıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışan Sahibə Qafarova BMT-nin bu münaqişəyə dair 4 qətnaməsinin Ermənistan tərəfindən bugünədək yerinə yetirilmədiyini təəssüf hissi ilə qeyd edib. Bildirilib ki, Ermənistan BMT kimi nüfuzlu təşkilatın qərarlarına məhəl qoymayaraq işğalçılıq siyasətindən əl çəkmir. Münaqişənin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun 30 ilə yaxın davam edən fəaliyyəti heç bir nəticə verməyib. Yeni ərazilər iddiasına düşmüş Ermənistan isə təxribatlarını davam etdirir. Bu da regionda gərginliyin artmasına səbəb olur.

Spiker Ermənistan silahlı qüvvələrinin Azərbaycanın iri şəhərlərini, rayon mərkəzlərini və kəndləri artilleriya atəşinə, raket hücumlarına məruz qoyduğunu, mülki əhalini və mülki obyektləri hədəfə aldığını bildirib.

Qeyd edilib ki, Milli Məclis yaranmış vəziyyətlə əlaqədar bir sıra ölkələrin parlamentlərinə, nüfuzlu beynəlxalq təşkilatlara müraciətlər ünvanlayıb.

S.Qafarova deyib ki, Azərbaycan problemin beynəlxalq hüququn normaları çərçivəsində, ölkələrin ərazi bütövlüyü prinsipi əsasında həllinə tərəfdardır. Ermənistan isə hər dəfə öz davranışları ilə beynəlxalq hüquqa məhəl qoymadığını bütün dünyaya nümayiş etdirir.

BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Qulam İshaqzai səmimi görüşə və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar regionda yaranmış vəziyyət haqqında ətraflı məlumata görə Milli Məclisin Sədrinə təşəkkürünü bildirib, təmsil etdiyi qurumun münaqişə ilə bağlı mövqeyini bir daha diqqətə çatdırıb. Qulam İshaqzai problemin tezliklə həllini tapacağına ümidvar olduğunu bildirib.

Sonra qonaq qlobal pandemiya - COVID-19-a qarşı mübarizədə Azərbaycanın təşəbbüslərini və gördüyü işləri təqdir edib. Qeyd edilib ki, BMT-nin Bakı ofisi bu məsələ ilə əlaqədar TƏBİB-lə daim əlaqə saxlayır və növbəti illər üçün Azərbaycan dövləti ilə birgə görüləcək işlərin planı hazırlanır.

Görüşdə BMT ilə ölkəmiz arasında əməkdaşlığın inkişaf perspektivləri, regional münaqişələrin həlli yolları və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Özbəkistan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın mövqeyini dəstəkləyir



Oktyabrın 15-də Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bəhram Əşrafxanovla görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Spiker qonağı salamlayaraq onu ölkəmizə səfir təyin olunması münasibətilə təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb. Bildirilib ki, Azərbaycan ilə Özbəkistan arasında hər zaman dostluq münasibətləri olub. Dövlət başçılarının qarşılıqlı səfərləri bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər istiqamətlərdə əməkdaşlığın daha da genişləndirilməsində mühüm rol oynayıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Milli Məclisin Sədri BMT Təhlükəsizlik Şurasının problemin həlli ilə bağlı 4 qətnaməsinin bugünədək yerinə yetirilmədiyini bildirib. Bildirib ki, Ermənistan bu gün də öz işğalçılıq siyasətini davam etdirir. Sentyabrın 27-də təmas xəttində düşmən növbəti dəfə təxribat törədərək ordumuzun mövqelərini və yaşayış məntəqələrimizi atəşə tutub. Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlayıb.

Sahibə Qafarova xüsusilə vurğulayıb ki, Moskvada aparılan üçtərəfli danışıqlar nəticəsində humanitar atəşkəs elan edildikdən sonra da Ermənistan silahlı qüvvələri öz məkrli niyyətindən əl çəkməyərək beynəlxalq hüququn normalarını kobud şəkildə pozub, cəbhə bölgəsindən uzaqda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni, digər rayon və şəhərlərimizi intensiv raket atəşinə tutub.

Milli Məclisin Sədri vurğulayıb ki, Azərbaycan problemin sülh yolu ilə, beynəlxalq hüquq normaları çərçivəsində, ölkələrin ərazi bütövlüyü prinsipi əsasında həllinə tərəfdardır.

Səmimi görüşə görə minnətdarlığını bildirən Özbəkistanın Azərbaycandakı səfiri Bəhram Əşrafxanov Sahibə Qafarovanı Milli Məclisin Sədri seçilməsi münasibətilə təbrik edib.

Səfir bildirib ki, Azərbaycana gəldiyi ilk gündən ölkədə həyata keçirilən genişmiqyaslı islahatların şahidi olub. O, Azərbaycanda müşahidə edilən hərtərəfli inkişafın təqdirəlayiq olduğunu bildirib.

Bəhram Əşrafxanov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Özbəkistanın Azərbaycanın mövqeyini dəstəklədiyini söyləyib.

Səfir bu yaxınlarda Azərbaycan tərəfinin ölkədə fəaliyyət göstərən diplomatik nümayəndəliklərin üzvləri üçün Gəncə şəhərinə təşkil etdiyi səfərdən də danışıb. Deyib ki, səfər zamanı o, Ermənistanın mülki insanları və mülki obyektləri hədəfə alan raket hücumlarının faciəvi nəticələrinin şahidi olub. Günahsız insanların hədəfə alınaraq öldürülməsini şiddətlə qınadığını bildirib.

Səfir diplomatik fəaliyyəti müddətində ölkələrimiz arasındakı münasibətlərin inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

Söhbət zamanı ölkələrimiz arasında əlaqələrin inkişafı, parlamentlərarası əməkdaşlığın genişləndirilməsi, regional münaqişələrin həlli yolları və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# İtaliya parlamenti önündə "Ermənistanın təcavüzünü dayandırın!" şüarı ilə aksiya keçirilib




İtaliyada yaşayan həmvətənlərimiz bu ölkənin parlamentinin Deputatlar Palatasının qarşısında "Ermənistanın təcavüzünü dayandırın!" şüarı ilə razılaşdırılmış aksiya keçiriblər. Aksiyada ilk öncə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

AZƏRTAC xəbər verir ki, aksiyada Roma Sapienza Universitetinin professoru, həmin universitetdə Azərbaycanşünaslıq fəaliyyətinin rəhbəri Daniel Pommier Vinçelli, İtaliya-Azərbaycan Ticarət Palatasının prezidenti Manuela Traldi, Neapol-Bakı Assosiasiyasının rəhbəri Cüzeppe Kanilia, İtaliyadakı Azərbaycan icmasının nümayəndələri Fərid Abbasov, Aynur Əliyeva, Turan Sadiqi, Məryəm Mehdiyeva, Lamiyə Arikova çıxış ediblər.

Onlar çıxışlarında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün 30 ilə yaxın davam etməsi, bu təcavüz nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonun Ermənistan tərəfindən işğal edildiyi, işğal olunmuş ərazilərdə azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirildiyi, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün düşdüyünü, Ermənistanın çoxsaylı müharibə cinayətləri, Xocalıda dinc azərbaycanlı əhaliyə qarşı soyqırımı törətdiyi, beynəlxalq hüquqa və beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş çoxsaylı sənədlərə, o cümlədən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymadığını bildiriblər.

Çıxış edənlər Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən etibarən Azərbaycana qarşı növbəti hərbi təcavüzə başladığı, bunun nəticəsində istər təmas xəttinə yaxın, istərsə də ondan uzaqda olan şəhər və qəsəbələrimizi raket hücumlarına məruz qoyduğu, mülki obyektlərə və mülki şəxslərə ziyan vurduğu, çoxsaylı dinc insanların qətlə yetirilməsi və yaralanması barədə məlumat veriblər. Həmçinin Azərbaycan Ordusunun ölkəmizin ərazi bütövlüyünün bərpası istiqamətində uğurlarından ciddi narahat olan Ermənistanın və onun təsiri altında olan çevrələrin Azərbaycana qarşı hibrid müharibəsi apardığı, ölkəmiz, münaqişənin mahiyyəti və hərbi əməliyyatlar barədə həqiqətə uyğun olmayan məlumatlar yaydığını bildiriblər. Aksiya iştirakçıları Azərbaycanın ədalət tələb etdiyini və bunun üçün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə qeyd olunduğu kimi, Azərbaycan torpaqlarından Ermənistanın işğalçı hərbi qüvvələrinin çıxarılmasının və azərbaycanlı məcburi köçkünlərin öz yurdlarına qayıtmasının vacibliyini vurğulayıb və yalnız bununla bölgəyə sülh və sabitliyin gələcəyini deyiblər.

Aksiyada habelə "Qarabağ Azərbaycandır!", "Şuşa Azərbaycandır!", "Xankəndi Azərbaycandır!", "Xocalıya ədalət!", "Erməni təcavüzünə son!", "Erməni işğalına son!", "Ermənistan əsgərləri Azərbaycan torpaqlarında nə edir?", "BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilmir", "Təcavüzkarla təcavüzə məruz qalan arasında fərq qoyulmalıdır", "Beynəlxalq ictimaiyyət Ermənistanın təcavüzünü pisləməlidir", "Gəncə, güclü ol!", "Tərtər, güclü ol!" və digər şüarlar səsləndirilib.

Aksiyanı izləyən və həmin ərazidən keçən şəxslərə xüsusi olaraq hazırlanmış məlumat vərəqələri, müvafiq xəritələr və təbliğat materialları paylanılıb.

# Azərbaycanın Xarici İşlər naziri ilə Böyük Britaniyanın Avropa Qonşuluğu və Amerika üzrə Dövlət naziri arasında telefon danışığı olub

Oktyabrın 15-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ilə Böyük Britaniyanın Avropa Qonşuluğu və Amerika bölgəsi üzrə Dövlət Naziri Vendi Morton arasında telefon danışığı olub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı nazir Ceyhun Bayramov həmkarına Moskvada razılaşdırılmış humanitar atəşkəsin Ermənistan tərəfindən pozulmasının davam etdiyi barədə məlumat verib. Nazir Azərbaycanın münaqişə zonasından çox uzaqda yerləşən mülki əhalisinin və infrastrukturlarının, şəhərlərinin məqsədyönlü şəkildə hədəfə alındığını, Gəncəyə edilən raket hücumlarının dinc əhali arasında ciddi itkilərə səbəb olduğunu vurğulayıb. Nazir oktyabrın 15-də səhər Azərbaycanın Tərtər rayonunun yenidən Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulduğunu, artilleriya atəşi nəticəsində 3 mülki şəxsin həyatını itirdiyini və 5 nəfərin ağır yaralandığını qeyd edib.

Ermənistan tərəfindən insanlığa qarşı törədilən bu cinayətləri qətiyyətlə qınayan nazir Ceyhun Bayramov Ermənistanın siyasi-hərbi rəhbərliyinin bu cinayət əməllərinə görə tam məsuliyyət daşıdığını vurğulayıb.

Nazir Vendi Morton mülki insan tələfatı ilə bağlı ciddi narahatlığını ifadə edib, gərginliyin azaldılmasının və atəşkəsə hörmət edilməsinin vacibliyini vurğulayıb. O, münaqişənin danışıqlar yolu ilə həllinin vacibliyini qeyd edib.

# Çexiya və İranın xarici işlər nazirləri Ermənistanın Azərbaycana qarşı son hərbi təxribatları barədə məlumatlandırılıb

Oktyabrın 15-də qarşı tərəfin təşəbbüsü əsasında Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ilə Çex Respublikasının Xarici İşlər naziri Tomas Petriçek arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı nazir Ceyhun Bayramov çexiyalı həmkarına Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəsi pozmaqda davam etməsi barədə məlumat verib. Münaqişə zonasından uzaqda yerləşən Azərbaycan şəhərlərinin, dinc əhalinin, mülki infrastrukturun məqsədyönlü şəkildə atəşə tutulması, Gəncəyə raket hücumu və onun ağır nəticələri Çexiya Xarici İşlər nazirinin diqqətinə çatdırılıb. Ermənistanın Azərbaycana qarşı yeni təcavüzü nəticəsində 43 mülki şəxsin həlak olduğu və 218 mülki şəxsin yaralandığı vurğulanıb.

Nazir Ceyhun Bayramov həmçinin həmsöhbətinə Ermənistanın Azərbaycan mülki vətəndaşlarına və infrastrukturlarına qarşı növbəti raket hücumlarının qarşısının alındığı barədə məlumat verib, Azərbaycanın özünümüdafiə hüququ çərçivəsində hərəkət etdiyini bildirib. Bildirib ki, bölgədəki mövcud vəziyyətə görə tam məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

Çexiyanın Xarici İşlər naziri Tomas Petriçek mülki insanların ölümü ilə bağlı ciddi narahatlığını ifadə edib. O, atəşkəsə riayət olunmasının və tərəflər arasında danışıqların bərpa edilməsinin vacibliyini vurğulayıb.

* * *

Oktyabrın 15-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov və İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərif arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov bölgədəki son vəziyyətlə bağlı iranlı həmkarını məlumatlandırıb. O qeyd edib ki, Moskva görüşündə əldə edilmiş humanitar atəşkəs razılığına baxmayaraq, Ermənistan silahlı qüvvələri tərəfindən münaqişə zonasından uzaqda yerləşən Azərbaycan şəhərlərinin, dinc əhalinin, mülki infrastrukturların məqsədyönlü şəkildə atəşə tutulması davam etdirilir. Nazir vurğulayıb ki, Gəncəyə edilmiş raket hücumları da daxil olmaqla, Ermənistan tərəfindən həyata keçirilən məqsədyönlü hücumlar dinc əhali arasında ciddi itkilərə səbəb olub. Nazir bu gün səhər Azərbaycanın Tərtər bölgəsinin yenidən Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulduğunu və artilleriya atəşi nəticəsində 3 mülki şəxsin həyatını itirdiyini və 5 nəfərin ağır yaralandığını qeyd edib.

Nazir Ceyhun Bayramov Ermənistanın siyasi-hərbi rəhbərliyinin bu müharibə cinayətlərinə görə tam məsuliyyət daşıdığını vurğulayıb.

Nazir Məhəmməd Cavad Zərif bölgədə gərginliyin artması və mülki insan tələfatı ilə bağlı ciddi narahatlığını ifadə edib. O, qonşu dövlət İranın bölgədə sülh və sabitliyin təmin olunmasında maraqlı olduğunu və münaqişənin sülh yolu ilə həllinin vacibliyini vurğulayıb.

# Ermənistan silahlı qüvvələrinin Tərtərdə dəfn zamanı qəbiristanlığı atəşə tutması insanlıq əleyhinə cinayətdir

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti oktyabrın 15-də Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəsi kobud şəkildə pozaraq Azərbaycanın sıx məskunlaşmış yaşayış yerlərini və mülki şəxslərini məqsədyönlü atəşə tutmağa davam etməsinə dair açıqlama yayıb.

XİN-dən AZƏRTAC-a daxil olan məlumatda bildirilir: "Səhər saatlarından etibarən, Azərbaycanın Ağdam, Ağcabədi, Goranboy və Tərtər rayonları artilleriya atəşinə məruz qalıb.

Ermənistan silahlı qüvvələrinin Tərtər rayonunda dəfn mərasimi zamanı qəbiristanlığı bilərəkdən atəşə tutması nəticəsində 3 mülki şəxs həyatını itirib, 5 nəfər isə ciddi xəsarət alıb.

Məqsədli şəkildə azərbaycanlı mülki şəxsləri hədəfə alaraq dinc insanların hər hansı fərq qoyulmadan qətl edilməsi halı olan bu akt, Ermənistanın törətdiyi növbəti barbarlıq və insanlıq əleyhinə cinayətidir.

Ermənistan tərəfindən humanitar atəşkəsin kobudcasına pozulması bir daha onu nümayiş etdirir ki, bu ölkə münaqişənin siyasi həllində maraqlı deyil və Azərbaycana qarşı təcavüz siyasətini davam etdirmək məqsədini güdür.

Ermənistanın təcavüzkar siyasətini və bu ölkənin təcavüzü zamanı törətdiyi müharibə cinayətlərini qətiyyətlə pisləyirik. Ermənistandan beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən beynəlxalq humanitar hüquq və Cenevrə Konvensiyaları ilə üzərinə götürdüyü öhdəliklərə hörmət etməyi tələb edirik.

Humanitar atəşkəsə sadiq olduğumuzu qeyd edərək Azərbaycanın öz mülki əhalisini müdafiə etmək suveren hüququnu özündə saxladığını bəyan edirik".

# Azərbaycanın hərbi zəfərləri Qafqaza sülh gətirir

*Əvvəli 1-ci səh.*

Azərbaycan xalqı bunu Xocalı soyqırımının timsalında görüb.

Bu xain hücumların səbəbləri də bəllidir. Ermənistan münaqişənin coğrafiyasını genişləndirmək və üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək istəyir. Məhz buna görə də Ermənistan ərazisindən Azərbaycan torpaqlarını, mülki şəxsləri atəşə tuturlar və ölkəmizi cavab atəşinə təhrik edirlər.

Beynəlxalq təşkilatların və beynəlxalq ictimaiyyətin bu məsələyə reaksiyasına gəlincə, Azərbaycan Prezidenti bildirdi ki, Türkiyə hər zaman olduğu kimi, ölkəmizi açıq və birmənalı dəstəkləyib. Pakistan və digər dost ölkələr böyük həmrəylik göstərərək çox müsbət açıqlamalar veriblər. Ancaq bəzi ölkələr hələ də susqun qalırlar. Axı Ermənistanın bu terror aktı dünya miqyasında geniş vüsət aldı və belə namərd hücumun təşkil edilməsi, açıq-aşkar atəşkəsin kim tərəfindən pozulduğunu əyani şəkildə göstərdi.

Ancaq hər hansı bir terror aktı və istənilən çirkin oyunlar Azərbaycan xalqının iradəsini qıra bilməyəcək. Doğma torpaqlarında Vətən müharibəsinə başlayan Azərbaycan düşmənə qarşı daha böyük əzmlə, iradə ilə vuruşacaq, işğal altındakı torpaqlarını azad edəcək və qədim yurd yerlərimizdə üçrəngli bayrağını qaldıracaq.

## Heç bir təxribat cavabsız qalmayacaq

Bu gün görünən odur ki, işğalçı Ermənistan humanitar atəşkəsə zərrə qədər əməl etmir. Ona görə də Prezidentin dediyi kimi, bu məsələ ilə bağlı indiki mərhələdə yalnız irəli gedilməlidir. Çünki cənab İlham Əliyevin işğalçıya verdiyi son şansdan onlar yalnız öz çirkin məqsədləri naminə "yararlanmağa" çalışır.

Həqiqət budur ki, təcavüzkar ölkənin terrorçu rəhbəri Nikol Paşinyan siyasət meydanında olduğu kimi, savaş meydanında da məğlub olduğunu görüb əsl erməni xislətini nümayiş etdirir. Ancaq onun istənilən oyunu Ermənistana baha başa gələcək, necə ki, indi də gəlir.

Prezidentin də dediyi kimi, bu gün düşdüyü acınacaqlı durumdan qurtulmaq üçün istənilən dünya liderinə yalvaran Paşinyan Şuşada sərxoş vəziyyətdə yallı gedib Azərbaycan xalqını təhqir edəndə bilməli idi ki, bunun cavabı ağır olacaq. Bu gün Azərbaycan Ordusu onun hərəkətlərinin heyfini döyüş meydanında alır. Azərbaycan əsgəri döyüş meydanında kimin haqlı, kimin haqsız olduğunu göstərir.

Cənab İlham Əliyev bir daha bəyan etdi ki, N.Paşinyanın istənilən təxribatı cavabsız qalmır və qalmayacaq: "Azərbaycan xalqının ləyaqəti bərpa olunur. Şəhidlərimizin qanı yerdə qalmır və qalmamalıdır. Bu gün azad etdiyimiz şəhərlər, kəndlər Paşinyana və onun kimilərə bizim ən gözəl cavabımızdır. O, artıq anladı ki, kim kimdir. Mən ona xəbərdarlıq etmişdim. Mən ona demişdim ki, bu yol sizi fəlakətə aparacaq".

Bu gün isterikaya qapılan N.Paşinyan təşviş içindədir. Çünki güvəndiyi "sarsılmaz erməni səddi" Azərbaycan Ordusu tərəfindən darmadağın edilir. Erməni hərbçisi Azərbaycan əsgərinin qarşısında duruş gətirə bilmir, silahını, bayrağını ataraq qaçır. İşğal olunmuş torpaqlarımız terrorçulardan təmizlənir. Bu uğurlu əməliyyatlar sonuncu erməni əsgəri Qarabağdan rədd olana qədər davam edəcək.

## Azərbaycanın mövqeyi daha da güclənəcək

O ki qaldı müharibə başa çatandan sonrakı dönəmə, Prezident dedi ki, nəinki bölgə, dünya dəyişəcək. Azərbaycanla hesablaşmaq səviyyəsi daha da artacaq. Onsuz da bu gün müəyyən regional məsələlərdə Azərbaycanın rolu çox önəmlidir.

Bu durum həm də Türkiyə-Azərbaycan birliyini daha da möhkəmləndirəcək. Bu da Türkiyə və Azərbaycan üçün həyati əhəmiyyət, xüsusi önəm daşıyır. Çünki Türkiyə-Azərbaycan birliyi bölgəyə sabitlik, sülh gətirir. Qardaş ölkə bölgədə və yeni coğrafiyada çox əhəmiyyətli sabitləşdirici rol oynayır.

Müharibədən sonra baş verəcək prosesləri dəyərləndirən dövlət başçısı bu istiqamətdə hədəfləri də açıqladı: "Bundan sonra bu bölgədə biz yeni bir strateji mənzərə, strateji baxış yaratmalıyıq. Artıq bu barədə düşünməyə başlayırıq, ancaq hadisələri qabaqlamaq istəmirik. Qoy bunu həll edək, bu iş bitsin, ərazi bütövlüyümüz bərpa edilsin, ondan sonra Azərbaycanın yeni dövrü başlanacaq, bölgənin yeni dövrü başlanacaq, güclər nisbəti dəyişəcək və hesab edirəm ki, Türkiyə və Azərbaycanın gücü daha da möhkəm olacaq".

Cənab İlham Əliyevin müsahibədə səsləndirdiyi qətiyyətli fikirlər bir daha hər bir azərbaycanlıda əminlik yaratdı ki, işğal altında olan torpaqlarımız tam azad olunacaq. Əgər təcavüzkar ölkə Azərbaycanın şərtləri ilə razılaşmasa, Ermənistan nəinki ordusunu itirəcək, hətta çıxılmaz sosial-iqtisadi, siyasi və hərbi böhranla üz-üzə qalaraq tarix səhnəsindən silinəcək.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Müdafiə Nazirliyi xəbər verir

## Düşmən cəbhənin müxtəlif istiqamətlərində geri çəkilməyə məcbur edilib

Oktyabrın 14-dən 15-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində əvvəlki günlərdə olduğu kimi vəziyyət gərgin olaraq qalıb.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Ermənistan silahlı qüvvələrinin bölmələri gecə ərzində cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstərib. Qoşunlarımız tərəfindən həyata keçirilən uğurlu tədbirlər nəticəsində qarşı tərəf ciddi itki verib və cəbhənin müxtəlif istiqamətlərində geri çəkilməyə məcbur edilib.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd "Tor-M2KM" zenit raket kompleksi, 4 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-20, 1 ədəd D-30 və 2 ədəd D-1 haubitsa topu, bir neçə PUA-sı və avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən Ermənistan silahlı qüvvələrinin müvəqqəti işğal etdiyi ərazilərdəki qüvvə və ehtiyatlarına ağır zərbə vurulub. Canlı qüvvə, döyüş texnikası, silah-sursat, yanacaq tükənmək üzrədir.

Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayır.

## Ermənistan tərəfi təxribat xarakterli yalan məlumatlar yaymağa davam edir

Ermənistanın işğal etdiyi Qırmızı Bazar yaşayış məntəqəsinin guya Azərbaycan Ordusu tərəfindən "Smerç" YARS vasitəsilə atəşə tutulması və mülki əhaliyə xəsarət yetirilməsi barədə yayılan xəbərin heç bir əsası yoxdur və yalandır.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Məlumatda deyilir: "Bir daha bildiririk ki, humanitar atəşkəs rejiminə tam əməl edən Azərbaycan Ordusu yalnız zərurət yarandıqda qarşı tərəfi susdurmaq məqsədilə legitim hərbi obyektlərə atəş zərbəsi endirmək hüququnu özündə saxlayır".

## Ermənistanın Azərbaycanın Su-25 təyyarəsinin vurulması barədə yaydığı xəbər dezinformasiyadır

Ermənistan KİV-inin Azərbaycan Hərbi Hava Qüvvələrinə (HHQ) məxsus Su-25 təyyarəsinin vurulması barədə yaydığı məlumat yalandır və düşmən tərəfinin növbəti dezinformasiyasıdır.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 15-də Azərbaycan HHQ-nin döyüş aviasiya vasitələri tətbiq edilməyib və heç bir Su-25 döyüş təyyarəsi havaya qaldırılmayıb.

## Ermənilər sosial şəbəkələrdə Azərbaycan əsgərinə aidiyyəti olmayan saxta videolar paylaşırlar

Son günlər sosial şəbəkələrdə guya Azərbaycan Ordusunun hərbi qulluqçularının erməni əsirlərinə qarşı kobud davranması barədə videolar yayılıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək məqsədilə ermənilər tərəfindən səhnələşdirilən bu videolar təxribat xarakteri daşıyır. Bu videoların Azərbaycan hərbi qulluqçularının döyüş fəaliyyətinə heç bir aidiyyəti yoxdur.

"Bir daha xatırladırıq ki, Azərbaycan Ordusu hərbi qanunvericiliyə uyğun olaraq Cenevrə Konvensiyasının tələblərinə tam riayət edir", - deyə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatında xüsusi vurğulanıb.

## Düşmən yaşayış məntəqələrimizi atəşə tutmaqda davam edir

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atəşə tutur.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib.

## "Düşmənin Tərtərdə dəfn mərasimi zamanı qəbiristanlığı atəşə tutması nəticəsində 3 nəfər həlak olub, 5 nəfər xəsarət alıb"

Ermənistanın silahlı qüvvələri oktyabrın 10-da saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyalarının əsas norma və prinsiplərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı cinayət əməllərini törətməkdə davam edir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 15-də saat 13 radələrində düşmənin silahlı birləşmələri tərəfindən Tərtər şəhər qəbiristanlığının dəfn mərasimi keçirilərkən qəsdən ağır artilleriyadan intensiv atəşə tutulması nəticəsində həmin vaxt orada olan şəhər sakinləri 1989-cu il təvəllüdlü Orucov Pərviz Novruz oğlu, 1962-ci il təvəllüdlü Rüstəmov Vasif Bahadur oğlu və 1988-ci il təvəllüdlü Zamanov Şakir Xasay oğlu həlak olub, Məmmədov Fizuli Əli oğlu, Əmirov İsgəndər Yelmar oğlu, Allahverdiyev Elsevər Vəli oğlu, Əmirov Nofəl Yelmar oğlu və Qəzənfərli Rəfael Qəzənfər oğlu isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdiriliblər.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

## Erməni barbarlığının daha bir təsdiqi

### Düşmənin budəfəki hədəfi dəfnə toplaşan dinc əhali oldu

Bütün sivil dünyanı şoka salmaqda davam edən qanlı faktlarla bir daha təsdiq olunur ki, Ermənistanın faşist rejimi həqiqətən bəşəriyyətin üz qarasıdır. Dünya tarixində haqlı-haqsız çox müharibələr olub. Müharibənin isə öz qanunları var. Mülki əhaliyə əl qaldırılmaz, qadını, qocanı, uşağı, yaralını öldürməzlər.



Erməni işğalçıları isə Qarabağ savaşında uduzduqlarını dərk edib təslim olmaq, reallıqla barışmaq əvəzinə quduz itə dönüb xislətlərindən əl çəkmir, daha çox öldürməyə, daha çox qan tökməyə çalışırlar. Bu cavablar cəbhə xəttində, döyüş meydanında olsaydı, başa düşülərdi. Təəssüf ki, belə deyil. İki dalaşanın, iki düşmənin biri uduzar. Amma adam uduzanda da kişi kimi uduzar, namərdliyə əl atmaz...

Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə bu günlərdə gecəyarı, dinc əhalisi yuxuda ikən Ermənistan ərazisindən atılan raketin törətdiyi faciə dünya ictimaiyyəti və mediasında faşizim, barbarlığın iyrənc nümunəsi kimi müzakirə olunduğu bir zamanda azğın düşmən daha bir faciəyə öz şərəfsiz imzasını atdı. Oktyabrn 15-də günorta radələrində Tərtər şəhər qəbiristanlığında dəfn mərasimi zamanı məzarlığı hədəfə aldı. Qandonduran bu hadisə zamanı Tərtərin 3 sakini həlak oldu, 5 nəfər isə müxtəlif dərəcəli xəsarət aldı.

Əlavə sözə ehtiyac qalmır. Vəhşiliyin son həddi, qana susayanların insanlıqla bir araya sığmayan qətl əməli ortadadır. Qoy, 30 ildən bəri işğala məruz qalan bir xalqın şərəf hissini birtərəfli və dayanıqsız sülh çağırışları ilə söndürməyə çalışan dünya dövlətləri bu qanlı olayın obyektiv qiymətini versin! Qalanını Azərbaycan Ordusu özü edəcək, özü də artıqlaması ilə!

***Lazım QULİYEV, "Azərbaycan"***

## "Düşmənin atəşi nəticəsində Tərtər rayonunda iki evdə və bir təsərrüfat obyektində yanğın baş verib"

Ermənistan silahlı qüvvələri humanitar atəşkəs rejimini kobudcasına pozaraq Azərbaycan əhalisinin sıx yaşadığı məntəqələri, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından və raketlərdən atəşə tutaraq mülki obyektlərdə dağıntı və yanğınlar törətməkdə davam edib.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, Ermənistan ordusunun atdığı mərmi Tərtər rayonunda vətəndaşa məxsus fərdi yaşayış evinin bir hissəsinin yanmasına səbəb olub. FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin əraziyə cəlb olunan müvafiq qüvvələri evin qalan hissəsini yanğından mühafizə ediblər.

Bundan başqa, mərmi düşməsi nəticəsində Ağdam rayonunda ayrı-ayrı vətəndaşlara iki evdə və bir təsərrüfat obyektində yanğınlar baş verib. Yanğınsöndürmə qüvvələri tərəfindən yaxınlıqdakı tikililər yanğından mühafizə edilib.

FHN hazırda gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 - "qaynar" telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.

## Baş Prokurorluq sosial şəbəkələrdə yayılan və guya Azərbaycan hərbçilərinin erməni əsirlərinə kobud davranışına dair əsassız videogörüntülərlə bağlı məlumat yayıb

Bəzi sosial şəbəkə istifadəçiləri, o cümlədən "İnfoteka24" və digər xarici kütləvi informasiya vasitələri tərəfindən guya Azərbaycan Ordusunun hərbi qulluqçularının erməni əsirlərinə qarşı qanunsuz davranışlarını əks etdirən videogörüntülər yayılıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ilkin əlamətlərə görə həmin videoların saxta olmasına əsaslı şübhələr yaranıb.

Hazırda bununla bağlı Baş Prokurorluq tərəfindən araşdırma aparılır və nəticəsi barədə ictimaiyyətə ətraflı məlumat veriləcək.

**Milli maraqlar naminə əməkdaşlıq**

## Vətən savaşında bütün milli siyasi qüvvələr Ali Baş Komandanın ətrafında sıx səfərbər olub

### *Arzuman ABDULKƏRİMOV:* "Milli həmrəylikdən kənarda qalanı xalq da lənətləyəcək, tarix də"

Vətən müharibəsi Azərbaycan xalqının milli həmrəyliyi ilə yanaşı, siyasi birliyini də nümayiş etdirdi. Hələ sentyabrın 27-də Azərbaycanın 50 siyasi partiyası birgə bəyanat yayaraq, Prezident İlham Əliyevə dəstək nümayiş etdirdilər.



Ana Vətən Partiyasının sədr müavini Arzuman Abdulkərimovla söhbətimiz də həm Vətən müharibəsi, həm də cəmiyyətimizin siyasi birliyi barədədir.

Bu günlərdə bir sıra yaşayış məntəqələrimizin azad olunması xəbərlərini böyük sevinc hissi ilə qarşıladığını deyən Arzuman Abdulkərimovun sözlərinə görə, Ermənistanın növbəti təxribatından sonra Azərbaycanın əks-hücum əməliyyatına başlaması hər bir azərbaycanlının ürəyindən xəbər verdi: "Düzdü, biz müharibə tərəfdarı deyilik, xalqımız həmişə humanizmin, sülhün olmasını istəyib. Bunu bizim ötən 26 ildə sülh danışıqlarına sadiqliyimiz də göstərir. Amma bu vəziyyətlə barışa, torpaqlarımızın uzun müddət işğal altında qalmasına dözə bilməzdik. Azərbaycan xalqının da səbr kasası dolub. Bu mənada Vətən müharibəsi gözlənilən idi və biz bu müqəddəs savaşı etməliydik. Əlbəttə, istərdik problem sülh yolu ilə həll olunsun, amma nə qarşı tərəf, nə də beynəlxalq təşkilatlar buna adekvat oldular. Dünya birliyi bu problemə ikili, üçlü standartlarla yanaşdı. Bundan sonra Ermənistan Azərbaycana qarşı yeni təxribatlara başladı.

Sentyabrın 27-də Ermənistanın növbəti təxribatına Azərbaycan əks-hücumla cavab verdi. Ordumuz Vətən müharibəsində qalibiyyət yürüşünü davam etdirir. Hərbi əməliyyatlarımız effektivdir. Bu muharibədə xalqımız ordumuzun yanındadır və Ali Baş Komandanın ətrafında sıx səfərbər olub. Siyasi partiyalar da dövlətimizin bu haqq işini birmənalı dəstəkləyirlər".

Arzuman Abdulkərimov bildirdi ki, bir il əvvələ qədər sülh danışıqlarına ümid var idi. Amma ötən il Paşinyan bütün siyasi və diplomatik normaları aşaraq "Qarabağ Ermənistandır" dedi. Bununla da həm danışıqlar prosesini pozdu, həm də öz sonunu yaxınlaşdırdı. Bu adam həm siyasi səhnədən gedəcək, həm də tarixdə məğlub bir rəhbər kimi yadda qalacaq. "Ermənistanın baş naziri döyüşlər başlayandan ayrı-ayrı dövlət başçılarına yalvarmağa, atəşkəs üçün dil tökməyə başladı. Azərbaycan qeyd etdiyim kimi, sülh danışıqlarından heç vaxt yayınmayıb. Moskva görüşü də bunu təsdiq edir. Amma bundan sonrakı danışıqlar Azərbaycanın şərtlərinin reallaşması şəraitində baş tutmalıdır. Ermənistan yenə də danışıqlarda imitasiya etsə, Azərbaycanın işğalçını cəzalandırma tədbirləri davam etməli və düşmən zorla sülhə məcbur edilməlidir. Ermənistanın başı əzilməli, ağlı başına gəlməlidir ki, şərtləri qəbul edib danışıqlar masasında otursun və ədalətli nəticə əldə olunsun. Bu şərtləri də cənab Prezident, Ali Baş Komandan İlham Əliyev bəyan edib: Ermənistan ordusu işğal olunmuş əraziləri tərk etməli və Paşinyan xalqımızdan üzr istəməlidir. Azərbaycana qrafik təqdim olunmalıdır ki, işğalçı qoşunlar nə vaxt ərazilərimizdən çıxacaqlar. Yalnız bundan sonra Azərbaycan sülh danışıqlarına razı ola bilər".

Həmsöhbətim onu da qeyd etdi ki, Ermənistanın əsas niyyəti bu münaqişəyə üçüncü tərəfi cəlb etməkdir. Amma onun bu niyyəti hələ Tovuz təxribatı zamanı puça çıxıb.

Türkiyə dövlətinin Azərbaycana dəstəyindən bəhs edən A.Abdulkərimov dedi ki, bu gün tarix təkrar olunur: "1918-ci ildə türk ordusu Azərbaycana gəlmiş və Qafqaz İslam Ordusu Bakını işğaldan azad etmişdi. Bu gün də Türkiyə Azərbaycanın yanındadır. Düzdür, bu gün Azərbaycanın güclü ordusu var. Dövlət olaraq iqtisadi gücümüz var, müstəqil siyasət yürüdürük. Yəni Azərbaycan Cənubi Qafqazın aparıcı dövlətidir. Bu mənada indi bizim xarici hərbi dəstəyə ehtiyacımız yoxdu. Lakin qardaş Türkiyə ilk gündən öz mövqeyini birmənalı şəkildə ortaya qoyub, Azərbaycanın haqq davasını dünyaya çatdırır".

A.Abdulkərimov Fransa dövlətinin mövqeyi ilə də bağlı fikirlərini bölüşdü. Onun sözlərinə görə, Prezident Makronun son bəyanatlarından sonra Fransa Minsk qrupunun həmsədrliyindən imtina etməlidir: "Əslində, Fransa Minsk qrupunun həmsədri olmaq haqqını neçə illər əvvəldən itirib. Makronun son bəyanatları isə bunun kulminasiya nöqtəsi oldu. O bildirir ki, Azərbaycan Qarabağı işğal edir. Fransa kimi dövlətin rəhbəri doğrudanmı həqiqətləri bilmir? Bu baxımdan onun bəyanatları çox məsuliyyətsiz idi və Fransanın bundan sonra Minsk qrupunun həmsədri kimi qalması düzgün deyil. Ümumiyyətlə isə, Minsk qrupu özünü doğrultmur. Fikrimcə, danışıqların 2+2 formatında - Azərbaycan, Türkiyə, Rusiya və Ermənistanın iştirakı ilə aparılması daha yaxşı olar. Rusiya və Türkiyə müharibə zonasına da yaxındırlar, bölgəni daha yaxşı tanıyırlar, nəinki Fransa və digərləri. Ona görə 2+2 formatına keçmək zamanın tələbidir. Çünki Minsk qrupu ona bəslənən etimadı doğrulda bilmir".

Vətən müharibəsi həm də Azərbaycandakı daxili həmrəyliyin, siyasi birliyin təsdiqi oldu. Arzuman Abdulkərimov bunula bağlı qənaətlərini bölüşərək dedi: "Bildiyiniz kimi, bu ildən Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi tərəfindən yeni siyasi dialoq prosesi başladılıb. Məhz bu dialoqun nəticəsidir ki, bu gün 50-dən artıq siyasi partiya Vətən müharibəsində birlik nümayiş etdirir. Yadımdadı ki, 2016-cı ilin aprel ayında belə bir hal baş verməmişdi. Tarix göstərdi ki, bu siyasi dialoq nə qədər vacibdir. Bildiyiniz kimi, Prezident Administrasiyasında çox ciddi kadr islahatları həyata keçirildi. Köhnə zehniyyatı yeni təfəkkür əvəz etdi. Şəxslərdən çox şey asılıdır. İnsan var elmlidir, amma təfəkkürü qaranlıqdır və ya orta əsrlər səviyyəsindədir. Artıq müasir dünyagörüşlü, yüksək təfəkkürlü kadrlar vəzifələrə təyin olunublar. Bu baxımdan Ədalət Vəliyevin rəhbərliyi ilə Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin fəaliyyəti kifayət qədər təqdirəlayiqdir. Bu şöbənin yaradılması Prezident İlham Əliyevin uğurlu idarəçiliyinin göstəricisidir. Dövlət başçısı göstərdi ki, Azərbaycanda çoxpartiyalı siyasi sistemin inkişafında maraqlıdır".

Arzuman Abdulkərimovun sözlərinə görə, 50-dən artıq siyasi partiyanın Prezidentlə həmrəylik nümayiş etdirməsi bizim tariximizdir: "50 ildən sonra bunlar dərsliklərə salınacaq. Bu partiyalar tarixə Azərbaycan dövlətçiliyinin qorunmasında iştirak edən siyasi təşkilatlar kimi düşəcəklər. Bu savaş Azərbaycanın qələbəsi ilə başa çatandan sonra hər bir partiya öz yolu ilə fəaliyyətinə davam edəcək. Hansı partiya ki, milli həmrəylikdən kənarda qaldı, onu xalq da lənətləyəcək, tarix də".

***Söhbəti yazdı: Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

## Düşmənin dinc əhalini atəşə tutması nəticəsində Ağdam rayonunda iki sakin xəsarət alıb, evlərə ciddi ziyan dəyib





Ermənistanın silahlı qüvvələri oktyabrın 10-da saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini, o cümlədən 1949-cu il tarixli Cenevrə konvensiyalarının əsas norma və prinsiplərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı terror əməllərini davam etdirir.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 15-də səhər saatlarından başlayaraq düşmənin silahlı birləşmələri tərəfindən Ağdam rayonu müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulub. Səhər saat 09 radələrində Ağdam rayonunun Birinci Baharlı qəsəbəsində fərdi evlərə mərmi düşməsi nəticəsində 1969-cu il təvəllüdlü Vəliyev Şahsuvar Millət oğlu və 1979-cu il təvəllüdlü Musayev Roman Yusif oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdiriliblər. Evlərə ciddi ziyan dəyib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

## Dövlət Təhlükəsizliyi Xidməti vətəndaşları ayıq-sayıq olmağa çağırır

Dövlət Təhlükəsizliyi Xidmətinə daxil olmuş məlumatlara əsasən, Ermənistan xüsusi xidmət orqanları cəbhədə öz ordularının silsilə məğlubiyyətlərini ört-basdır etmək məqsədilə Azərbaycan Respublikasının böyük şəhərlərində insanların sıx cəmləşdiyi yerlərdə, ictimai nəqliyyatda terror-təxribat və digər pozuculuq aktlarını həyata keçirmək, bununla da keçən əsrin 80-ci illərinin sonu və 90-cı illərdə Bakıda və ölkəmizin başqa yerlərində dinc əhaliyə qarşı törətdikləri mənfur və insanlığa sığmayan qanlı terror əməllərini təkrarlamaq niyyətindədirlər. Bu barədə AZƏRTAC-a Dövlət Təhlükəsizliyi Xidmətinin İctimai əlaqələr şöbəsindən bildirilib.

Qeyd edilir ki, Ermənistan dövlət səviyyəsində terroru dəstəkləyən və terror əməllərini həyata keçirən dövlətdir. Hazırda Ermənistan silahlı qüvvələrinin və xüsusi xidmət orqanlarının tərkibində Yaxın Şərq ölkələrindən gətirilmiş terrorçular xidmət edir.

"Vətəndaşları gündəlik həyat və iş ahəngini pozmadan və təşvişə qapılmadan ayıq-sayıq olmağa çağırır, yaşadıqları ərazilərdə şübhəli şəxslər, hərəkət və əşyalar barədə məlumatları (012) 4059999 nömrəli telefonla Dövlət Təhlükəsizliyi Xidmətinə, eləcə də yerli polis və digər hüquq mühafizə orqanlarına bildirmələrini xahiş edirik.

Eyni zamanda, son dövrlərdə erməni terror təşkilatı olan ASALA-nın fəallaşdığını nəzərə alaraq, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərini və diplomatik heyəti, diaspor təmsilçilərini və ölkəmizə aid şirkətlər və onların əməkdaşlarını ayıq-sayıq olmağa və şübhəli hallar müşahidə edildikdə yerləşdikləri ölkələrin hüquq mühafizə orqanlarına müraciət etməyi tövsiyə edirik", - deyə DTX-nin məlumatında bildirilir.

# Torpaqların işğaldan azad olunması uğrunda Vətən müharibəsi gedir



## Erməni raketi 2 yaşlı Nilayın ad gününü valideynlərinin qətl gününə çevirdi

### İşğalçıların Gəncədə dağıtdıqları binaları ziyarətə gələnlərin ardı-arası kəsilmir



*Əvvəli 1-ci səh.*

Bununla da nə qədər qəddar olduğunu, beynəlxalq hüququn norma və prinsiplərinə, 1949-cu il tarixli Cenevrə konvensiyalarının müddəalarına, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrinə məhəl qoymadığını boynuna almış oldu.

İşğalçının humanitar atəşkəsin imzalandığı vaxtdan cəmi 14 saat sonra Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə uzaqvuran ballistik raketlərin atılması nə müharibə qaydalarına, nə də insanlığa sığan bir cinayət əməlidir. Ermənilərin bu əməlləri cəbhədəki uğursuzluqlarının fonunda faşist xislətlərinin faş olması idi. Müzəffər Azərbaycan Ordusu irəlilədikcə, Qarabağ uğrunda gedən döyüşlərdə qələbələr qazandıqca düşmənin öz məkrli niyyətinə çatmaq üçün başqa yolunun qalmamasının təsdiqi idi.

Məlum olduğu kimi, oktyabrın 11-də gecə saat 2 radələrində Gəncəyə atılan raket 10 nəfərin həlak olmasına, 34 nəfərin müxtəlif dərəcədə yaralanmasına, görünməmiş dağıntılara səbəb olmuşdur. Düşmən vandallığından zərər çəkmiş insanlar indi uçmuş evlərinin altında qalmış istifadəyə yararlı məişət əşyalarını toplayır, müvəqqəti yerləşdikləri evlərə daşıyırlar. Bura ziyarətə gələnlər də onlara yardımlar edir, mənəvi dəstək olurlar. Xarabalığa çevrilmiş ərazini görən hər kəs bu hadisəni, Ermənistanın hərbi siyasi rəhbərliyinin atdığı bu iyrənc qətl hərəkətini soyqırımı kimi qiymətləndirirlər. Lakin baş verən bütün bu hadisə insanların əzmini qırmamışdır. Daha çox nikbin olan sakinlərin hamısı bir arzu ilə yaşayır: “Biz dözərik, təki Qarabağımız işğaldan azad olunsun”.

Həlak olanların xatirəsini yad etmək üçün bura gün ərzində yüzlərlə insan gəlir. Bir neçə gün ərzində demək olar ki, dağıntıların önü qərənfillərlə örtülüb. Dağıntılara sancılmış “Burada uşaq var”, “ Erməni terroruna son!”, “Erməni işğalına son!” şuarları isə dünya ictimaiyyətinin diqqətini ermənilərin qətl hərəkətlərinə yönəldir.

...Dağıntıların qarşısında bir nəfər ah-nalə çəkirdi. Yaxınlaşıb toxtaqlıq verdik. Məlum oldu ki, Zahid Babazadə hadisə baş verənə kimi özünü dünyanın ən xoşbəxt insanı sanırdı. Qızını köçürdükdən sonra bir qız nəvəsi də olmuşdu. Lakin erməni vandalizmi bu xoşbəxt ailəni yerlə-yeksan etdi. Raket düşən anda qızı, kürəkəni və qızının qaynanası həlak olmuş, təkcə 2 yaşlı nəvəsi Nilay sağ qalmışdı. Noyabrın 18-də ad günü olmalıydı. Lakin ermənilər Nilayın ad gününü valideynlərinin, nənəsinin qətl gününə çevirdi.

Bir nəfər isə dağıntılar altından ev əşyalarını çıxarırdı. Zahid Əliyevin də evi dağılmış, yaxın qohumları - qardaşı oğlu Adil, Adilin anası Afaq və həyat yoldaşı Günay həlak olmuşlar. Bu ailənin də bir azyaşlı körpəsi valideynsiz qalmışdır.

Partlayış zamanı Kifayət Cəfərovaya da böyük ziyan dəyib. Deyir ki, 3 otaqlı təmirli bir ev qurmuşdu. 5 nəfər ailə üzvü ilə orada yaşayırdı. Hadisə baş verərkən bütün ailə üzvləri yuxuda imişlər. Dəhşətli partlayış nəticəsində ev dağılıb. Xoşbəxtlikdən ailə üzvləri xəsarət alsalar da, həyatını itirən olmayıb.

Biz Kifayət Cəfərova ilə söhbət edərkən uçmuş evin üstündən bir taxta parçası düşərək güclü səs çıxardı. Kifayət Cəfərovanın hansı vəziyyətə düşdüyünü sözlə ifadə etmək mümkün deyil. Handan-hana özünə gəldi: “Nə edim, içimizdə bir partlayış qorxusu var. Hər səsə diksinirik. Allah düşmənlərin kökünü kəssin, bunu da bizə yaşatdı”.

**Sabir ƏLİYEV,**
**“Azərbaycan”**

# GƏNCƏDƏN

*11 oktyabr mülki şəxslərə qarşı törədilən terror aktı zamanı həlak olan gəncəlilərin əziz xatirəsinə*





Cəllad!
Sənin oğlun-qızın mələr qalsın, mələsin,
Mələyənlər indi burda kimə desin, nə desin?!
Gərək toplar qıyya çəksin, güllələr dad eləsin,
alov töksün yağış kimi başınıza, Gəncədən.

Bir canımız cəbhədədi, bir canımız ordadı,
Cümhuriyyət tariximiz, ünvanımız ordadı.
Əsgər gedən igidimiz, cavanımız ordadı,
ər oğlu-ər çıxacaqdı qarşınıza, Gəncədən.

Göy göl Gəncə göylərinə güzgü tutur nə vaxtdı,
o torpaqda Nizaminin ruhu hələ oyaqdı.
Qızıl Arslan Atabəyin çadırında qonaqdı,
Taleyin bir töhfəsidi Zaman bizə, Gəncədən.

Cavad Xanın qoruduğu, vətəniydi, ey Vətən!
Sisyanovu itlər qovdu sonra qədim Gəncədən.
Sən onda da məğrur çıxdın o məkrli hiylədən,
Qovulanda o kor bayquş, o yarasa, Gəncədən.

Bu dünyanın Putini var, Makronu var, Trampı var,
bizim də var: Heydəroğlu İlhamımız - Xilaskar!
Ərdoğanla, İmran Xanla qardaşdılar, dostdular,
lənət deyir, qisas deyir bu qisasa, Gəncədən.

Soraqlayıb hardan tapım mən Dmitri Qordonu,
bir “Merzaves!” dediyi var, yenə söysün qoy onu.
Topa salıb erməninin yeddibaşlı oyunu,
Ekranlarda böhtan deyir o da rusa, Gəncədən.

“Sözümüz də imzamız tək düzdü bizim”, susaqmı?
sənin adın gələn yerdə, “Xəbərlər”dən pozaqmı?
Yenə silah göndərirsən, hamısını yazaqmı?
Mən Bakıya dönəmmərəm, susa-susa, Gəncədən!

İrəvanın mərkəzində Njdenin tunc heykəli
Hökm eləyir orda faşist toxumunu əkəli
dünəni də ləkəlidi, bu günü də ləkəli.
İstəyir ki, səni-məni tutub asa Gəncədən.

Məni Gəncə çinarları, moruq kolu tanıyır,
İmamzadə ziyarəti, Kəhriz yolu tanıyır,
o yolların altı-üstü, sağı-solu tanıyır,
gələcəyəm,
mən “Qələbə!” yaza-yaza Gəncədən.

***Nəriman HƏSƏNZADƏ,***
***Xalq şairi***

*12-13 oktyabr, 2020*

# Düşmən gülləsinə gülən körpələr



*Bu bir İlahi hikmətdir...*

*Daha güllə səsləri diksindirə bilmir körpələrimizi...*

*Üz-gözündən süzülən al qana əlləriylə sipər çəkib bir uşaq gülümsəyir üzümüzə...*

*Valideynlərinin qara lentli fotosunu bağrına bərk-bərk sıxıb mətin addımlarla irəliləyən o qızcığazın gözlərindəki qətiyyəti, qisas yanğısını gördünüzmü?!*

Azərbaycan bayrağının fonunda ata-ana itkisindən ürəyinə atəş düşmüş o balaların məğrurluğunu hiss etdinizmi?!

Oysa ki, bu uşaqlar heç vaxt müharibə görməmişdilər, güllə səsi, bomba partlayışları eşitməmişdilər. Dağıntıların altından yaşam harayı çəkən ata-analarının son nidaları qulaqlarında əks-sədaya çevrilməmişdi. Qana bulaşmış oyuncaqlar, qolları, ayaqları sınmış gəlinciklər daşların altından həsrətli-həsrətli boylanmamışdı körpələrin arxasınca...

Bütün bunların hamısı sadəcə bir anın içində baş vermişdi. Və əbədiyyətin özü qədər uzun olan bu an onları cəsarət, əzmkarlıq, dözüm atəşində yandıraraq bərkitmişdi, böyütmüşdü...

## Aciz düşmən yenə silahını körpələrimizin ürəyinə tuşladı...

O gecə Gəncəyə atılan hər bomba sanki bütün azərbaycanlıların qəlbinə düşdü. Dağıntıların altında hər birimizin atası, anası, övladı, əzizləri qaldı, həyatla vidalaşdı. Valideynlərini itirib yetim qalan o körpə balaları görüb qəhərdən boğulduq, hönkür-hönkür ağladıq... Xocalını bir daha yaşadıq, valideynləri vəhşicəsinə qətlə yetirilən uşaqlar gözümüzün qabağına gəldi...

Üzərindən illər ötəndən sonra yenə vətənimin övladları eyni zülmlə, barbarlıqla qarşılaşdılar. Aciz, xain düşmən yenə silahını körpələrimizin ürəyinə tuşladı...

Hələ Xocalıda minbir işgəncə ilə qətlə yetirdikləri körpələrin, uşaqların, 2017-ci ildə həyatdan qopardıqları balaca Zəhranın əllərindəki qan qurumamış yenə azərbaycanlı balaların qanının axıdılmasına bais oldular. Mülki əhalini hədəf seçərək soyqırımı törətdilər, uşaqları atasız-anasız, valideynləri övladsız qoydular.

Azərbaycan Ordusu ilə döyüşməyə cəsarəti çatmayan erməni cəlladları hər dəfə olduğu kimi, bu dəfə də xaincəsinə dinc sakinləri nişan aldı. Döyüş bölgəsindən kilometrlərlə uzaqda olan şəhərlərimizdə, kəndlərimizdə vətəndaşlarımızın canına ölüm xofu salmaq, işğal etdikləri torpaqlarımızın itirilməsi ilə barışmağımıza nail olmaq istədilər. Çalışdılar ki, bizi canımızla imtahana çəkib haqq yolumuzdan döndərsinlər, dədə-baba yurdumuz Qarabağa qayıdış yolumuzu alt-üst etsinlər.

## Biz diri ikən şəhadət şərbəti içən Vətən fədailəriyik

Amma bu dəfə zaman başqa, əyyam fərqlidir...

Bu dəfə yer də, göy də haqqı nahaqqa verməmək üçün qoşalaşıb. Qarabağ şəhidlərimizin qanı ilə suvarılmış laləzara, vətən oğullarımızın nərəsindən ucalmış zirvələrə dönüb, hər yerdən ana yurdun ətri, doğma səsi gəlir.

Coşan qanımız, daşan sevincimiz qələbəyə səsləyir bizi. Heç bir qüvvə qarşımızda dayana, duruş gətirə bilməz. İndi biz körpəsindən yaşlısına qədər diri ikən şəhadət şərbəti içib, torpaq uğrunda baş qoymağa hazır Vətən fədailəriyik. Haqq yolunda zəfər yürüşünə çıxmışıq, bu yoldasa öldü var, döndü yox...

Buna görədir ki, körpə yaşda belə erməni zülmü ilə qarşılaşan oğullarımız, qızlarımız bu qədər mətanətli, polad kimi əyilməzdir. Kiçicik qəlblərinə dağ boyda ələm sığdırıb, gözlərindəki qan yaşı damcı-damcı ürəklərinə axıdıb, dərdin ağırlığından əyilən qamətlərini dik tutub qaniçən düşmənin gözlərinə şax baxdılar. O qartal baxışlardan süzülən atəş isə riyakar ermənininin bağrını ox kimi dəldi, o şahin gözlərdən oxunan məna isə ürəklərində cəhənnəm odunu alovlandırdı: “Kəs atəşi, vəhşi erməni! Zülm topunla, güllənlə sən bizi qorxuda bilməzsən. Birimizi öldürsən də, minimiz qarabağlı doğuluruq. Qarabağ sevdalılarıyıq, bu müqəddəs eşq uğrunda çarpışmağa, vuruşmağa, elə fəda olmağa da hazırıq”.

## Bir neçə gün əvvələ qədər atalı-analı xoşbəxt uşaq dünyasında yaşayırdılar

İlahi, nə zaman böyüdü bu uşaqlar?! Nə zaman körpə könüllərinə vətən sevdası düşdü!?

Dünyadakı bütün maddi sərvətlərin körpə yanağından süzülən bir damla yaşa dəymədiyini qanmayan barbar erməniyə dərs verəcək həddi-buluğa nə zaman yetişdilər?

Oysa ki, bir neçə gün əvvələ qədər atalı-analı xoşbəxt uşaq dünyasında yaşayırdılar, sevgi ilə dolu, başdan-başa arzularla bəzənmiş...

Bəli, bütün bunların hamısı sadəcə bir anın içində baş vermişdi. Və əbədiyyətin özü qədər uzun olan bu an uşaqlarımızı cəsarət, əzmkarlıq, dözüm atəşində yandıraraq bərkitmişdi, böyütmüşdü...

Elə Gəncənin özü kimi qürurlu, vüqarlı, məğrur etmişdi...

**Yasəmən MUSAYEVA,**
**“Azərbaycan”**

# Azərbaycan Ermənistan iqtisadiyyatını tam çökdürür







*Əvvəli 1-ci səh.*

Ona görə bu müharibə Ermənistan üçün əsl fəlakət deməkdir. “Fitch” beynəlxalq kredit reytinq agentliyi də bu ölkənin kredit reytinqini aşağı salıb.

Belə ki, “Fitch” bu həftənin əvvəlində Ermənistanın xarici valyutada uzunmüddətli kredit reytinqinin “BB-”dən “B+” səviyyəsinə endirildiyini açıqlayıb. Bu onu göstərir ki, Ermənistanda iqtisadi geriləmə proqnozlaşdırıldığından daha kəskindir. Hesablamalara görə, ilin sonuna bu ölkədə ÜDM-in səviyyəsi 6,8 faiz azalaraq 13 milyard dollar təşkil edəcəkdir. Amma hərbi əməliyyata çəkilən xərclər fonunda azalmanın daha çox olması gözlənilir. Azərbaycanın yalnız dronları Ermənistanı bir milyard dollarlıq ziyana salıb.

Hərbi vəziyyətin elan edilməsi və tam səfərbərlik rejiminin tətbiq olunması nəticəsində Ermənistanda əməktutumlu sektorların fəaliyyəti xeyli məhdudlaşıb. İş adamlarının sözlərinə görə, istehsal prosesinin qismən və ya tam dayandırılması onların gəlirinə təsir göstərdiyindən növbəti aylarda vergi ödəmələrində kəskin azalma gözlənilir. Ermənistanın maliyyə nazirliyinin məlumatına görə, bu il dövlət büdcəsinə vergi daxilolmaları üzrə proqnozlar yerinə yetirilməyəcək.

Yerevandakı Qafqaz İnstitutunun iqtisadçısı Qrant Mikaelyanın bildirdiyinə görə, Dağlıq Qarabağdakı hərbi əməliyyatların iqtisadi fəsadlarının ən böyük yükü xidmət sektoru və maliyyə sisteminin üzərinə düşəcək. Mikaelyan Dağlıq Qarabağdakı döyüşlərin Ermənistan iqtisadiyyatına iki cəhətdən təsir edəcəyini deyir: “Xidmət sektoru çətin vəziyyətə düşəcək. Müharibə ilə birlikdə ermənilərin gündəlik ictimai fəallığının azaldığını və bunun iqtisadi artıma mənfi təsir göstərəcəyi qaçılmazdır. Müharibə maliyyə sisteminə də mənfi təsir göstərəcək.




Dövlətin müharibə, qaçqınlar və infrastruktur problemləri ilə əlaqədar öncədən hesaba alınmamış əlavə xərcləri əmələ gələcək”.

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) bu il Ermənistan iqtisadiyyatının 5 faiz azalacağını gözləyir. AYİB-in bu hesablaması Dağlıq Qarabağ bölgəsində döyüşlərin yenidən başlanmasından əvvəl elan olunub. Deməli, azalma daha çox olacaq. Ermənistan Mərkəzi Bankı 2020-ci il üçün işsizlik səviyyəsinin 20,4 faiz olacağını gözləyir. Gənclər arasında işsizlik göstəricisi 35 faizdir. Bu, ölkədəki işçi qüvvəsinin digər ölkələrə köç etməsinə səbəb olur.

Onu da qeyd edək ki, ölkədə xarici borcların həcmi bu ilin aprel-sentyabr aylarında 700 milyon artaraq 6 milyard dollara çatıb. Bu isə o deməkdir ki, Ermənistanın xarici borcu ÜDM-in 50 faizindən artıqdır. Daha dəqiq ifadə etsək, Ermənistanın 5,7 milyard dollarlıq xarici borcu onun ümumi daxili məhsulunun 54 faizini təşkil edir. Son hadisələri də nəzərə alsaq, bəzi ekspertlərin fikrincə, ilin sonuna bu göstərici 80-90 faiz səviyyəsinə çatacaq.

Ümumiyyətlə, Ermənistan regionda xarici borcu ÜDM-in yarıdan çoxunu təşkil edən vəziyyəti kritik olan azsaylı ölkələrdəndir. Yerevan mövcud 2,6 milyard dollarlıq rezervini xarici borcunu qaytarmaq üçün istifadə etsə də, bu, ölkənin xarici borc asılılığını aradan qaldırmasına imkan vermir. Belə vəziyyət Ermənistanın daha sürətli çöküşü deməkdir. Ölkədə ərzaq təminatı da ciddi problemə çevrilib.

Azərbaycanın isə dövlət rezervləri Ermənistanla müqayisədə 20 dəfə çoxdur. Azərbaycanda strateji valyuta ehtiyatları 51 milyard dollardan çox olduğu halda Ermənistanda bu rəqəm qeyd etdiyimiz kimi 2,6 milyard dollar təşkil edir. Yeni müharibə isə Ermənistan üçün yeni xərclər yaradıb. Hazırki iqtisadi vəziyyəti ona bundan sonra müharibə aparmağa imkan verməyəcək.

Ermənistan iqtisadiyyatının daha bir böyük problemi ondan ibarətdir ki, onun iki dövlətlə sərhədi bağlıdır. Təcavüzkar siyasət yürütdüyünə, Azərbaycanın ərazilərini işğal altında saxladığına görə Türkiyə və Azərbaycanın Ermənistanla sərhədləri bağlıdır. İndiki vəziyyətdə Azərbaycan Cənubi Qafqazın aparıcı dövləti kimi Ermənistanı bütün layihələrdən kənarda qoyub. Belə bir vəziyyətdə olan ölkənin perspektivdə iqtisadi dirçəlişi mümkün deyil.

**Elçin CƏFƏROV,**
**“Azərbaycan”**

# Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir

Ekoloji terror ekologiya elmində mövcud anlayışlardan biri olaraq, konkret ölkə tərəfindən və ya şəxs tərəfindən digər ölkənin flora və faunasına zərər yetirməklə, təbii sərvətlərini məhv etməklə, bilərəkdən vurulan ziyandır. Artıq 30 ildən çoxdur ki, Azərbaycan Respublikası Ermənistanın törətdiyi ekoloji terrordan əziyyət çəkir. Hazırda Ermənistanın Azərbaycana qarşı apardığı terror müharibəsi aktiv silahlı mübarizə formasından "soyuq terror müharibəsi" fazasına keçərək, müxtəlif üsullarla həyata keçirilir.

Ermənistanın Azərbaycana qarşı yürütdüyü bu terror siyasəti ideoloji, elmi, mədəni, mənəvi, sosial sahələri əhatə etməklə, bir növ kiberterror səviyyəsinə çatdırılmışdır. Ermənistan ərazilərindən gələn və Azərbaycanın içməli su mənbələrini formalaşdıran çayların kimyəvi, bioloji və digər radioaktiv tullantılarla çirkləndirilməsi davamlı xarakter almışdır. Bu amil regional əhalinin təhlükəsiz yaşama hüququnu dərindən sarsıdır.

Ümumiyyətlə, beynəlxalq hüquq müstəvisində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin su ehtiyatları ilə əlaqəli aspektləri, eləcə də düşmən dövlətin hidroterror, hidrodiversiya və ekoloji təxribat aktları törədilməsində şirin su mənbələrindən və hidrotexniki qurğulardan istifadə etməsi amilləri kifayət qədər öyrənilməmiş məsələlərdəndir. Ermənistanın Azərbaycana qarşı ekoloji terror siyasəti öz mahiyyəti və reallaşdırılması mexanizmləri baxımından olduqca müxtəlifdir.

Eyni zamanda beynəlxalq qurumların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində nümayiş etdirdikləri qeyri-konstruktiv yanaşma regionda vəziyyətin daha da pisləşməsinə xidmət edir. Ermənistan ATƏT-in Minsk qrupunun münaqişənin konservasiyasına xidmət edən ikili mövqeyindən yararlanaraq əsassız bəhanələrlə münaqişənin həllini uzadır. Xarici havadarlarından dəstək alan rəsmi Yerevan transsərhəd su ehtiyatlarının idarə olunmasına, istifadəsinə, qorunmasına və su kvotasının müəyyənləşdirilməsinə dair region dövlətləri ilə hər hansı bir müqavilənin bağlanmasını ləngitməklə, ölkəsinin Ermənistan SSR-in hüquqi varisi olduğunu bəhanə gətirir, regional hidrosiyasətdə SSRİ-nin hələ 1924-cü ildə Türkiyə, 1957-ci ildə isə İranla su bölgüsünə dair bağladığı sazişlərin müddəalarına söykənməkdə davam edir.

Azərbaycan ərazisinin 3/4 hissəsi Kür çayı hövzəsinin aşağı axarında yerləşir. Hər il Ermənistan ərazisindən kimyəvi və bioloji cəhətdən çirkləndirilmiş 350 milyon kubmetrdən artıq su kütləsi Kür çayı hövzəsinə tökülür. Nəticədə Araz çayının 43 km-i boyunca Azərbaycan ərazisindəki mikroflora və mikrofauna tamamilə məhv edilmişdir. Ermənistanın ekoloji terror siyasətinin bilavasitə təsiri nəticəsində Araz çayında suyun çirklənmə səviyyəsi normadan dəfələrlə artıq göstəriciyə malikdir. Çayda turşululuq göstəricisi - ph 2,4-ə enmiş, mikroflora 180-200 dəfə azalmışdır. Eyni zamanda Araz çayında qiymətli balıq növlərinin kökü kəsilmişdir. Əvvəllər qeydə alınmış 21 balıq növünün son 10-15 il ərzində məhv olaraq 16 növə enməsi müəyyənləşdirilmişdir.

Araz çayında təbii yolla neytrallaşan və müəyyən edilən üzvi çirkləndiricilər normadan dəfələrlə artıqdır. Göstərilən sahədə sudakı fenolların miqdarı 220-1160 dəfə, ağır metal duzları (mis, molibden və s.) 36-48 dəfə, azot-fosfor duzları 26-34 dəfə, xloridlər 28 dəfə, neft mənşəli karbohidrogenlər isə 73-113 dəfə norma üzrə qəbul edilmiş qatılıqdan yüksəkdir. Eyni zamanda yüksək temperatura malik sənaye mənşəli tullantı suları çayın temperatur və qaz rejiminə mənfi təsir edir. Çayın dibindən götürülmüş nümunələrin analizlərinin nəticələri göstərir ki, Araz çayında ağır metalların miqdarı normadan xeyli çoxdur. Suyun tərkibində olan toksik mənşəli maddələrin miqdarı da normadan 50% artıqdır. Bu səbəbdən də Araz çayının müxtəlif toksik mənşəli tullantılarla çirkləndirilməsi flora və faunanın mövcudluğu üçün təhlükə yaratmaqdadır.

Beləliklə, Araz çayının əsas qollarının Ermənistan ərazisindən keçdiyini, ölkə ərazisində Metsamor AES-in bütün beynəlxalq təzyiqlərə baxmayaraq fəaliyyət göstərdiyini və tullantılarını Araz çayının Zəngiqolu ilə axıtdığını, habelə terrorçu dövlətin "Sərhədlərdən axan su axınları və beynəlxalq göllərin istifadəsi və mühafizəsinə dair" 1992-ci il Konvensiyasına qoşulmadığını nəzərə alsaq, ekoloji fəlakətin qaçılmaz olacağı qənaətinə gəlmək mümkündür. Yeri gəlmişkən, təkcə Azərbaycan Respublikasında deyil, Türkiyə Cümhuriyyətində də Metsamor AES-in fəaliyyətinin regionun ekologiyasına, xüsusilə Ermənistanla həmsərhəd rayonlarda, məsələn, stansiyanın cəmi 15 kilometrliyində yerləşən İğdır bölgəsində yaşayan əhalinin sağlamlığına ciddi təhlükə mənbəyi olması barədə fikirlər səslənməkdədir. Mütəxəssislərin qənaətinə görə, Ermənistanın Metsamor və Bolqarıstandakı Kozladuy Atom Elektrik stansiyaları Avropa ərazisində qəza vəziyyətində olan ən təhlükəli müəssisələrdir.



Azərbaycan son hərbi əməliyyatlarla Ermənistanın su ehtiyatlarımıza qarşı ekspansiyasını da iflasa uğradır

Həmçinin Ermənistanın hərbi yolla işğal etdiyi Azərbaycan Respublikası ərazilərində kənd təsərrüfatı üçün əhəmiyyət kəsb edən və Azərbaycanın ən hündür relyefə malik su anbarı olan Sərsəng su anbarı ilə bərabər ümumi su tutumu 80 mln. $m^3$ olan digər su anbarları da qalmışdır. Bunların arasında 1964-cü ildə tikilən Xaçınçay su anbarı, 1965-ci ildə tikilən Qanlıgöl su anbarı, 1977-ci ildə tikilən Arpaçay su anbarı, 1962-ci ildə tikilən Ağdamkənd su anbarı və 160-dan çox su deposu da vardır ki, onlar da real təhlükə mənbəyinə çevrilmişdir. Zəngilan rayonunda olan sututarlar da işğal altındadır və Azərbaycan tərəfi bunların istifadəsindən məhrumdur.

Azərbaycan ərazisində Zəngilan rayonunun Şərikan kəndinin qarşısından axan Oxçuçay Ermənistan ərazisində yerləşən Qacaran mismolibden, Qafan mis filizsaflaşdırma kombinatlarının kimyəvi çirkli suları və Qafan-Qacaran şəhərlərinin (o cümlədən kəndlərin, xəstəxanaların, kənd təsərrüfatı obyektlərinin) bioloji suları ilə (zərərsizləşdirilmədən) çirkləndirilir. Bu da çay hövzəsini "ölü zonaya" çevirmişdir. Çayın Azərbaycan ərazisinə düşən yatağının 43 kilometri, su toplayıcı sahəsinin isə 455 $km^2$-i daim çirklənməyə məruz qalır. Nəticədə çay suyunda mikroflora - fauna da məhv olmuş, öz-özünü təmizləmə prosesi dayanmışdır.

Digər transsərhəd su axarının - Kür çayının sağ qolu olan Ağstafaçayın çirklənməsinin əsas səbəbi də Ermənistanın İcevan və Dilican yaşayış məntəqələrindən, sənaye müəssisələrindən buraya ildə 1 milyon $m^3$ tullantının axıdılmasıdır. Nəticədə çayda fenolların miqdarı normanı 35-45 dəfə üstələmişdir. Onun üzərində tikilmiş su anbarı isə Azərbaycanın Şimal-Qərb bölgələrinin əhalisi üçün ciddi təhlükə mənbəyidir.

Qərbdən şərqə axan Xonaşen çayı onun 200-300 metrliyində yerləşən Xocavənd rayonunun mərkəzi xəstəxanasının çirkab suları və tullantıları, eləcə də həmin çayın 200 metrliyində və həmin ərazidə yerləşən donuzçuluq və maldarlıq kompleksinin tullantılarının həmin çaya tökülməsi nəticəsində çirkləndirilir. Qeyd etmək lazımdır ki, işğal olunmuş ərazidən keçən bu çayın fermerlər tərəfindən qarşısının kəsilməsi nəticəsində kiçik göl əmələ gəlmişdir. Həmin su mənbəyi bu ərazidə yeganə su mənbəyidir ki, oradan həm içməli su kimi, həm də müxtəlif məqsədlər (əkin sahələrinin, heyvanların suvarılması və s.) üçün istifadə edilir. Həmin su mənbəyindən götürülmüş ekoloji-sanitar nümunələrdə mikrobların normadan dəfələrlə çox olması müəyyənləşdirilmişdir. Əsasən yağıntılar zamanı sellər nəticəsində daha çox artan suyun müqabilində çay daha da çirkləndirilir və çayın suyu axaraq Orcenikidze adına kanala tökülür.

Dağlıq Qarabağ və ətraf ərazilərdə su hövzələrinin çirkləndirilməsi artıq adi hal almışdır. Hətta Ermənistanın dövlət statistika orqanları işğal altındakı Azərbaycan ərazilərində su hövzələrinə atılan zərərli maddələrin miqdarı barədə çəkinmədən məlumat yayırlar. Aşağı Veysəlli yaşayış məntəqəsi və Ağburun yaşayış məntəqəsi istiqamətində axan Qarasu çayı ermənilər tərəfindən çirklənməyə məruz qaldığı üçün məişətdə istifadə edilməsi tamamilə qeyri-mümkündür. Füzuli rayonunun ərazisindən axan Köndələnçay və Quruçayın suyundan istifadə etmiş əhalinin bədənində dəri xəstəliklərinin yaranması faktları müşahidə edilmiş və həmin çayların ermənilər tərəfindən çirkləndirilməsi müxtəlif xəstəliklərin yaranmasına səbəb olmuşdur.

Qərbdən şərqə axan digər çay - Qarqar çayı əsasən yağışlar və qar suları hesabına qidalanır və Ağdam, Əsgəran, Xankəndi və digər yaşayış məntəqələri yaxınlığında müxtəlif mənşəli tullantılarla çirkləndirilir. İşğal olunmuş ərazilərin hazırkı ekoloji durumu haqqında heç bir informasiyanın olmaması çox böyük çətinlik yaradır. Bu ərazilərə nəzarət edən Ermənistan oradakı real ekoloji vəziyyəti qəsdən gizlədir və ona görə həmin vəziyyət haqqında yalnız ümumi mülahizələr söyləmək mümkündür.

Azərbaycan Respublikasının hidrometeoroloji şəraitinin öyrənilməsində, xüsusən meteoroloji proqnozlarda, su ehtiyatlarının qiymətləndirilməsində işğal altında qalan ərazidə hidrometeoroloji müşahidələrin aparılmasının olduqca böyük əhəmiyyəti vardır. Bu ərazidə uzunmüddətli müşahidə stansiyalarına malik Xankəndi, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Füzuli kimi meteoroloji stansiyalarda, Tərtərçayda Vaquaz, Suqovuşan, Sərsəng su anbarında Umudlu, Xaçınçayda Vənkli, Qarqarçayda Ağa körpü, Köndələnçayda Qırmızıbazar, Zabuxçayda Minkənd, Zabux, Həkəriçayda Laçın, Səlvə, Oxçuçayda Sayıflı kimi hər cür avadanlıqlarla təchiz edilmiş son model radiohidrometeoroloji stansiyalar olub və işğal nəticəsində 17 ədəd hidroloji məntəqədə hidrometeoroloji müşahidələr dayandırılmış və yaradılmış baza məhv edilərək sıradan çıxarılmışdır. Hidroloji məntəqələrdə hidrometeoroloji müşahidələrin məcburi dayandırılması ərazinin hidrometeoroloji şəraitinin öyrənilməsinə imkan vermir. İşğal altında olan ərazilərdə qalmış hidrometeoroloji müşahidə stansiyaları və mövcud olmuş infrastrukturun qiymətləndirmə tarixinə bazar dəyəri ilə hesablanmış və dəymiş zərərin həcmi 7 703 200 manat civarındadır.

Ermənistanın və Dağlıq Qarabağın separatçı rejiminin hidrosiyasətində işğal altında olan Kəlbəcər və Laçın rayonlarının su ehtiyatları strateji əhəmiyyətə malikdir. Ermənistan statistikləri gələcəkdə qondarma "Dağlıq Qarabağ Respublikası" əhalisinin 200 min nəfərə çatacağına ümid edərək, kənd təsərrüfatı sahəsində və məişətdə işlədilmək üçün illik şirin su tələbatının 365 milyon $m^3$ həcmində olacağını proqnozlaşdırmışdı. Bu isə Sərsəng su anbarının ehtiyatlarından 59 faiz çoxdur. Təsadüfi deyil ki, rəsmi Yerevanda Kəlbəcər və Laçın rayonlarının erməni işğalından azad olmasını son nəticədə qondarma rejimin labüd süqutu və hidrosiyasətdə Azərbaycan tərəfinin təşəbbüsü ələ alması kimi dəyərləndirirlər. Qondarma "Dağlıq Qarabağ Respublikası" prezidenti aparatının informasiya idarəsinin rəisi David Babayan "Dağlıq Qarabağ münaqişəsi kontekstində Ermənistan Respublikasının və "Artsax"ın su təhlükəsizliyi problemi" məqaləsində bu ehtimal barədə yazır: "Bu gün Dağlıq Qarabağın içməli su ilə təmin olunması kontekstində Kəlbəcər və Laçın rayonları müstəsna əhəmiyyətə malikdirlər. Bütövlükdə, Dağlıq Qarabağ Respublikasının mövcudluğu və onun su təhlükəsizliyi həmin ərazilərin statusundan asılıdır. Əgər Azərbaycan yenidən bu rayonlara yiyələnərsə, nəinki DQR, eləcə də Ermənistan fəlakətlə üzləşəcəkdir. Çünki Ermənistanın əsas şirin su mənbəyi olan Göyçəgölünü qidalandıran Arpa və Bərgüşad çaylarının mənbəyi bu rayonlardadır".

Ermənistan tərəfindən ekoloji terror aktının növbəti hədəfi Azərbaycan Respublikasının işğal olunmuş və ermənilərin hərbi hissələri yerləşdirilmiş Gülüstan və Talış kəndlərindən keçən, mənbəyini Murov dağından götürən İnciçay olmuşdur. 19 noyabr 2010-cu il tarixində İnciçayda kəskin çirklənmə müşahidə edilmişdir. Belə ki, Tapqaraqoyunlu kənd sakinləri tərəfindən onların yeganə su mənbəyi olan İnciçayda gündüz saat 14:00-15:00 radələrindən başlayaraq çay suyunun qatı köpüklə axdığı müşahidə olunmuş və bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 13 saylı ərazi ekologiya və təbii sərvətlər şöbəsinə (Goranboy, Naftalan, Samux, Daşkəsən, Göygöl) məlumat verilmişdir. Ekoloji vəziyyətin qiymətləndirilməsi üçün nazirliyin mütəxəssislərindən ibarət operativ qrup yaradılmış və qrup tərəfindən qısa müddət ərzində həmin su obyektində birbaşa mobil cihazlar vasitəsilə ölçmə işləri görülmüşdü. Götürülmüş su nümunələrində zərərli kimyəvi maddələr üzrə nazirliyin mərkəzi analitik laboratoriyasında analizlər aparılmış və nəticədə çay suyunun keyfiyyətinin ciddi dərəcədə pisləşməsi qeydə alınmışdı. Təhlillər göstərir ki, hidrokarbonatlı su qrupundan olan İnciçayın suyunda hidrogen göstəricisi kəskin enərək qələvi mühitdən turş mühitə keçmiş, suyun oksigen rejimi xeyli pozulmuşdur. Zərərli çirkləndiricilərdən olan səthi aktiv sintetik üzvi maddələrin (detergentlərin), azot birləşmələrinin, əsasən də ammonium və metal birləşmələrinin miqdarı normadan dəfələrlə çox olmuşdur.

Düşmən tərəfindən işğal edilmiş ərazidə yüzlərlə müxtəlif tərkibli mineral sulu bulaqlar Azərbaycan mineral sularının ümumi geoloji ehtiyatlarının 39,6 faizini təşkil edir. Ərazi, xüsusilə Şuşa, Laçın, Kəlbəcər rayonları mineral suların çox böyük ehtiyatlarına malikdir. Laçın-Kəlbəcər bölgəsində 63 bulaq İstisu (Kəlbəcər rayonu) və Ilıqsu (Laçın rayonu) növlərinə bölünür. Bu sular tərkibinə, keyfiyyətinə və müalicəvi xüsusiyyətinə görə dünya şöhrətli "Karlovı-Varı", "Narzan", "Kislovodsk", "Jeleznovodsk" kimi sulardan heç də geri qalmır, hətta bəzi xüsusiyyətlərinə görə onları üstələyir. Kəlbəcər rayonu ərazisində yerləşən mineral sular özlərinin əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir. Bu mineral sular həm xarici, həm də daxili xəstəliklər üçün müalicəvi xüsusiyyətlərə malikdir. Odur ki, İstisu bulağı üzərində 80-ci illərdə iri kurort və mineral su doldurma zavodu tikilmişdi. Həmin zavod sutka ərzində 800 min litr su istehsal edirdi. Şuşa şəhərinin 17 km-lik məsafəsində yerləşən Turşsu mineral bulağı vasitəsilə müxtəlif daxili xəstəliklər müalicə olunurdu. Turşsu mineral bulağından kəmər vasitəsilə Şuşa şəhərinə su verilirdi. Həmçinin işğal altında qalan ərazilərdəki Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Canlıgöl, Qaragöl, Alagöl, İşıqlı Qaragöl kimi təbii su hövzələrinin bilərəkdən çirkləndirilməsi gələcəkdə Azərbaycan Respublikası üçün əlavə ekoloji problemlərin yaranmasına səbəb olmuşdur.

Ermənistanın işğal etdiyi Azərbaycan Respublikası ərazilərində təbiətə vurduğu zərərlər bunlarla bitmir. Ermənistan işğal etdiyi Azərbaycan Respublikası ərazilərində 2 qoruq, 4 yasaqlıq və bir çox qiymətli təbii-tarixi abidələri zəbt etmişdir. Bunlar Bəsitçay dövlət qoruğu, Qaragöl dövlət qoruğu, Laçın, Qubadlı, Daşaltı, Arazboyu yasaqlıqlardır. Bundan başqa, 269 min hektar meşə sahəsi və 6 geoloji obyekt məhv edilmişdir. İşğal zonasında qalan qoruq və yasaqlıqlar çox bərbad vəziyyətdədir. Füzuli rayonu yaxınlığında Ərgünəş adlanan yerdə ermənilər tikinti aparmaq məqsədi ilə meşə sahəsini tamamilə məhv etmiş, Hadrut və Tuğ arasında yol çəkmək üçün bu ərazidə olan qiymətli ağacları kəsmiş və həmin ağacların bitki aləminə ziyan vurmuşlar. Prezident İlham Əliyevə 2006-cı ilin noyabr ayında dünyada çox böyük nüfuza malik Mixael Zukkovun ali mükafatı təqdim edilərkən cənab Prezident işğal olunmuş ərazilərimizdəki ekoloji vəziyyəti şərh edərək demişdir: "Ərazimizin 20 faizi Ermənistanın işğalı altındadır və uzun illər ərzində o ərazilərdə ekoloji vəziyyət çox acınacaqlıdır. O torpaqları zəbt edən işğalçı qüvvələr nəinki bizim tarixi, mədəni, dini abidələrimizi darmadağın, yerləyeksan etmiş, onlar bizim təbiətimizə də qəsd etmişdilər".

Ermənistanın bəşəriyyətə və insanlığa qarşı yönələn terror siyasəti Azərbaycan Respublikasının hidromühitinə ciddi təhlükə yaratmışdır. Kür və Araz çaylarının çirkləndirilməsi, Azərbaycan Respublikasının işğal altında olan mineral bulaqlarının dağıdılması, meşə sahələrinin yandırılaraq məhv edilməsi, mineral və xammal ehtiyatlarının qanunsuz mənimsənilməsinə səbəb olan işğalçılıq aktı Ermənistanın dövlət siyasətinə çevrilmişdir. Ermənistanın təbiətə və təbii sərvətlərə mənfi münasibəti XXI əsrdə daha da artaraq ən yüksək həddə çatmışdır. Ümumiyyətlə, Ermənistanın işğalı altında olan ərazilərdə vahid ekosistemin dağılması Cənubi Qafqazda böyük fəlakətin başlanğıcını qoydu. Təəssüf ki, işğalçı dövlətin beynəlxalq hüquq normalarına zidd fəaliyyəti beynəlxalq qurumlar tərəfindən nəinki nəzarətsiz qalmış, həmçinin dünya dövlətləri bu cür qeyri-insani davranışa laqeyd münasibət göstərirlər.

Ancaq artıq vəziyyət dəyişib. Azərbaycan son hərbi əməliyyatlarla Ermənistanın su ehtiyatlarımıza qarşı ekspansiyasını da iflasa uğradır. Beləliklə, Ermənistanın hidroterror siyasəti də məhv edilir.

***Yeganə BAXŞIYEVA,***
***AMEA Qafqazşünaslıq İnstitutunun elmi işçisi***

Ziyalı sözü

# Beynəlxalq birlik erməni faşistlərinə "dur" deməlidir



Tarixi Azərbaycan ərazilərində özlərinə dövlət quran ermənilərin son iki yüz il ərzində havadarlarının hərtərəfli dəstəyi ilə qonşu xalqların torpaqlarına göz dikməsi artıq dünyaya məlumdur. 1988-ci ildən bugünədək müxtəlif təxribat və terrorlarla Azərbaycanın dövlət sərhədlərini pozaraq ərazilərini işğala məruz qoyan təcavüzkarlara nədənsə beynəlxalq birlik "dur" demədi. Nəticəsi isə göz qabağındadır: harınlıq o dərəcəyə çatdı ki, Azərbaycan Ermənistanın təxribatlarının qarşısını almaq üçün ona layiqli cavab verməyə məcbur oldu.

Bu ilin iyul ayından başlayan əks-hücumla Ermənistanın hərbi birləşmələrinin geri oturdulması nəticəsində 30 ilə yaxındır ki, Azərbaycanın işğal altında qalan ərazilərinin bir hissəsi azad edildi. Sülh danışıqlarını dalana dirəyən Ermənistan bununla da nəyə qadir olduğunu təsdiqlədi.

Əlbəttə, dövlət başçısı, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti ilə Milli Ordumuzun müzəffər yürüşü erməni qüvvələrini darmadağın etməkdə, düşmən isə nəinki illərdi möhkəmləndiyi strateji məntəqələri, həm də hərbi silah-sursatı, hətta ağır artilleriya qurğularını atıb qaçmaqdadır. Bunu görən Ermənistanın baş naziri N.Paşinyan havadarlarına, dünyanın güc strukturlarına, sülhyaratma missiyası daşıyan, lakin fəaliyyətləri dövründə münaqişənin həllində bir addım belə irəli getməyən ATƏT-in Minsk qrupuna yalvarmağa, atəşi dayandırmaqda onların imkanlarından yararlanmağa cəhd göstərdi.

Daim sülh danışıqlarına sadiqliyini göstərən Azərbaycan xalqı və dövlətinin başçısı fitnəkar, hiyləgər düşmənin məkrli niyyətlərini yaxşı bilir. Növbəti dəfə ermənilərə sülh üçün son şans verən Azərbaycana qarşı yeni hücum taktikası seçən işğalçı Ermənistan bu imkanı da itirmiş oldu. Qədim Gəncəni, onun dinc sakinlərini, xüsusən də qocaları, uşaqları, qadınları raket atəşinə məruz qoyan Ermənistan bununla həm arxalandığı strateji müttəfiqini, həm də dünyanı aldatdığını təsdiqlədi.

Azərbaycan ziyalıları və vətəndaş cəmiyyətinin üzvləri bununla bağlı bir sıra beynəlxalq nüfuzlu təşkilatlara müraciət ünvanladı. Həmin müraciəti imzalayanlardan biri kimi demək istərdim ki, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi heç bir beynəlxalq norma və prinsipə əməl etməyərək, Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozur. Dinc əhalini, çoxsaylı evləri, mülki obyektləri, təsərrüfat təyinatlı məntəqələri hədəfə alır, mülki vətəndaşlara qarşı cinayətlər törədir. Əhalinin kompakt olduğu məntəqələr, rayon və kənd mərkəzləri, mülki infrastruktur obyektləri, xəstəxanalar, tibb məntəqələri, məktəb binaları və uşaq bağçaları hədəf seçilir.

XXI yüzilliyin başlanğıcında yüksək sürətlə inkişaf edən mədəniyyət, elm, texnologiyanın son nailiyyətlərinin bəşəriyyətin sülh və əmin-amanlığına xidmət etməsi fonunda Ermənistan hələ də orta əsrlər düşüncəsinə hakim olan torpaq işğalı və ərazi iddialarından əl çəkmir, günün reallıqlarını dərk etmir. Bax bu, dəhşətli bir haldır.

Azərbaycan ziyalılarının, həmçinin ictimai təşkilatların, eləcə də mövqeyindən və baxışlarından asılı olmayaraq, siyasi partiyaların rəhbərlərinin imzaladığı müraciətdə deyilir: "...1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrin icra olunmasını, Ermənistan silahlı qüvvələrinin dərhal və qeyd-şərtsiz olaraq Azərbaycanın ərazisini tərk etməsini, 1 milyon məcburi köçkünün yaşayış yerlərinə qayıtması üçün şərait yaradılmasını tələb edirik..."

***Azərpaşa NEMƏTOV,***
***Azərbaycan Teatr Xadimləri İttifaqının sədri,***
***Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktoru,***
***Xalq artisti***

# Erməni faşizminin hüdudsuz olduğu bir daha təsdiqləndi

Erməni işğalçıları tərəfindən sentyabrın 27-dən başlanan müharibədə mülki əhali arasında da çox sayda ölənlər və yaralananlar var. Humanitar atəşkəs elan olunmasına baxmayaraq, ermənilərin davam etdirdiyi savaşda mülki obyektlərə, əhalinin şəxsi mülkiyyətinə ziyan dəyməkdə davam edir. Azərbaycan Ordusunun azğınlaşmış düşməni yerində oturtmaq, dinc əhalinin qətlinə yol verməmək üçün hərbi əməliyyatlar keçirməkdən savayı çıxış yolu qalmır.





Ordumuzun endirdiyi dəqiq zərbələr nəticəsində düşmən tərəfi böyük itki verərək işğal etdiyi torpaqlarımızdan geri çəkilir. Azərbaycan əsgəri azad etdiyi torpaqlara üçrəngli bayrağımızı sancır. Digər tərəfdən, ordumuz cavab tədbirləri görərkən son dərəcə ehtiyatla yalnız döyüş nöqtələrinə zərbələr endirir.

Bununla Azərbaycan əsgəri düşmən tərəfdəki mülki əhalini qoruyur. Elə bunun nəticəsidir ki, ermənilər "dinc əhalinin kütləvi şəkildə qətl edilməsi faktı"nı sübut edə bilmirlər. Səbəbi çox sadədir. Azərbaycan əsgəri həm də nümunəvi əxlaq daşıyıcısıdır. Bu əxlaq uşağı, qadını, qocanı, dinc insanları incitməyi özünə rəva görməyən bir mentalitet, mənəviyyatdır. Döyüşlər zamanı yaxınları tərəfindən atılan yaşlı erməni qadınına Azərbaycan əsgərinin göstərdiyi humanist münasibəti bütün dünya gördü. Bu münasibəti heç cür birinci Qarabağ döyüşləri zamanı ermənilərin əsir götürdükləri azərbaycanlı qadınlara, uşaqlara və qocalara qarşı törətdikləri vəhşiliklərlə müqayisə etmək mümkün deyil.

Bəli, bu gün erməni işğalçılarının nə insani, nə də hərbi-siyasi əxlaqından danışmaq olar. Əks halda bütün dünyanın gözü qarşısında Rusiyanın vasitəçiliyi ilə humanitar atəşkəsin reallaşmasına imza atandan az sonra Azərbaycanın ikinci böyük şəhərinə raket tuşlayaraq dinc əhalini qətlə yetirməzdilər. N.Paşinyan bu terror aktını törətməklə əllərini növbəti dəfə gəncəlilərin qanına batırmış oldu. Bu qanı isə ona nə Azərbaycan xalqı, nə də Ordusu bağışlayacaq.

Ermənilərin bu terror əməlində digər məqam. Həmişə öz xalqına yalan danışıb onu yanlış yola sövq edən siyasətçilər görürdülər ki, humanitar atəşkəs onların xeyrinə işləməyəcək. Belə ki, Qarabağ savaşında xalqı itkilərinin az olması ilə aldadan Ermənistanın hərbi-siyasi rəhbərliyi ölkəyə kütləvi şəkildə erməni əsgərlərinin cəsədlərinin gəlməsində təbii ki, maraqlı ola bilməzdi. Bu, indiyədək rəsmi informasiya mənbələrinin apardığı Azərbaycan Ordusuna "sarsıdıcı zərbələr" endirən, "qələbə qazanan" təbliğatının boş olduğunu göstərəcəkdi. Üstəlik, cəsədlər Paşinyan və onun iqtidarının sonunu yaxınlaşdıra bilərdi. Elə bu səbəblərə görə də atəşkəsi pozub erməni əsgərlərinin cəsədlərinin aparılmasına mane olmaq lazım idi.

Bir sözlə, Ermənistan rəhbərliyinin birbaşa əmri ilə bu ölkənin ərazisindən oktyabrın 11-də gecə saatlarında xalqımıza qarşı törədilən növbəti terror aktı cəbhədə olan acı məğlubiyyətlərini gizlətməyə hesablanıb. Respublika Baş Prokurorluğunun açıqladığı rəsmi məlumata görə, bu vandal akt sayəsində Gəncənin mərkəzində yerləşən çoxmənzilli yaşayış binalarının raket atəşinə tutulması nəticəsində 10 nəfər həlak olub, 34 nəfər yaralanıb. Bu fakt bir daha dünyaya erməni vəhşiliyinin hüdudsuz olduğunu nümayiş etdirir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



## Arxa cəbhə



# Abşeronlular qələbəmizi yaxınlaşdırmaq üçün səylərini əsirgəmirlər

Xırdalana gəlişimiz Ermənistan ordusunun Abşeronun Pirəkəşkül kəndinə raket atdığı günə təsadüf etmişdi. Rayonda böyükdən-kiçiyə hər kəs düşmənin bu günlərdə mülki əhalini hədəfə götürərək törətdiyi cinayətdən hiddətə gəlmişdi. Lakin hər kəsin simasında məğrurluq vardı, çünki torpaqlarımızın azadlığı uğrunda başlanan Vətən müharibəsi abşeronluların ürəyincədir. Söhbət etdiyimiz hər bir abşeronlu Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun tezliklə işğal altında olan bütün torpaqlarımızı azad edəcəyinə əminliyini ifadə edirdi.





## Milli həmrəyliyimizin təsdiqi

Abşeronlular torpaqlarımızın azadlığı uğrunda başlanan Vətən müharibəsində də əsl nümunə ortaya qoyublar. Hələ Ermənistanın iyul ayında törətdiyi təxribatdan sonra neçə-neçə rayon sakini Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinin Abşeron rayon şöbəsinə müraciət edib. Gənclər, Qarabağ qaziləri, idmançılar, ehtiyatda olan hərbçilər könüllü kimi qeydiyyatdan keçiblər.

Bu günlərdə isə onların bir dəstəsi könüllü şəkildə ordu sıralarında xidmətə yola düşdü. Abşeronda onu da öyrəndik ki, bir çox rayon sakini döyüşən əsgərlərimizə dəstək olmaq, onlara qida və geyim çatdırmaq üçün müvafiq orqanlara müraciət edib. Hətta onların bir qismi artıq şəxsi avtomobillərinə isti geyim dəstləri yığaraq cəbhə bölgəsinə yola düşüb.

Bəli, həssas günlərdə hər kəs ordumuzun, əsgərimizin yanında olmaq, böyük Qələbəyə öz töhfəsini vermək istəyirdi. Bu mənada Xırdalan şəhərində gördüklərimiz və eşitdiklərimiz Abşeron rayonunun timsalında milli həmrəyliyimizin, Azərbaycan ictimaiyyətinin Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməsinin təsdiqidir.

## Rayonun inkişafı çoxşaxəlidir

Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycan möhtəşəm uğurlara nail olub. Bu uğurlar yalnız iqtisadi sfera ilə tamamlanmayıb, paralel şəkildə bütün sahələri əhatə edir. Sözsüz ki, nailiyyətlərin kökündə dayanan əsas amil Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasətdir. Bu siyasətin həm davam etdirilməsi, həm də dövrün tələblərinə uyğun məzmun və keyfiyyətcə yenilənməsi nəticəsində ölkəmizin dinamik tərəqqisi, sosial-iqtisadi yüksəlişi təmin olunub, Azərbaycan regionun lider dövlətinə çevrilib.

Azərbaycanın inkişafını səciyyələndirən əsas faktorlardan biri regionların yüksəlişidir. Bu mənada regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının icrasının böyük əhəmiyyəti var. Dövlət proqramları ölkəmizin bütün şəhər, qəsəbə və kəndlərinin simasının tanınmaz dərəcədə dəyişməsinə, nəhəng infrastruktur layihələrinin həyata keçirilməsinə, dünya standartlarına uyğun magistral yollar çəkilməsinə, körpülər salınmasına, ən müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə gətirib çıxarıb.

Respublikamızda aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində ölkənin bütün bölgələri kimi, Abşeron rayonunun da hərtərəfli inkişafı üçün böyük işlər görülüb və onlar yüksək əzmlə davam etdirilir. Real mənzərə Abşeronun ölkənin əsas inkişaf və quruculuq ünvanlarından biri olduğunu göstərir. Prezident İlham Əliyevin birbaşa təşəbbüsü və qayğısı sayəsində son illər rayon ərazisində mühüm infrastruktur layihələri həyata keçirilib, möhtəşəm tikililərin təməli qoyulub və onlar uğurla başa çatdırılıb. İstifadəyə verilən və yenidən qurulan səhiyyə və təhsil müəssisələri, uşaq bağçaları, yollar, yol ötürücüləri və qovşaqları, idman qurğuları, parklar, inzibati binalar Abşeronun simasını tamamilə dəyişib. Bu dövrdə həm ayrı-ayrı dövlət proqramlarından, həm yaradılmış azad sahibkarlıq mühitindən irəli gələrək rayonda çoxsaylı xidmət və istehsal sahələri fəaliyyətə başlayıb.





Xırdalanda dövlət proqramlarında qarşıya qoyulan vəzifələrin sürətlə və uğurla həyata keçirilməsinin şahidi olduq. Xırdalan şəhəri də daxil olmaqla, Abşeronun hər guşəsində dinamik quruculuq və abadlıq işləri davam edir. Qısa müddət ərzində bir sıra işlər yüksək keyfiyyətlə başa çatdırılıb.

Xırdalandan söz düşmüşkən, qeyd edək ki, şəhər son illər sürətlə inkişaf edib. Xüsusən şəhər adı almasından sonra bu statusa uyğun olaraq dəyişib, müasirləşib. Cəmi bir neçə il ərzində burada onlarca yeni inzibati və hündürmərtəbəli yaşayış binaları inşa olunub. Əhalinin istirahətinə xidmət edən parklar salınıb. Küçələrdə gözoxşayan dayaqlar üzərində quraşdırılmış gecə işıqları, ictimai binaların, fərdi evlərin, xidmət obyektlərinin fasadlarının milli ornamentlər və müasir üzlük materialları ilə işlənməsi şəhərin ümumi mənzərəsinə xüsusi gözəllik verir. Burada inşa olunmuş yüksəkmərtəbəli yaşayış evləri, inzibati binalar, nəfis layihələr əsasında tikilib istifadəyə verilmiş sosial obyektlər, ticarət, iaşə və məişət xidməti müəssisələri şəhərin möhtəşəmliyini, müasirliyini əks etdirir.

Abadlıq işləri də davam edir. Belə ki, hazırda şəhərin 27-ci məhəlləsində 5 çoxmərtəbəli binanın fasadında aparılan təmir işləri tamamlanmaq üzrədir. Tikinti işlərinin böyük hissəsi artıq sona çatdırılıb. Binaların bloklarının girişi, qapıları və pilləkənləri təmir olunaraq sakinlərin istifadəsinə veriləcək. Bundan əlavə, məhəllədə yerləşən binaların həyətləri abadlaşdırılır, şəhərin müasir görkəminə uyğun oturacaqlar qurulur, insanların asudə vaxtlarını keçirmək üçün hər bir şərait yaradılır. Bu məqsədlə əraziyə baxış keçirən Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova sakinlərlə də görüşüb, onların təkliflərini dinləyib.

Ümumiyyətlə, Abşeronda həyata keçirilmiş çoxşaxəli işlər təkcə kəmiyyətinə görə deyil, həm də keyfiyyət göstəricilərinə görə fərqlənir. Rayon rəhbərliyi üzərinə düşən məsuliyyəti düzgün dəyərləndirməklə fəaliyyətini dövlət başçısı İlham Əliyevin yeritdiyi çevik və səmərəli inkişaf strategiyasının mahiyyətinə uyğun qurmağa, idarəetmədə mütərəqqi prinsipləri tətbiq etməyə, qarşıda duran vəzifələri dəqiq müəyyənləşdirərək onların icrasına vaxtında nail olmağa çalışır. RİH başçısı İ.Gülməmmədovanın sözlərinə görə, Prezident İlham Əliyevin apardığı siyasətin mahiyyətinə uyğun olaraq rayonda qarşıya qoyulmuş başlıca vəzifələr iqtisadi inkişaf, əhalinin sosial rifah halının yaxşılaşdırılması, abadlıq-quruculuq işlərinin daha sürətlə və keyfiyyətlə aparılması, təhsil və səhiyyə müəssisələrinə diqqətin artırılması, xidmət və infrastruktur sahələrində işin müasir dövrün tələblərinə uyğunlaşdırılmasıdır.

Bu səbəblərdən də 2020-ci ilin ötən dövrü rayon üçün uğurlu olub. Qarşıya qoyulmuş bütün vəzifələr yerinə yetirilib, abadlıq və quruculuq işləri aparılıb, yerli büdcənin icrası təmin edilib. Yeri gəlmişkən, hazırda ölkə üzrə qarşıda duran vəzifələrdən biri büdcə xərclərinin səmərəliliyinin artırılması və optimallaşdırılmasıdır. Bu sırada artıq neçə illərdir qarşıya qoyulan vəzifələrdən biri şəhər və rayonların dövlət büdcəsindən maliyyələşməsinin azaldılması və tədricən dayandırılmasıdır. Fərəhli haldır ki, hər il dövlət büdcəsinin tərtibi zamanı dövlət büdcəsinin dotasiyasından imtina edən şəhər və rayonların sayı artır. Abşeron rayonu 10 ilə yaxındır ki, dotasiya almadan bütün xərclərini yerli daxilolmalar hesabına maliyyələşdirir.

## Koronavirusla səmərəli mübarizə həyata keçirilir

Koronavirus pandemiyası bütün bəşəriyyət üçün təhlükə mənbəyi kimi qalmaqda davam edir. Virus ölkəmizdən də yan ötməyib. Lakin həyata keçirilən səmərəli tədbirlər nəticəsində Azərbaycan koronavirusla mübarizədə ən uğurlu nəticələr əldə edən dövlətlərdən biridir. Respublikamızda virusun yayılmasının qarşısının alınması yönündə görülən işlər haqlı olaraq beynəlxalq miqyasda təqdir olunur. COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması ilə əlaqədar tətbiq olunan bütün tədbirlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, hər kəsin sağlamlığının qorunması məqsədilə həyata keçirilir. Bütün bunlar bir daha göstərdi ki, vətəndaşların sosial rifahı Prezident İlham Əliyevin yürütdüyü siyasətin prioritetlərindəndir.

Koronavirus pandemiyasına qarşı mübarizə Abşeronda da fevral ayının sonlarından başlayaraq bu günə kimi qarşıda duran əsas vəzifələrdən biridir. Bu istiqamətdə aparılan işlərdən biri ilk gündən vətəndaşlar arasında maarifləndirici tədbirlər olub. Bu məqsədlə rayon ərazisində mütəmadi olaraq təbliğat işləri aparılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahın qərar və göstərişlərinin icrası, karantin rejiminin tətbiqi, COVİD-19 infeksiyasına qarşı görülməli olan profilaktik tədbirlərlə bağlı əhali maarifləndirilib. Vətəndaşlara koronavirusun təhlükələri, ondan qorunma yolları haqqında məlumat verilib. Sakinlərə şəxsi gigiyena qaydalarına əməl etmək, evdən çıxarkən tibbi maska taxmaq və insanların sıx toplaşdığı yerlərə getməmək tövsiyə edilib.

Bundan əlavə, Abşeron rayonununun hər kənd və qəsəbəsində könüllülərdən, icra nümayəndələrindən və polis əməkdaşlarından ibarət mobil qruplar yaradılıb. Həmin qruplar kənd və qəsəbələrdəki küçələrdə, marketlərdə, eləcə də icazəli şəkildə fəaliyyət göstərən obyektlərdə maarifləndirmə-təbliğat işləri həyata keçirirlər. O cümlədən keçirilən reydlər zamanı satıcı və alıcıların tibbi maskalardan istifadəsinin, sosial məsafənin gözlənilməsinin, marketlərə istehlakçıların məhdudiyyətli girişinin, ticarət obyektlərinin dezinfeksiyaedici vasitələrlə təmin olunmasının zəruriliyi sahibkarların diqqətinə çatdırılır. Bu işlər mütəmadi şəkildə davam etdirilir.

Eyni zamanda ötən aylar ərzində Xırdalan şəhərinin park və xiyabanlarında, prospekt və küçələrində, bank və marketlərin qarşısında, rayonun bütün qəsəbələrində mütəmadi olaraq dezinfeksiya tədbiləri həyata keçirilib. Hazırda Abşeronda epidemioloji durum ciddi nəzarət altında saxlanılmaqla yanaşı, önləyici tədbirlərin reallaşdırılması diqqət mərkəzindədir. Qrafik əsasında Gigiyena və Epidemiologiya Mərkəzinin və mənzil-kommunal istismar sahələrinin əməkdaşları tərəfindən binaların həyətləri, bloklar və liftlər dezinfeksiya olunur.



Sentyabr ayından karantin rejimi ilə əlaqədar tətbiq olunan qadağaların bir qismi aradan qaldırılıb. O cümlədən sentyabrın 15-dən orta məktəblərdə dərslərin başlanmasına icazə verilib. Bu məqsədlə Abşeron Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayon ərazisində fəaliyyət göstərən məktəblərin direktorlarının videokonfransı keçirilib. Koronavirus pandemiyası dövründə açılacaq məktəblərdə Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə və Təhsil Nazirliyinin müəyyən etdiyi qaydaların icrasına həsr olunmuş konfransda ali məktəblərə qəbul üçün keçirilən imtahan zamanı Abşeron təhsilinin yüksək nəticə göstərdiyi bildirilib. Respublika üzrə cəmi 2 abituriyentin maksimum 700 bal topladığı və onun birinin Xırdalan şəhər məktəbinin məzunu olduğu vurğulanıb.

Respublikamızda oktyabr ayının 1-dən isə uşaq bağçalarının fəaliyyətinə icazə verilib. Bununla əlaqədar olaraq rayon ərazisində fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrinin müdirləri ilə də videokonfrans keçirilib. Koronavirus pandemiyası dövründə açılacaq bağçalarda Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə ciddi əməl olunmasının vacibliyi diqqətə çatdırılıb. Məktəbəqədər təhsil müəssisələrinin dezinfeksiyaedici məhlullarla, məsafədən hərarəti ölçən aparatlarla təminatı istiqamətində rayonun aidiyyəti orqanlarına tapşırıqlar verilib.

Onu da qeyd edək ki, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova və Rayon İcra Hakimiyyəti başçısı Aparatının bütün əməkdaşları bir aylıq vəzifə maaşları miqdarında vəsaiti Koronavirusla Mübarizəyə Dəstək Fonduna köçürüblər.

## Yollar əsaslı təmir olunur

Prezident İlham Əliyevin bu il imzaladığı ilk sərəncamlardan biri Abşeron rayonu ilə bağlı olub. Belə ki, dövlət başçısının 9 yanvar 2020-ci il tarixli "Abşeron rayonunun ərazisində avtomobil yolları əsaslı təmiri ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamına əsasən, rayonun Saray, Ceyranbatan, Mehdiabad, Qobu qəsəbələrinin və Masazır kəndinin ərazilərində ümumi uzunluğu 29,2 kilometr olan avtomobil yolları əsaslı təmir olunacaq.

Sərəncama uyğun olaraq, Abşeron rayonunun Masazır kəndində ümumi uzunluğu 6260 metr olan 6, Qobu qəsəbəsində 7840 metr uzunluğunda 5, Ceyranbatan və Saray qəsəbələrində 5950 metr uzunluğu olan 3 və Mehdiabad qəsəbəsində ümumi uzunluğu 6450 metr olan 4 küçənin təmiri nəzərdə tutulur. Məqsəd vətəndaşların gediş-gəlişində xüsusilə payız-qış mövsümündə yaranan problemlərin aradan qaldırılmasıdır. Təmir işlərinin əhatə edəcəyi sahə isə 240 min kvadratmetrdir. Bu işlər əsasən uzun müddət əsaslı şəkildə təmir edilmədən istismar olunan, yol örtüyünün vəziyyəti qənaətbəxş olmayan, həmçinin torpaq əsaslı və çınqıl örtüklü küçə və yollarda aparılır.

Ümumilikdə, həmin kənd və qəsəbələrdə 23 küçə və yolda təmir işlərinin həyata keçirilməsi nəzərdə tutulur ki, onların da bir qismində işlər artıq başa çatıb. Məsələn, Masazır kəndində sərəncama əsasən təmiri nəzərdə tutulan 7 küçədən 2-də işlər tamamlanıb. Mehdiabad qəsəbəsində isə Qara Qarayev, Cəfər Cabbarlı, Əhməd Cavad və Çingiz Mustafayev küçələri yenidən qurulur. Artıq Qara Qarayev küçəsinə asfalt örtüyü çəkilib. Bu küçə Abşeron rayonunda kənd və qəsəbələri birləşdirən yol olduğu üçün onun abadlaşdırılması böyük əhəmiyyət daşıyır.

## Ekoloji məsələlər diqqət mərkəzindədir

Rayonda ətraf mühitin qorunması da daim diqqət mərkəzindədir. İnsanların diqqətini ekoloji problemlərin həllinə yönəltmək, təbiəti qorumağın vacibliyini diqqətə çatdırmaq məqsədilə mütəmadi olaraq müxtəlif tədbirlər, aksiyalar keçirilir. Rayon icra hakimiyyətinin təşkilatçılığı və burada təcrübə keçən könüllülərin və İctimai Şuranın üzvlərinin təşəbbüsü ilə sentyabr ayında baş tutan təmizlik aksiyası belə tədbirlərdən biridir. 40-a yaxın iştirakçı bu aksiya çərçivəsində Qobu-Hökməli yolunun ətrafında səliqə-sahman yaradılmasına ehtiyac olan sahələrdə təmizlik işləri aparıb. Böyük bir ərazi məişət tullantılarından təmizlənib. "Təmiz təbiət, sağlam həyat!" devizi ilə həyata keçirilən layihənin məqsədi insanları təbiətə qarşı daha diqqətli və qayğıkeş olmağa, tullantıları düzgün idarə etməyə çağırmaqdır.

Ekoloji sahədə diqqət mərkəzində saxlanılan məsələlərdən biri də Masazır duz gölünün vəziyyətidir. Məlum olduğu kimi, Masazır və Novxanı kəndləri ərazisində çirkab suların axıdılması üçün 2018-ci ildə 14,6 kilometr uzunluğunda xətt çəkilib və nasosxana inşa olunub. Lakin layihə duz gölünə axıdılan çirkab suların idarə olunmasını tam əhatə etməyib. Belə ki, Masazır kəndi istiqamətində "Zəli gölü" adlanan ərazidən qrunt suları və eləcə də ətraf ərazilərdən digər çirkli sular Masazır duz gölünə daxil olur. Bu ərazi əvvəl çəkilmiş layihə üzrə kanalizasiya xəttinin başlanğıc nöqtəsindən 50-60 metr məsafədə olmalı idi. Lakin suyun səviyyəsinin çəkilmiş xətdən bir neçə metr aşağıda yerləşməsi səbəbindən ərazidən suların yığılması mümkün olmayıb. Mövcud vəziyyətlə bağlı Abşeron RİH tərəfindən "Azərsu" ASC-yə müraciət edilib. Masazır duz gölünün çirkab suları və digər tullantılarla çirklənməsi ilə bağlı 18 sentyabr 2020-ci il tarixdə "Azərsu" ASC, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikası Baş Prokurorluğunun əməkdaşları tərəfindən əraziyə baxış keçirilib. Masazır və Novxanı kəndləri ərazisində 2018-ci ildə çəkilmiş kanalizasiya xətti layihəsinin davam etdirilərək yeni nasosxananın inşa olunması və 50-60 metr məsafədə kanalizasiya xəttinə birləşmənin verilməsi məqsəduyğun hesab edilib. Bu işlər yerinə yetirildiklən sonra Masazır gölündəki ekoloji problemin aradan qalxacağı gözlənilir.

Bütövlükdə, 2020-ci ilin ötən dövrünü Abşeron rayonu üçün uğurlu saymaq olar. Rayonda qarşıya qoyulan bütün vəzifələr icra olunur. Koronavirus pandemiyası ilə əlaqədar karantin rejimi müəyyən çətinliklər yaratsa da, Abşeron ictimaiyyəti əvvəlki dövrlərdə qazandığı uğurların davamlı olması üçün qüvvəsini əsirgəmir.

Bu gün abşeronlular Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında daha sıx birləşiblər. Hər bir abşeronlu müsəlləh əsgərdir, hansı sahədə çalışmasından asılı olmayaraq Vətən müharibəsində qələbəyə öz töhfəsini verməkdədir. Odur ki, qazanacağımız böyük Qələbəyə abşeronluların da öz töhfəsi olacaq.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***









# Beynəlxalq ictimaiyyət Azərbaycanın ədalətli mübarizəsini müdafiə edir



İsveçin Xarici İşlər naziri Ann Linde Türkiyəyə səfər edib. Ankarada ikitərəfli və nümayəndə heyətlərinin iştirakı ilə görüşlərdən sonra Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu və İsveçin Xarici İşlər naziri Ann Linde birgə mətbuat konfransı keçiriblər.

AZƏRTAC xəbər verir ki, nazirlər gündəlikdə duran məsələlər, Azərbaycan hücumları nəticəsində Ermənistanla yaranmış hərbi gərginliklə bağlı fikirlərini bildiriblər.

Mövlud Çavuşoğlu deyib ki, beynəlxalq ictimaiyyət atəşkəs çağırışı etməkdən başqa, Ermənistana Azərbaycanın torpaqlarından çıxmağı tələb edərsə, o zaman onun həqiqətən də problemi həll etmək arzusunda olduğunu görə bilərik.

Ukrayna və Gürcüstan ərazi bütövlüyü məsələsində çağırışların dəqiq olduğunu, Azərbaycana gəldikdə isə bu məsələyə ikili standartla yanaşıldığını bildirən, BMT Təhlükəsizlik Şurasının və ATƏT-in qərarlarının icrasının vacibliyini xatırladan nazir Mövlud Çavuşoğlu bildirib: "Ukrayna və Gürcüstanın ərazi bütövlüyü müzakirə mövzusu olanda ATƏT də daxil olmaqla hamımız deyirik ki, Rusiya və başqa qüvvələr oradan geri çəkilsin. Bunlar Ukrayna və Gürcüstanın torpaqlarıdır. Amma eyni çağırışı Qarabağla bağlı etmirik".

❖ ❖ ❖




Fransa "vasitəçi" qismində Dağlıq Qarabağ münaqişəsində "qərəzsiz" (neytral) qalmalıdır deyən Fransa diplomatiyasının rəhbəri Jan-İv Lö Dryan fransız deputat və merlərinin çağırışını rədd edib.

"1994-cü ildə Rusiya və ABŞ-la birlikdə münaqişənin həlli ilə bağlı götürdüyü mandat Fransanı neytral qalmağa məcbur edir. Fransa iki ölkədən hər hansı birinin tərəfini tutarsa onda qanuniliyini itirəcək".

AZƏRTAC xəbər verir ki, Fransa Xarici İşlər naziri bu fikirləri Milli Assambleyada erməni lobbisinin təsiri altında olan bir qrup deputatın Dağlıq Qarabağın müstəqilliyini tanımaqla bağlı çağırışına cavab olaraq deyib.

Fransanın Ermənistanla ikitərəfli sıx əlaqələrinin olduğunu deyən J.-İ. Lö Dryan 600 minlik erməni lobbisinə ölkəsinin Azərbaycanla da uzun tarixi əlaqələri olduğunu vurğulayıb.

"Əgər biz indi Ermənistanın tərəfini tutsaq, balanslaşdırılmamış mövqe göstərsək, onda Azərbaycanla ikitərəfli əlaqələrimizin keyfiyyətinə xələl gətirər, eləcə də Minsk qrupu çərçivəsindəki rolumuza və böhran içində olan tərəflərə təsirimizi itirərik",-deyə J.-İ. Lö Dryan bildirib.

❖ ❖ ❖

Azərbaycanın Qətərdəki səfiri Rəşad İsmayılov bu ölkənin Milli İnsan Hüquqları Komitəsinin sədri Əli bin Smeyx Əl Marri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, səfir, ilk növbədə, Dağlıq Qarabağ münaqişəsinin tarixi, işğal altındakı Azərbaycan ərazilərində separatçı rejim tərəfindən beynəlxalq humanitar hüquq prinsiplərinə və insan hüquqlarına zidd olan əməllərin törədilməsini diqqətə çatdırıb. Bu xüsusda, həmin ərazilərin dərhal və şərtsiz azad olunması barədə BMT-nin Təhlükəsizlik Şurasının məlum qətnamələri, uzun illər boyu mövcud olan ATƏT-in Minsk qrupunun vasitəçilik fəaliyyətinin bu günədək bir nəticə vermədiyini xatırladıb. Xüsusilə qeyd edib ki, Ermənistanın sentyabrın 27-də həyata keçirdiyi təcavüzü nəticəsində Dağlıq Qarabağ münaqişəsinin aktiv fazaya keçməsinə cavab olaraq ölkəmizin silahlı qüvvələrinin həyata keçirdiyi hərbi əməliyyatlar Ermənistan ərazisində deyil, beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın tərkib hissəsi kimi tanınan torpaqlarda aparılır. Eyni zamanda münaqişə zonasından kənarda yerləşən Gəncənin və ölkəmizin digər şəhərlərinin hədəfə alınaraq yaşayış məntəqələrinə raket zərbələrinin endirildiyi, nəticədə dinc əhali, o cümlədən qadın və uşaqlar arasında ölənlər və yaralananların olması, həmçinin Rusiya Federasiyasının vasitəçiliyi ilə oktyabrın 10-da Moskvada razılaşdırılmış humanitar atəşkəsin Ermənistan tərəfdən kobud surətdə pozulduğu barədə məlumat verib. Bütün yuxarıda sadalananların beynəlxalq insan hüquqları və humanitar hüququn işğalçı Ermənistan tərəfindən pozulması göstəricisinin olduğunu vurğulayaraq bu əməllərin beynəlxalq ictimaiyyət tərəfindən pislənilməsinin vacibliyini söyləyib, müvafiq sənədləri qarşı tərəfə təqdim edib.

Əl Marri verilən məlumata görə, təşəkkürünü ifadə edərək, dost Azərbaycanda hazırda baş verən hadisələri, münaqişə zonasında hərbçilər və mülki əhali arasında itkilər, yaralananlar və insan hüquqlarının pozulmasını narahatlıqla izlədiyini bildirib. O, hazırkı münaqişə durumunda Qətərin və bilavasitə rəhbərlik etdiyi qurumun imkanları daxilində Azərbaycana yardımçı olmağa hazır olduğunu diqqətə çatdırıb.

❖ ❖ ❖



"İran Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq və işğal olunmuş ərazilərin boşaldılması çərçivəsində həllinin tərəfdarıdır".

Bunu İran Xarici İşlər Nazirliyinin sözçüsü Səid Xətibzadə Ermənistan və Azərbaycan arasında atəşkəs rejiminin pozulmasına münasibət bildirərkən qeyd edib.

O deyib: "İran İslam Respublikası son toqquşmalar zamanı Azərbaycan və Ermənistan arasında atəşkəs rejiminin pozulmasından təəssüfləndiyini bildirir, tərəfləri daha təmkinli olmağa dəvət edir. İran həyati əhəmiyyət kəsb edən infrastruktura və yaşayış məntəqəsi olan şəhərlərə raket hücumlarının edilməsini, mülki şəxslərin öldürülməsini qınayır, həlak olanların ailələrinin kədərinə şərik olduğunu ifadə edir".

Münaqişənin beynəlxalq hüquq çərçivəsində həll olunmasının önəmini qeyd edən İran XİN-in sözçüsü bildirib: "İran İslam Respublikası bir daha tərəflərdən atəşkəsə riayət olunmasını, müzakirələrin beynəlxalq hüquqa uyğun, bir-birinin ərazi bütövlüyünə hörmət və işğal olunmuş ərazilərin boşaldılması çərçivəsində davam etməsini istəyir, regionda sülh və münaqişənin daimi həll yolunun əldə olunmasında müzakirələrin bərpa edilməsinin vacibliyini vurğulayır".

❖ ❖ ❖




Xaricdə yaşayan azərbaycanlıların təşəbbüsü ilə "Qarabağ Azərbaycandır!" şüarının bütün dünyada təbliğ olunması kampaniyası davam edir.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Çexiyanın Praqa, Böyük Britaniyanın London, ABŞ-ın Nyu York və Boston şəhərlərindən sonra "Qarabağ Azərbaycandır!" şüarının yazıldığı banner Texas ştatının Hyuston şəhərində nümayiş etdirilib.

Hyuston Amerika-Azərbaycan Mədəniyyət Alyansının təşkilatçılığı ilə "Qarabağ Azərbaycandır!" banneri şəhərin mərkəzində yerləşən avtomagistraldakı körpünün üzərindən asılıb. Bannerin bir neçə saat nümayiş olunması ilə sakinlərin diqqəti Qarabağ məsələsinə cəlb edilib.

❖ ❖ ❖



"BMT Dağlıq Qarabağın azad edilməsi üçün 4 qətnamə qəbul edib. Bu qətnamələrdə göstərilir ki, Dağlıq Qarabağ Azərbaycana məxsusdur".

AZƏRTAC xəbər verir ki, bu sözləri İran İslam İnqilabının Keşikçiləri Korpusu (Sepah) komandanının siyasi məsələlər üzrə müavini general Yadullah Cavani deyib.

O bildirib ki, BMT-nin qətnamələrində Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğal edildiyi göstərilib. Odur ki, Ermənistan bu əraziləri geri qaytarmalıdır. Dağlıq Qarabağ Azərbaycan müsəlmanlarına məxsus torpaqlardır.

General. Y. Cavani onu da diqqətə çatdırıb ki, İran bu münaqişənin sülh yolu və beynəlxalq qanunlar çərçivəsində həllinə tərəfdardır.

❖ ❖ ❖




"Azərbaycanın Gəncə şəhərinə hücum nəticəsində mülki əhali arasında çoxsaylı insan tələfatı son günlər sülhün pozulmasının kədərli kulminasiya nöqtəsi oldu".

AZƏRTAC xəbər verir ki, Almaniya Bundestaqının Xristian-Sosial Partiyasından olan deputatı Nikolas Löbel bu sözləri özünün "Twitter" mikrobloqunda yazıb.

Deputat "Moskvadakı danışıqların regiona daha çox sakitlik gətirməli olduğunu" vurğulayıb.

N.Löbel bu şərhini "Taggeschau.de" nəşrinin onlayn-versiyasında çıxmış "Azərbaycan şəhərinə hücum" sərlövhəli məqaləsi ilə bərabər öz mikrobloqunda yerləşdirib.

❖ ❖ ❖



"Birlik" Voronej vilayəti regional milli-mədəni muxtariyyəti və "Arxangelsk vilayətində Azərbaycan diasporu" təşkilatı müxtəlif ölkələrdə yaşayan soydaşlarımızla birlik və həmrəylik nümayiş etdirərək ölkəmizdə gedən Vətən müharibəsinə öz dəstəyini göstərir.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, təşkilatların dəstəyi ilə Azərbaycanın cəbhə bölgəsində yaşayan sakinlərə, şəhid ailələrinə və Ordumuzun əsgərlərinə yardım kampaniyası təşkil edilib.

Kampaniya çərçivəsində diaspor təşkilatlarını təmsil edən könüllülər Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan insanların ailələrini ziyarət edir, onlara başsağlığı verir və humanitar yardım göstərirlər.

Diaspor rəhbərləri bildiriblər ki, bu humanitar aksiya müharibə sona çatanadək davam edəcək və Azərbaycanın bütün bölgələrini əhatə edəcək.

❖ ❖ ❖



İtaliyanın Milan şəhərində Ermənistanın işğalçı siyasətinə etiraz və müstəqil Azərbaycan dövlətinə dəstək məqsədilə aksiya keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan-İtaliya Gənclər Assosiasiyasının təşkilatçılığı ilə baş tutan tədbirdə Milan şəhərində təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər. Azərbaycan bayrağının dalğalandırıldığı aksiyada "Qarabağ Azərbaycandır!", "Ermənistana inanmayın!", "Ermənistanın təcavüzünə son qoyulsun!", "Gəncə üçün dua edək" şüarlarının yazıldığı plakatlar nümayiş etdirilib.

Tədbirdə çıxış edən Azərbaycan Mədəniyyət Assosiasiyasının sədri Mais Nuriyev işğalçı Ermənistanın ölkəmizə 27 sentyabr hücumundan, Azərbaycan Ordusunun buna cavab olaraq özünümüdafiə və ərazi bütövlüyü hüquqlarını həyata keçirdiyini bildirib. Faşist mahiyyətli dövlətin xalqımıza qarşı törətdiyi vəhşiliklərə, vandalizm aktlarına diqqəti cəlb edən soydaşımız Ermənistan tərəfinin Gəncəni bilərəkdən və xaincəsinə raket atəşinə tutmasını amansız terror aktı kimi qiymətləndirib.

Aksiya iştirakçıları dünya birliyini torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün bərpa edilməsi ilə bağlı Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləməyə çağırıblar.

Eyni zamanda Azərbaycan həqiqətlərini İtaliya ictimaiyyətinə dolğun şəkildə çatdırmaq üçün İtaliya-Azərbaycan Birliyinin rəhbəri Fərid Abbasov və Roma şəhərində yaşayan soydaşımız Məryəm Mehdiyeva "Roma Capitole" radiosunun qonağı olublar. Verilişdə Ermənistanın sentyabrın 27-dən başlayaraq ölkəmizə qarşı hərbi təxribatlar törətdiyi və mülki əhalini raket atəşinə məruz qoyduğu nəzərə çatdırılıb.

❖ ❖ ❖



Ukrayna-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun həmsədrləri Valeri Kolyux və Vladimir Kreydenko Azərbaycan Respublikasının Milli Məclisinə Gəncə şəhərində baş verən hadisələrdən və atəşkəs rejiminin pozulmasından dərindən narahatlıq ifadə edən məktub ünvanlayıblar.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, məktubda ukraynalı deputatlar mülki əhalinin hərbi əməliyyatların tərəfi olmadığını vurğulayaraq, Ermənistan tərəfindən beynəlxalq hüququ pozma cəhdlərini qətiyyətlə pisləyiblər.

Ukraynalı deputatlar mülki əhali arasında yeni itkilərə səbəb ola biləcək münaqişənin daha da genişlənməsinin qəbuledilməz olduğunu və Ukraynanın əvvəlki kimi, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyərək münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduqlarını qeyd ediblər.

❖ ❖ ❖




Finlandiya Azərbaycanlılarının koordinatoru və Finlandiyada yaşayan azərbaycanlıların təşəbbüsü ilə paytaxt Helsinki şəhərində bu ölkə parlamentinin qarşısında, "Ermənistan dövlətinin mülki Azərbaycan əhalisinə təcavüzünə dur deyək" adlı dinc aksiya keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Finlandiyanın Baş Naziri Sanna Marinə, rəhbər Sosial-Demokratik partiyanın parlament qrupunun rəhbərinə və üzvlərinə, Avropa məsələləri və Əmlakın İdarəetmə naziri Tytti Tuppurainenə, Finlandiya parlamentinin İsveç, Yaşıllar partiyalarının rəhbərləri və üzvlərinə, habelə ölkənin Xarici İşlər naziri Pekka Haavistoya müraciət-məktub oxunub.

Məktubda, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın cəbhə bölgəsindən uzaqda yerləşən Gəncə şəhərini və digər yaşayış məntəqələrini ağır artilleriya qurğularından və raketlərdən mütəmadi olaraq atəşə tutması nəticəsində dinc əhali arasında baş vermiş ölüm, yaralanma halları və mülki obyektlərin dağıntılara məruz qalmasına dair kəskin etiraz bildirilib.

Aksiyada Finlandiya Azərbaycanlıları Cəmiyyətinin hüquqşünası Gülzar İsmayıl Finlandiya mətbuatında Dağlıq Qarabağ münaqişəsinin birtərəfli işıqlandırıldığını qeyd edərək, yerli jurnalistlərdə problemin tarixi haqqında kifayət qədər məlumatın olmadığını vurğulayıb.

Daha sonra Finlandiya Azərbaycanlılarının koordinatoru Ülviyyə Cabbarova və Finlandiya Azərbaycanlılarının diaspor fəalı Leylı Hüseynova çıxış edərək, 1993-cü ildə Ermənistanın Dağlıq Qarabağ və ona sərhəd olan 7 rayonu işğal etdiyini və BMT və digər beynəlxalq təşkilatların işğal edilmiş ərazilərin dərhal azad edilməsi haqqında qəbul etdikləri beynəlxalq qətnamə və sənədlərə baxmayaraq Ermənistanın işğalçılıq siyasətini davam etdirdiyini diqqətə çatdırıblar.

Cari il sentyabr 27-dən etibarən Ermənistan ordusunun atəşkəs rejimini kobud şəkildə növbəti dəfə pozduğunu və Azərbaycan Ordusunun düşmənə layiqlı cavab verdiyini qeyd edən çıxışçılar deyib: "Yaranmış vəziyyətdə Azərbaycan Ordusu öz torpaqlarında Ermənistanın işğalçı ordusu ilə müharibə etmək məcburiyyətində qalıb. Bundan sonra oktyabrın 10-da saat 12:00-dən etibarən elan edilən humanitar atəşkəs rejimini Ermənistan tərəfi kobud şəkildə pozaraq oktyabrın 11-də gecə saat 02:00 radələrində Azərbaycanın Gəncə şəhərini raket atəşinə tutması nəticəsində 10 mülki şəxs ölüb, 30-dan çox insan yaralanıb". Qeyd olunub ki, bu addımlarla Ermənistan 1949-cu il Cenevrə konvensiyalarının, 1954-cü il Haaqa Konvensiyasının şərtlərini və beynəlxalq hüququn qəbul edilmiş ümumi normalarını kobud şəkildə pozub.

Natiqlər Finlandiyada yaşayan azərbaycanlılar adından Finlandiya parlamentinə, ATƏT-in Finlandiya üzrə təmsilçisinə, dünya ictimaiyyətinə və beynəlxalq təşkilatlara səslənərək, Ermənistan dövlətinin Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi bu təcavüzü dayandırması, Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını tərk etməsinə daha tutarlı addımlar atmağa çağırıblar.

Qeyd edək ki, tədbirdə ingilis, fin və Azərbaycan dilində "Qarabağ Azərbaycandır!", "Yaşasın Azərbaycan", "Erməni işğalçıları Qarabağı tərk edin" və s. şüarlar səsləndirilib.

❖ ❖ ❖



Azərbaycan Silahlı Qüvvələrinin ərazi bütövlüyümüzü və mülki vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək məqsədilə cəbhədə işğalçı Ermənistan ordusuna layiqli cavab verməsini həzm edə bilməyən erməni lobbisi bütün vasitələrlə ölkəmizə qarşı addımlar atmağa, beynəlxalq ictimaiyyəti çaşdırmağa cəhd göstərir.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bu məqsədlə ABŞ-ın Miçiqan ştatında erməni mənşəli deputat Mari Manukyan tərəfindən hazırlanmış HR 0319 saylı qətnamə ştatın Nümayəndələr Palatasında qeydiyyata alınıb.

Amerika Azərbaycan Şəbəkəsi (USAN) artıq bu qanun layihəsinə etiraz olaraq məktub kampaniyasına başlayıb.

USAN-ın məktubunda qeyd edilir ki, erməni qrupları qanunvericilik orqanlarını oyun meydanları kimi istifadə edərək, ABŞ, Türkiyə və Azərbaycan arasında münasibətlərə xələl gətirməyə çalışırlar. Manukyanın təqdim etdiyi qətnamədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə faktlar təhrif olunub, Ermənistanın təcavüzü və Azərbaycan ərazilərinin işğalı faktı qəsdən göstərilməyib. Qətnamədə işğalçı Ermənistanda və Dağlıq Qarabağın separatçı rejimində baş verənlərə ABŞ-ın milli maraqlarının və xarici siyasətinin pozulması kimi don geyindirmək cəhdi olunur.

USAN hər kəsi Miçiqan ştatının qanunverici orqanına etiraz məktubları və tvitlər göndərməyə, bütün seçkili şəxsləri məlumatlandırmağa və deputat Mari Manukyanın hərəkətlərini pisləməyə çağırış edib.

❖ ❖ ❖




Meksikanın geniş oxucu kütləsinə malik "Excelsior" və "ContraReplica" qəzetlərində səfir Məmməd Talıbovun Dağlıq-Qarabağ münaqişəsi, Ermənistanın son hərbi təcavüz aktı və hazırkı hərbi əməliyyatlarla bağlı müsahibələri dərc olunub.

AZƏRTAC xəbər verir ki, müsahibələrdə ilk olaraq münaqişənin tarixi haqda danışan səfir, bəzi KİV-də deyildiyinin əksinə olaraq, Dağlıq Qarabağın mübahisəli ərazi deyil, Azərbaycanın beynəlxalq qaydada tanınmış və yeddi ətraf rayonla birlikdə 30 ilə yaxındır Ermənistan tərəfindən işğal edilmiş ərazisi olduğunu, bu ərazilərdə yaşayan 1 milyona yaxın azərbaycanlıya qarşı etnik təmizləmə aparılaraq onların doğma yurdlarından qovulduğunu və bu prosesin Xocalı soyqırımı kimi bəşəriyyət əleyhinə cinayətlərlə müşayiət olunduğunu qeyd edib.

Səfir münaqişəyə dair BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş dörd ayrı qətnamənin Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etdiyini, ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq sərhədlərinin toxunulmazılığına dəstək ifadə etdiyini, bu mövqeyin bir sıra digər mötəbər beynəlxalq təşkilatların qəbul etdiyi müvafiq sənədlərdə də öz əksini tapdığını, ancaq Ermənistan tərəfinin bu günədək həmin sənədlərin tələblərinə məhəl qoymamaqla yanaşı, danışıqlar prosesini pozmaq üçün təxribat əməlləri törətməkdən də çəkinmədiyini bildirib.

27 sentyabr tarixindən etibarən Ermənistanın beynəlxalq hüquq və beynəlxalq humanitar hüququn norma və prinsiplərini, habelə 1949-cu il Cenevrə konvensiyalarını kəskin şəkildə pozaraq mülkü əhali və infrastruktura qarşı çoxsaylı artilleriya və raket zərbələri endirdiyini və bu hücumların mülkü əhali arasında qadınlar və uşaqlar da daxil olmaqla tələfata yol açdığını, habelə son günlərdə Azərbaycanın cəbhə xəttindən uzaqda yerləşən şəhərlərini ballistik raketlərlə hədəfə aldığını deyən səfir, bundan sonra Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın növbəti təcavüz aktının qarşısını almaq, dinc yaşayış məntəqələri və mülkü əhalinin təhlükəsizliyini təmin etmək üçün özünümüdafiə hüququndan istifadə edərək və beynəlxalq hüquqa uyğun şəkildə əks-hücum tədbirlərinə başladığını söyləyib.

Ermənistanın son iki il ərzində törətdiyi çoxsaylı təxribat xarakterli əməllərdən danışan səfir, bu xüsusda işğalçı dövlətin silahlı qüvvələrinin iyul ayında Tovuz ərazisindəki hücumlarını, avqust ayında Goranboy bölgəsindəki diversiya əməlini, bu ölkənin baş nazirinin "Qarabağ Ermənistandır" kimi bəyanatlarını, işğal olunmuş ərazilərimizdə qanunsuz məskunlaşdırma apardığını qeyd edərək, bu əməllərin Ermənistanın illərdir yürütdüyü anneksionist siyasətin təzahürü olduğunu, iki həftə öncə başladılmış son təcavüz aktının da bu siyasətin davamı kimi ortaya çıxdığını və Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə, o cümlədən BMT Baş Assambleyası çərçivəsində son çıxışında Ermənistanın bu addımları və Azərbaycana qarşı növbəti hərbi təcavüzə hazırlaşdığı barədə dünya ictimaiyyətinə xəbərdarlıq etdiyini bildirib.

Azərbaycanın 30 ilə yaxın bir müddətdə münaqişənin həlli istiqamətində ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar prosesinə sadiq qaldığını söyləyən diplomat, son iki ildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin daha aqressiv mövqe nümayiş etdirməklə və qeyd olunan təxribat xarakterli əməlləri ilə danışıqlar prosesini tamamilə pozduğunu deyib.

Müxbirin sualına cavab olaraq, münaqişənin Azərbaycan üçün əsla dini əsası olmadığını vurğulayan səfir, eyni zamanda, Türkiyənin də münaqişədəki roluna toxunaraq, Türkiyənin Azərbaycana qardaş ölkə olduğunu, hazırkı münaqişədə ölkəmizə siyasi və mənəvi dəstək göstərdiyini və ümumiyyətlə, regionda bir növ sabitləşdirici rol oynadığını bildirib.

Azərbaycanın suveren ərazilərində Ermənistan silahlı qüvvələrinin qalması və bu ölkənin davamlı təcavüz aktlarının regionda sülh və təhlükəsizliyə qarşı başlıca təhdid olduğunu, daim sülh tərəfdarı olan Azərbaycanın 30 ilə yaxın işğal edilmiş ərazilərinin danışıqlar yolu ilə azad ediləcəyinə ümid etdiyi halda, Ermənistanın bu vaxtdan istifadə edərək danışıqları imitasiya edərək öz işğal faktını daha da möhkəmləndirməyə çalışdığını deyən diplomat, regionda davamlı sülhün bərqərar olmasının yeganə formulunun beynəlxalq düzənə sadiq qalınaraq dövlətlərin ərazi bütövlüyü və suverenliyinin təmin edilməsi, bu xüsusda işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsi və məcburi köçkünlərin geri qaytarılması olduğunu vurğulayıb.

Sonda səfir Azərbaycan xalqının da regionda sülh və təhlükəsizliyin təmin edilməsi üçün işğal olunmuş Azərbaycan ərazilərindən erməni qoşunlarının çıxarılması və BMT TŞ-nin müvafiq qətnamələrinin icra edilməsini tələb etdiyini bildirərək, beynəlxalq ictimaiyyətin hər zamankından daha qətiyyətli mövqe sərgiləməli olduğunu, Ermənistandan mülkü əhalimizə qarşı terror addımlarından əl çəkməyi, bir milyona yaxın azərbaycanlı məcburi köçkünün hüquqlarını bərpa etməyi, beynəlxalq hüquq və beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərinə əməl etməyi və adıçəkilən qətnamələri yerinə yetirməyi tələb etməli olduğunu, əks halda bu tip münaqişələrin qlobal təhlükəsizliyə də təhdid yarada biləcək zəncirvari hadisələrə gətirib çıxara biləcəyini söyləyib.

❖ ❖ ❖




"Ermənistan beynəlxalq hüququ pozur və bu müharibə yalnız iki ölkəyə deyil, bütünlükdə regiona böyük zərər vuracaq".

AZƏRTAC xəbər verir ki, bu fikirlər İndoneziyanın Miraj İnformasiya Agentliyinin oktyabrın 13-də yaydığı məqalədə yer alıb. "Ermənistan-Azərbaycan münaqişəsi: Ermənistan beynəlxalq hüququ pozur" sərlövhəli məqalənin müəllifi Siyasət, Biznes və Beynəlxalq Araşdırmalar Mərkəzinin icraçı direktoru Yasmi Adriansyahdır.

Məqalədə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı narahatlığını ifadə edən müəllif İndoneziya hökumətinin iki ölkənin rəhbərlərinə atəşkəsi bərpa etməyə dair çağırış etməsinin zəruriliyini bildirib.

Yazıda Ermənistanın sentyabrın 27-dən Azərbaycana qarşı yenidən təxribat törətdiyi, Azərbaycan Ordusunun mövqelərinə, mülki şəxslərə və müxtəlif sosial obyektlərə atəş açmaqda davam etdiyi qeyd olunur. İndoneziya və Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvləri olduqlarını xatırladan Y.Adriansyah Cakartanın Bakıya mənəvi dəstək verə biləcəyini vurğulayıb. Deyib ki, bu dəstək Dağlıq Qarabağ bölgəsinə qanunsuz nəzarət edən Ermənistanın təcavüzü ilə üzləşmiş Azərbaycanla bağlı narahatlığımızdan irəli gəlir.

Müəllif qeyd edib ki, COVID-19 pandemiyasının davam etdiyi bir vaxtda dünya Ermənistanın işğalçılıq siyasəti səbəbindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində qanlı müharibənin şahididir.

Y.Adriansyah vurğulayıb ki, iki ölkə arasında humanitar atəşkəs elan olunmasına baxmayaraq, Ermənistan Azərbaycan şəhərlərini raket atəşinə məruz qoyur.

Müəllif apardığı monitorinq nəticəsində Ermənistanın Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı, Orta Qaravənd və Alxanlı, Füzuli rayonunun Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndləri kimi əhalinin sıx məskunlaşdığı ərazilərdə mülki insanları qəsdən hədəfə aldığını aydınlaşdırdığını qeyd edir. Vurğulayır ki, bu, beynəlxalq hüquq normalarının, xüsusilə beynəlxalq humanitar hüququn və Cenevrə Konvensiyasının müvafiq müddəalarının kobud şəkildə pozulmasıdır.

Y.Adriansyah Ermənistanın beynəlxalq humanitar hüquq normalarını, BMT Nizamnaməsini pozduğuna və hərbi cinayətlər törətdiyinə görə mühakimə oluna biləcəyini də əlavə edib.

❖ ❖ ❖



Oktyabrın 13-də Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Monteneqronun bu ölkədə yeni təyin edilmiş səfiri Milorad Şçepanoviç ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, həmkarını Rusiyaya təyinatı ilə əlaqədar təbrik edən Azərbaycanın səfiri, ona diplomatik işində müvəffəqiyyətlər arzulayıb və Rusiyada akkreditə edilmiş diplomatik korpusun duayeni qismində apardığı fəaliyyət barədə ətraflı məlumat verib.

Görüş əsnasında Azərbaycanla Monteneqro arasında ikitərəfli münasibətlərin hazırkı durumundan danışılıb, onların daha da dərinləşdirilməsinin əhəmiyyəti və bunun üçün kifayət qədər potensialın mövcud olduğu vurğulanıb. Qeyd edilib ki, iki ölkənin beynəlxalq səviyyədə sıx əməkdaşlıq edərək bir-birinə lazımi dəstək göstərməsi əlaqələrin yüksələn xətlə inkişaf etməsindən xəbər verir.

Polad Bülbüloğlu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən söz açaraq, onun tarixi, hüquqi aspektləri və nəticələri, hazırda isə Dağlıq Qarabağ bölgəsində işğalçı dövləti sülhə vadar etmək üçün ordumuzun keçirdiyi hərbi əməliyyatlar haqqında həmsöhbətini ətraflı məlumatlandırıb. Ermənistanın təxribatları, cəbhə bölgəsindən kənarda yerləşən şəhərlərdəki yaşayış məntəqələrinin və mülki şəxslərin ağır silahlardan atəşə tutulması barədə məlumat qarşı tərəfin diqqətinə çatdırılıb. Bildirilib ki, Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi cinayətlər dinc əhali arasında xeyli sayda insan tələfatına səbəb olub. Səfir qeyd edib ki, Ermənistan hərbi-siyasi rəhbərliyinin mülki şəxsləri hədəfə alması və beləliklə də humanitar hüququ kobud şəkildə pozması beynəlxalq məsuliyyət yaradır və dünya ictimaiyyəti tərəfindən qınanılmalıdır.

Polad Bülbüloğlunun sözlərinə görə, bugünkü vəziyyət məhz Ermənistanın BMT TŞ-nin müvafiq qətnamələrinə, beynəlxalq regional təşkilatlar çərçivəsində qəbul olunmuş sənədlərin tələblərinə, ATƏT-in Minsk qrupu çərçivəsində on illərlə aparılan danışıqlar zamanı irəli sürülmüş təkliflərə və qrupa daxil olan həmsədr ölkələrinin status-kvonun qəbuledilməzliyi haqda çağırışlarına məhəl qoymadığına, eləcə də işğalçı dövlətin hazırkı rəhbərliyinin məsuliyyətsizliyinə görə yaranıb.

Milorad Şçepanoviç qəbula və verilən məlumata görə təşəkkür edib, ölkəsinin Azərbaycanın ərazi bütövlüyünə dəstək verdiyini xüsusilə vurğulayıb və əməkdaşlıq üçün hər zaman hazır olduğunu bildirib.

Həmçinin görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın haqq savaşı xarici mətbuatda




Alman jurnalist, enerji məsələləri, eləcə də Şərqi Avropa, Mərkəzi Asiya və Cənubi Qafqaz regionu üzrə mütəxəssis Birqit Vetselin internet səhifəsində "Beynəlxalq maraqlar arasında mübarizə: Qarabağ, Ermənistan və Azərbaycan" başlıqlı məqalə dərc olunub (https://www.-birgitwetzel.de/kaempfe-zwischen-internationalen-interessen/).

AZƏRTAC xəbər verir ki, məqalədə vəziyyətin çox təhlükəli olduğu, Dağlıq Qarabağdakı müharibənin beynəlxalq münaqişəyə səbəb ola biləcəyi vurğulanır. Bildirilir ki, sözügedən region beynəlxalq hüquqa əsasən Azərbaycana məxsusdur. Azərbaycan "de fakto" olaraq həmin ərazilər üzrə nəzarətə malik deyildir. Belə ki, bölgə qonşu Ermənistan tərəfindən işğal olunub. Yerli azərbaycanlı əhali 1992-1994-cü illərdəki müharibə dövründə öz yurd-yuvalarından didərgin salınıb. Region, həmçinin strateji əhəmiyyətə malikdir. Azərbaycanın böyük potensialı vardır. Azərbaycan Qərb ölkələrinə böyük həcmdə neft və təbii qaz ixrac edir. Azərbaycanın 3 mühüm boru kəməri Qafqaz ərazisindən keçir. Demək olar ki, tamamlanmış yeni boru kəməri ("Cənub qaz dəhlizi") Azərbaycanın təbii qazını cari ildə Avropaya təchiz edəcəkdir. Qazaxıstan və Türkmənistan neft resurslarını Qafqaz vasitəsilə Qərbə ixrac edirlər. Avropanın, Asiyanın və ABŞ-ın bir çox beynəlxalq şirkətləri enerji layihələrində iştirak edir. Region, müxtəlif beynəlxalq maraqların təsir dairəsindədir. BMT regionla təcili olaraq məşğul olmalı və həll tapmalıdır.

Qətnamələrin sayı kifayət qədərdir və onların səmərəsi yoxdur. Həll beynəlxalq hüquqa əsasən tapılmalıdır.

❖ ❖ ❖

"Oktyabrın 9-da Moskvada imzalanan və sülhə ümidverici ilk addım olan atəşkəs çox kövrək idi. Elə humanitar atəşkəsin qüvvəyə mindiyi günün gecəsində Ermənistanın Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəyə raket hücumu nəticəsində 10 nəfər həlak oldu, 34 nəfər yaralandı. Özünü "insan hüquqları müdafiəçisi" kimi təqdim edən Fransa Gəncədə mülki insanların bombardman edilməsinə münasibət bildirməli və bu hücumu pisləməli idi. Ən azı gələcəkdə günahkarların müharibə cinayətləri ilə mühakimə edilməsi üçün bunu etməli idi".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransanın "Atlantico.fr" portalında dərc olunmuş "Dağlıq Qarabağ: sülhə nail olmaq üçün bir az tarazlıq və daha çox beynəlxalq hüquq" sərlövhəli məqalədə yer alıb.

Müəllif diqqətə çatdırıb ki, hər hansı bir münaqişə soyuqqanlılıq, balanslı münasibətlə təhlil edilməli və şərh olunmalıdır. Təəssüf ki, sentyabrın sonundan Ermənistanla Azərbaycan arasında başlayan şiddətli müharibə dünyanın diqqətini yenidən Dağlıq Qarabağa cəlb etdi. Bir sıra analitiklər bu məsələni bəzən böyük səhvlər, bəzən də Şərq xristianlarının müsəlmanların təcavüzünə məruz qalması kimi qərəzli formada təqdim edirlər. Müəllif Dağlıq Qarabağ münaqişəsinin səbəbinin hər şeydən əvvəl beynəlxalq hüququn işləməməsi, Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı və beynəlxalq ictimaiyyətin, eləcə də 1992-ci ildən münaqişənin həlli həvalə edilmiş ATƏT-in Minsk qrupunun açıq şəkildə uğursuzluğu olduğunu qeyd edib. Bildirib ki, münaqişə ilə bağlı həqiqətlərdən danışılmalıdır, Səlib yürüşündən yox.

Jurnalist Gəncədə mülki insanların bombardman edilməsinə özünü "insan hüquqları müdafiəçisi" kimi təqdim edən Fransanın münasibət göstərməməsinə və bu hücumu pisləməməsinə təəssüflənir. Bildirir ki, heç olmasa, artan şiddətin qarşısını nəyin bahasına olursa-olsun almaq lazım idi.

Müxtəlif ölkələrin münaqişəyə yanaşmasına toxunan jurnalist Rusiyanın məsələ ilə məşğul olmasının bəzilərini qıcıqlandırdığını qeyd edib. Vurğulayıb ki, beynəlxalq ictimaiyyətin 30 ildə heç nəyə nail ola bilməməsi göz qabağındadır. Müharibə zonasında vəziyyət daha da gərginləşir.

Məqalədə bildirilib ki, münaqişələrdə regional vasitəçilər daha vacibdir. Dağlıq Qarabağ müharibəsinin Cənubi Qafqazın Avrasiya qitəsinin böyük imperiyalar üçün həmişə strateji bölgə olduğunu bir daha təsdiqlədi. Beynəlxalq ictimaiyyətin hərbi əməliyyatların dərhal dayandırılmasına və danışıqlar masasına qayıtmağa, beynəlxalq hüququn tətbiqinə və ona riayət edilməsinə dair çağırışlarına baxmayaraq, hələ də konkret heç nə əldə olunmayıb.

Məqalədə Dağlıq Qarabağ münaqişəsinin tarixindən, doğma yurdundan didərgin salınmış azərbaycanlı məcburi köçkünlərdən də danışılıb. Azərbaycanın Dağlıq Qarabağla bağlı mövqeyindən söz açılıb.

❖ ❖ ❖




İndoneziyanın "viva.co.id" saytı Azərbaycan Ordusunun cəbhədəki uğurlu əməliyyatları ilə bağlı məqalə yayıb. Məqalədə qeyd edilir ki, uzun müddətdir işğal altında olan bir sıra ərazilər bu əməliyyatlar nəticəsində azad olunub.

Saytın AZƏRTAC-a istinadla yaydığı məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin "Haber Global" televiziya kanalına müsahibəsindən sitatlar da yer alıb.

Məqalədə, həmçinin Gəncə şəhərinin raket hücumuna məruz qalması barədə məlumat verilir. Azərbaycan Prezidentinə istinadla bu raket hücumlarının qarşı tərəfin çarəsizliyinin təsdiqi olduğu vurğulanır. Dövlətimizin başçısının bu fikirləri də məqalədə yer alıb: "Müzəffər Azərbaycan Ordusu hər gün yeni hərbi uğurlara imza atır. Hər gün, demək olar ki, ya hansısa bir şəhər, ya kənd işğaldan azad edilir, yaxud da bu kəndlərin ərazisi nəzarət altına alınır". Bütün cəbhəboyu istiqamətlərdə Ermənistan ordusunun məğlubiyyətini vurğulayan Prezident İlham Əliyev bildirir ki, belə olan halda onlar öz heyfini, öz acısını, öz məğlubiyyətini mülki şəxslərdən çıxmaq istəyir. Bu, onların xislətidir. Çünki Xocalı soyqırımını törədənlər məhz Gəncəyə o hücumu törətmişlər.

Məqalədə Ermənistan ordusunun dinc sakinlərə qarşı hücumlarının atəşkəs razılaşmasından əldə olunmasından bir neçə saat sonra baş verdiyi də qeyd edilir.

❖ ❖ ❖




Misirin 11 qəzeti və informasiya portalı, o cümlədən "Akhbarelyom", "Youm7", "Almasryalelyoum", "Nile1", "Aldiplomasy", "Dostor", "Garbnews" nəşrləri Qoşulmama Hərəkatının videokonfrans formatında keçirilmiş Nazirlər səviyyəsində görüşünün iştirakçılarının Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyinə qəti dəstəyi ifadə edilən xüsusi bəyanatını yayıb.

Azərbaycanın Misirdəki səfirliyi bəyanatın AZƏRTAC-da yayılmış ərəbcə mətnini bu ölkənin KİV-nə göndərib.

❖ ❖ ❖




"Kim haqlıdır, kim səhvdir? Şənbə günü çətinliklə imzalanan atəşkəsdən sonra eşidilən mərmi səsləri belə bir sual doğurur: "Atəşkəsi əvvəl kim pozdu?" Təcavüzkar kimdir, qurban kimdir? Qurbanları tanıyırıq: evlərini, yaxınlarını və ya həyatını itirənlər. Həmişəki kimi, məsum insanlar. Ancaq ictimaiyyət günahkarın müəyyən edilməsini istəyir və media buna cavab vermək üçündür. Faktlar olduğu kimi verilmir. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlər olduğu kimi təqdim olunmur.

Xarici mediada bu hadisələr geniş şəkildə işıqlandırılsa da (BBC birbaşa video), Fransada faktların olduğu kimi təqdim edilməsinin niyə bu qədər çətin olduğunu bilirik. Çünki bu mövzu ilə bağlı məlumat vermək üçün hətta azacıq səy göstərən jurnalist Azərbaycanın təbliğində ittiham edilir, ölümlə hədələnir, hətta sosial şəbəkələr vasitəsilə təhdid olunur".

AZƏRTAC xəbər verir ki, bu fikirlər "Musulmans en France" portalında dərc olunmuş "Azərbaycan-Ermənistan: media müharibəsi" adlı məqalədə əskini tapıb.

Məqalədə Fransa mediasının birtərəfli məlumat yaymasından bəhs edilir, televiziya kanallarına əsasən erməni mənşəli jurnalistlərin və məmurların dəvət olunduğu diqqətə çatdırılır. Azərbaycan tərəfinin fikirlərinin isə səsləndirilmədiyi vurğulanır.

Qeyd olunur ki, Fransada ictimai fikir 50 ildir erməni məsələsi ilə məşğul edilib. Azərbaycanla bağlı reallıqlar, Qafqaz həqiqətləri jurnalistlər tərəfindən obyektiv şəkildə təqdim olunmur. Kimin haqlı, kimin səhv olması jurnalistin işi deyil. Jurnalist üçün faktlar vacibdir. Hadisələrlə bağlı fikir yürüdülməsi isə jurnalistin işi deyil, fikir bildirmək oxucuların ixtiyarına buraxılmalıdır.

❖ ❖ ❖



Misirli telejurnalist Əla Məğribi "Əl-Ğad" xəbər saytında dərc olunan məqaləsində Azərbaycanın haqq səsini ərəb dünyasına çatdıraraq, beynəlxalq ictimaiyyəti və təşkilatları işğala son qoymaq üçün Ermənistana təzyiqləri artırmağa çağırıb.

AZƏRTAC xəbər verir ki, telejurnalist "BMT və beynəlxalq insan hüquqları təşkilatları Ermənistanın Azərbaycanın dinc əhalisinə qarşı hücumlarına qiymət verməlidir" sərlövhəli məqaləsində Livandan çoxlu sayda muzdlu döyüşçünü işğal etdiyi ərazilərə gətirən Ermənistanın əsas hədəfinin mülki obyektlər və dinc əhali olduğunu qeyd edib. O bildirib ki, güclü iqtisadiyyata və qüdrətli orduya malik Azərbaycanın qarşısında məğlub olan işğalçı ölkənin barbarlıq aktları ərəb ölkələri, həmçinin beynəlxalq hüquq təşkilatları tərəfindən qətiyyətlə pislənməlidir. Ə.Məğribi vurğulayıb ki, Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin təmin olunmasının yeganə yolu Ermənistanın öz qoşunlarını işğal etdiyi ərazilərdən çıxarmasıdır.

❖ ❖ ❖




Moldovanın NOİ.MD informasiya portalında Azərbaycanın Moldovadakı səfirliyinin açıqlaması yayımlanıb.

AZƏRTAC xəbər verir ki, "Azərbaycan": Cəzasız qalma yeni hərbi cinayətləri törətməyə imkan yaradır" sərlövhəli yazıda humanitar atəşkəsi pozan və bu atəşkəsin arxasında gizlənən Ermənistanın Azərbaycanın ikinci böyük şəhəri Gəncə əhalisinin sıx məskunlaşdığı yaşayış hissəsini atəşə tutması qeyd olunub.

"Ermənistan Azərbaycan mülki vətəndaşlarına hücum etmək üçün humanitar atəşkəsin arxasında gizlənir", - deyə səfirliyin bəyanatında bildirilir.

Bundan əlavə, bəyanatda vurğulanır ki, 10 oktyabr saat 12:00-da humanitar atəşkəsin qüvvəyə minməsindən yarım saat sonra, 12:30-da Azərbaycan Müdafiə Nazirliyi Tərtər və Ağdam bölgələrinin düşmən tərəfindən atəşə tutulması ilə bağlı təcili məlumat verib. Düşmənin silahlı qüvvələrinin birləşmələri cəbhənin müxtəlif istiqamətlərində hücuma keçməyə cəhd ediblər. "Bu, yalnız atəşkəsin deyil, həm də beynəlxalq hüququn norma və prinsiplərinin, 1949-cu il Cenevrə Konvensiyasının və onun Əlavə protokollarının birbaşa qəsdən pozulmasıdır" - bəyanatda deyilir.

Yazıda qeyd olunur ki, 11 oktyabr saat 02:00 radələrində Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycanın ikinci böyük şəhəri Gəncənin mərkəzində yerləşən yaşayış binasına raket zərbəsi nəticəsində 10 nəfər həlak olub, 30-dan çox mülki şəxs, o cümlədən uşaqlar ağır yaralanıb, çox sayda mülki obyektlərə ziyan dəyib. Qocaların, uşaqların, qadınların yaralandığı qeyd olunur.

❖ ❖ ❖




Avstraliyada fəaliyyət göstərən Avstraliya-Azərbaycan-Türkiyə Dostluğu Cəmiyyətinin saytı Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin Gəncəyə səfəri barədə məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan ordusunun Gəncə şəhərinə raket hücumu və dinc sakinləri qətlə yetirməsindən sonra təşkil edilən səfərdə Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri iştirak etməsi əksini tapıb.

Qeyd olunub ki, əcnəbi diplomatları Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov, Xarici İşlər nazirinin müavini Ramiz Həsənov və başqaları müşayiət ediblər.

Ermənistanın hərbi cinayətləri ilə tanış olan diplomatlara məlumat verilib ki, işğalçı Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekununda qəbul edilən humanitar atəşkəs rejimi haqqında razılaşmanın tələblərini pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutmaqda davam edir. Belə müharibə cinayətlərindən biri oktyabrın 11-i gecə saat 2 radələrində cəbhə zonasından uzaqda yerləşən, Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncədə yaşanıb. Düşmənin məqsədli şəkildə şəhərin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını ağır artilleriyadan atəşə tutması nəticəsində 10 nəfər həlak olub. Həmçinin 16-sı qadın, 6-sı azyaşlı olmaqla 34 nəfər yaralanıb. Ondan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.

Xarici diplomatlar erməni faşizminin izləri ilə tanış olub, həyatını itirən dinc sakinlərin xatirəsinə ehtiramlarını ifadə ediblər.

❖ ❖ ❖




Çilinin "Infogate" xəbər agentliyi Azərbaycanın Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş müşaviri Vasif Hüseynovun "Azərbaycanın gücü təkcə döyüş meydanında deyil, həm də beynəlxalq hüquqdadır" sərlövhəli məqaləsini dərc edib (bax: https://www.infogate.cl/2020/10/09/la-fuerza-de-azerbaiyan-no-esta-solo-en-el-campo-de-batalla-esta-en-el-derecho-internacional/)

AZƏRTAC xəbər verir ki, Vasif Hüseynovun bu məqaləsində qeyd edildiyi kimi, Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr endirir, Azərbaycan Ordusunun əks-hücumlarının qarşısında durmağa Ermənistanın canlı qüvvəsi və hərbi texnikası çatmır, Azərbaycan özünün beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün bərpasını tələb edir.

Məqalədə diqqətə çatdırılır ki, 1994-cü ilin mayında Rusiyanın vasitəçiliyi ilə birinci Qarabağ müharibəsinə son qoymuş atəşkəs barədə müqavilə bağlanandan 26 il sonra bu il sentyabrın 27-də Ermənistan və Azərbaycan arasında münaqişə yenidən genişlənərək az qala tammiqyaslı müharibəyə çevrildi. Münaqişənin eskalasiyası ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqların iflasa uğramasından sonra başlayıb. Bu gün Azərbaycan ölkənin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində öz ərazi bütövlüyünün bərpası tələbi ilə mübarizəni davam etdirir.

❖ ❖ ❖




İsveçin "Aftonbladet" qəzetində İsveçin Gənc Azərbaycanlıları təşkilatının (SUAZ) Dağlıq Qarabağ münaqişəsi barədə məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə SUAZ-ın sədri Mahirə Muxtarova daha əvvəl İsveç mediasında yayılan və faktlara əsaslanmayan məlumat və məqalələrə etiraz edərək yazır: "Dağlıq Qarabağ münaqişəsi haqqında danışarkən, ilk növbədə, indiki döyüşlərin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində getdiyi qeyd olunmalıdır. Nəzərə almaq lazımdır ki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməyə əsasən, Ermənistan qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərdən dərhal çıxarmalıdır".

Məqalədə Ermənistanın Azərbaycan neftini Avropaya nəql edən Bakı-Tbilisi-Ceyhan neft kəmərinə zərbə vurmaq üçün iyulda münaqişə zonasından uzaqda yerləşən rayona hücum etdiyi xatırladılır. Qeyd edilir ki, bu hücum regionda gərginliyin artmasına səbəb olub. Bu və digər təxribatçı addımların sentyabrın sonlarında genişmiqyaslı hərbi əməliyyatlarla nəticələndiyini qeyd edən diaspor fəalı Azərbaycanın bununla başlanan haqq mübarizəsinin ölkədəki bütün siyasi partiyalar tərəfindən dəstəkləndiyini vurğulayıb.

Xarici qüvvələrin və döyüşçülərin münaqişədə istifadə olunması haqqında iftiraların da faktlara əsaslanmadığının xüsusi qeyd olunduğu məqalədə deyilir: "Əlbəttə, Türkiyə Azərbaycanın milli mübarizəsini dəstəkləyir, amma hazırda əməliyyatlarda bir nəfər də olsun türk əsgəri iştirak etmir. Suriyalı muzdluların istifadəsi isə tamamilə erməni təbliğatının məhsuludur və buna dair heç bir dəlil təqdim edilməyib".

Lakin müxtəlif ölkələrin vətəndaşlarının Ermənistan tərəfindən döyüşlərdə iştirakı haqqında əyani dəlillərin olmasına baxmayaraq, bu barədə dünya KİV-nin obyektivlik göstərməməsi təəssüf hissi ilə vurğulanıb.

Baş verən münaqişənin kökündə 1990-cı illərdə Ermənistanın Azərbaycan ərazilərini zəbt etməsi və orada yaşayan bütün azərbaycanlıların doğma yurdlarından qovulmasının dayandığı bildirilir. Diqqətə çatdırılır ki, Ermənistanın işğalçılıq siyasəti təkcə Dağlıq Qarabağla bitmir, onun ətrafındakı 7 rayon da zəbt edilib. Bu rayonlardan biri olan Kəlbəcərdən məcburi köçkün düşmüş Mahirə Muxtarova, həmçinin yazır: "Artıq 27 ildir ki, doğma şəhərimi yenidən görmək arzusundayam. Oradan qovulan insanlar arasında azərbaycanlılarla yanaşı, kürdlər və digər millətlərin nümayəndələri də var idi. Ümumilikdə, münaqişə nəticəsində 1 milyondan çox insan öz yurd-yuvasından didərgin salınıb. İndi Azərbaycan qaçqınları öz evlərinə qaytarmaq istəyirlər".

❖ ❖ ❖




Almaniyanın "Ludwigsburger Kreiszeitung" qəzetində Azərbaycanın bu ölkənin Ştutqart şəhərindəki fəxri konsulu O.Hauzerin "Din heç bir rol oynamamalıdır" sərlövhəli müsahibəsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, müsahibədə Ermənistanın işğal etdiyi Dağlıq Qarabağı və ətraf rayonları Azərbaycana qaytaracağı təqdirdə Dağlıq Qarabağ münaqişəsinə tezliklə son qoyula biləcəyi qeyd olunur. Bildirilir ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Ermənistandan Azərbaycan torpaqlarının qanunsuz hərbi işğalına son qoymaq, eləcə də ermənilər tərəfindən deportasiya olunmuş yüz minlərlə azərbaycanlı qaçqın və məcburi köçkünün öz evlərinə qayıtmalarına imkan yaratmaq tələb olunur. Azərbaycan öz ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağa dəfələrlə muxtariyyət təklif edib. Dünya ictimaiyyəti, o cümlədən Almaniya işğal olunmuş əraziləri Azərbaycanın suveren ərazisi kimi tanıyır.

O.Hauzer diqqətə çatdırıb ki, 1918-ci ildə Cənubi Qafqazda 3 respublika təsis olunub və o vaxt Dağlıq Qarabağ Ermənistanın deyil, Yelizavetpol quberniyasının (indiki Gəncə) tərkibində olub. BMT, onun üzvləri, eləcə də Almaniya Dağlıq Qarabağ da daxil olmaqla Sovet Azərbaycanının sərhədlərini tanıyıb. Münaqişə yalnız Dağlıq Qarabağla bağlı deyil. Belə ki, Ermənistan, Dağlıq Qarabağın inzibati ərazisinə daxil olmayan 7 ətraf rayonu da işğal altında saxlayır.

Fəxri konsul bildirir ki, ermənilər köçürülmədən və "soyqırımı"dan qorxmamalıdırlar. Çünki onlar 1992-ci ildə 1 milyondan çox azərbaycanlını yurd-yuvalarından didərgin salıb, Xocalıda 600-dən çox mülki şəxsi qətlə yetiriblər.

Hazırkı müharibədə Azərbaycan tərəfində guya muzdluların və türk əsgərlərinin vuruşması ilə bağlı məsələyə münasibət bildirən O.Hauzer deyib ki, bununla bağlı heç bir fakt mövcud deyil. Ermənilər Azərbaycanla sərhəddən çox uzaqda yerləşən Gəncə şəhərində mülki əhaliyə qarşı kasetli bombalardan istifadə ediblər və bu, Cenevrə Konvensiyasına ziddir.

Müsəlman Azərbaycan ilə xristian Ermənistanın müqayisə olunmasının tamamilə səhv təəssürat yaratdığını qeyd edən fəxri konsul deyib: "Azərbaycanda heç bir digər müsəlman ölkə ilə müqayisə olunmayacaq səviyyədə dini tolerantlıq mövcuddur. Azərbaycanda pravoslav və katolik xristianlar, o cümlədən yəhudilər sülh şəraitində yaşayırlar. Hökumət dini icmaları maliyyələşdirir və onlara ibadət etmək üçün hər cür şərait yaradıb. Bu xüsusda, belə bir nəticənin çıxarılması tamamilə səhvdir".

❖ ❖ ❖

Azərbaycanın Böyük Britaniya və Şimali İrlandiya Krallığındakı səfiri Tahir Tağızadə sentyabrın 27-dən etibarən Ermənistanın Azərbaycana qarşı növbəti təcavüz aktı, eləcə də




Gəncə şəhərinə raket zərbəsi endirməsi ilə əlaqədar Britaniyanın aparıcı KİV, o cümlədən "BBC", "Independent", "NewStatesman", "Financial Times" kimi qəzetlərin müxbirləri və münaqişə üzrə ekspertlərin iştirakı ilə videobrifinq keçirib.

AZƏRTAC xəbər verir ki, brifinqdə səfir oktyabrın 10-da Moskvada Ermənistan Rusiyanın vasitəçiliyi ilə tərəflər arasında atəşkəs barədə razılaşma əldə olunmasına baxmayaraq, oktyabrın 11-i gecə saatlarında Azərbaycanın ikinci böyük şəhəri olan və cəbhə bölgəsindən xeyli uzaqda yerləşən Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qaldığını bildirib. O qeyd edib ki, hücum nəticəsində 10 mülki şəxs həlak olub, aralarında azyaşlılar olmaqla 34 nəfər yaralanıb. Səfir Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin, o cümlədən səfirlərin, hərbi attaşelərin və beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin rəhbərlərinin Gəncədə Ermənistan ordusunun raket atəşinə məruz qalmış ərazilərə baş çəkdiyi barədə məlumat verib.

Görüş zamanı səfir müxbirlərin Türkiyənin Azərbaycana dəstəyi, Britaniyanın davamlı atəşkəsin əldə edilməsində oynaya biləcəyi rol, Dağlıq Qarabağın işğaldan azad ediləcəyi halda Azərbaycanın dinc-yanaşı yaşamanın təmin olunması üçün hansı addımları atacağı ilə bağlı və digər suallarını cavablandırıb. Diplomat deyib: "Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə sıx əlaqələr var, lakin bu mübarizədə Türkiyə Azərbaycana yalnız diplomatik, siyasi və mənəvi dəstək verir".

Səfir söyləyib ki, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ona bitişik 7 rayonunu işğal edib, həmin ərazilərdə etnik təmizləmə aparıb. BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğalçı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 823, 854, 874, 884 saylı qətnamələri bu günədək yerinə yetirilməyib. "Azərbaycanın məqsədi öz ərazi bütövlüyünü təmin etmək, qaçqın və məcburi köçkün əhalinin öz yurduna qayıtmasıdır. Əsas məsələ müharibə deyil, sülhü qazanmaqdır", - deyə səfir bildirib.

❖ ❖ ❖



"Azərbaycan və Ermənistan tərəfindən Moskvada əldə edilmiş razılaşmaya baxmayaraq, Ermənistan atəşkəs rejimini pozmaqla oktyabrın 11-nə keçən gecə Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəni ballistik raketlərlə atəşə tutub, nəticədə bir yaşayış binası uçub, dinc əhali arasında ölənlər var.

Ermənistan tərəfindən Azərbaycanın Gəncə şəhərinin atəşə tutulması Cenevrə Konvensiyasının kobud şəkildə pozulmasıdır. Həmin Konvensiyaya görə, dinc əhalinin həyatını təhlükəyə məruz qoyan hər hansı hərbi əməliyyatlar aparmaq və döyüş əməliyyatları zamanı mülki əhaliyə hərbi zərbələr endirmək qadağandır".

Beynəlxalq münasibətlər sahəsində israilli ekspert, İsraildəki "Cəmiyyət üçün beynəlxalq layihələr" adlı qeyri-hökumət təşkilatının rəhbəri Arye Qut bu fikirləri Gəncədə çoxmənzilli evə raket zərbəsi endirilməsi faktı barədə AZƏRTAC-a müsahibəsində söyləyib.

İsrailli ekspert deyib: "Hamımız yaxşı bilirik ki, Ermənistan tərəfi humanitar atəşkəs rejimi müəyyən edilməsi üçün yalvarırdı və Moskvanın vasitəçiliyi ilə belə bir rejim müəyyən edildi. Lakin bu razılaşma qüvvəyə minəndən sonra terrorçu dövlət olan Ermənistan son dərəcə təhlükəli silahlardan, "Toçka-U" operativ-taktiki raket kompleksindən istifadə etməklə qədim Gəncənin əhalisi sıx yaşayan bölgələrini şiddətli raket atəşinə tutub".

Arye Qutun sözlərinə görə, Cenevrə Konvensiyasının qəbul edildiyi və imzalandığı 1949-cu ildən etibarən dünyanın bütün sivil ölkələri mülki əhalini təhlükəyə məruz qoymamaq barədə öhdəlik götürüblər. Arye Qut deyib: "Gecə vaxtı, mülki əhali öz evlərində yatdığı saatlarda onlara qəddar, qeyri-insani və vəhşicəsinə hücum edilməsi terrorizmin qəddar formasından başqa bir şey deyil. Bu əməl dünyanın bütün sivil ölkələri tərəfindən pislənilməli, bu amansız hücumun arxasında dayananların hamısı məhkəməyə cəlb edilməlidir".

İsrailli ekspertin fikrincə, Ermənistanın kriminal rejiminin bütün bu qeyri-insani hərəkətləri bir daha göstərir ki, Azərbaycanın suveren ərazisinin işğaldan yalnız hərbi yolla azad edilməsi strateji əhəmiyyət kəsb edir.

Arye Qut yazır: "Təəccüblü deyil ki, Avropa İttifaqının üzvü olan ölkələr, Avropa Şurasının Parlament Assambleyası, Avropa Şurası və ABŞ Dövlət Departamenti bu ciddi böhranın siyasi və dinc yolla həllində əsla iştirak etmirlər. Yerevanın həyasız və ağlasığmaz geosiyasi davranışı nəzərə alınsa, Avropa gələcəkdə Azərbaycanın iri şəhərlərinin və həssas mülki obyektlərinin terror aktları və raket atəşləri üçün hədəf seçilməsi ilə üzləşəcək. Ermənistan tərəfindən hücumlar nəticəsində Azərbaycanda günahsız insanların qətlə yetirilməsinə beynəlxalq birliyin laqeydliyi şəraitində Ermənistan tərəfindən terror təhlükəsinin qarşısını almağın, Avropada və Qafqazda sülhün və sabitliyin təmin edilməsinin yeganə yolu Azərbaycan silahlı qüvvələrinin erməni işğalına qarşı ardıcıl və sərt tədbirləridir".

İsrailli ekspertin fikrincə, Ermənistan rəhbərliyində, nəhayət, başa düşməlidirlər ki, Azərbaycanla ultimatumlar, təhqirlər və şantaj dilində danışmaq olmaz və bu mümkün deyil.

Qeyd etmək lazımdır ki, Azərbaycan Prezidenti istər ölkə daxilində, istərsə də xüsusən xaricdə heç kəslə bu tonda ünsiyyəti özünə rəva görməyib.

Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Lakin Paşinyan bizə 7 ultimatum təqdim edəndə, o, azərbaycanlıların hisslərini təhqir edəndə buna görə cəzalandırılmalı idi və biz bunu etdik. Qoy o, Putinə təşəkkür etsin ki, Rusiya növbəti dəfə Ermənistanı xilas etməyə gəldi".

Paşinyanın Azərbaycanla bu cür həyasızcasına və utanmadan danışması az imiş kimi, onun Qarabağdakı nümayəndəsi - terrorçu Araik Arutyunyan bəyan edib ki, Azərbaycanı hücum silahları ilə təchiz edən İsrailin hakimiyyət orqanları Qarabağda "soyqırımı"na görə məsuliyyət daşıyır.

Arutyunyan deyib: "2016-cı il Aprel döyüşləri dövründə İsrailin hakimiyyət orqanları yaxşı bilirdilər ki, oradan Azərbaycana göndərilən silahlardan müdafiə məqsədləri üçün deyil, hücum məqsədləri üçün istifadə edilir. Ona görə bu cür bəyanatlar - insanları məsxərəyə qoymaqdır. Əlbəttə, onlar bunu bilir və silah göndərməkdə davam edirlər. Bu "soyqırımı"na görə İsrailin hakimiyyət orqanları da məsuliyyət daşıyırlar. İsrail rəhbərliyinin bu cür addımları sübut edir ki, dünyada pul qazanmaq xatirinə insani və ilahi dəyərlər ayaqlanır".

Ən gülməli və eyni zamanda faciəli məqam budur ki, görün kim kimi terrorçuluqda və soyqırımında ittiham edir? İkinci Dünya müharibəsi dövründə Krımın, Sevastopolun, Feodosiyanın yəhudi əhalisinin məhv edilməsində iştirak etmiş, Hitlerin real əlaltısı olmuş faşist və antisemit Qaregin Njdeyə dörd il bundan əvvəl Yerevanın mərkəzində 6 metr hündürlüyündə heykəl qoyanlar indi yəhudi xalqını soyqırımında və faşizmdə ittiham edirlər? Qarabağda "soyqırımı"na görə onlar bizi - yəhudiləri təqsirkar adlandırırlar?

Bu insanların vicdanı yoxdur. 1992-ci ilin fevral ayında onlar Xocalı şəhərində soyqırım aktı törətdilər, bir gecədə şəhərin dinc azərbaycanlı əhalisini tamamilə məhv etdilər. O dəhşətli fevral gecəsində Xocalıda qəddarcasına törədilmiş bütün cinayətlər sənədlərdə və videomateriallarda, o vaxt Azərbaycanın bu şəhərində olmuş şahidlərin, xarici jurnalistlərin və ekspertlərin ifadələrində əks olunmuş real hadisələrdir. Xocalı sakinlərinin yeganə "təqsiri" onların azərbaycanlı olması idi.

Ermənistanın keçmiş prezidenti, Xocalıda soyqırımı aktını təşkil etmiş və onun həyata keçirilməsində şəxsən iştirak etmiş Serj Sarkisyan xəcalət belə çəkmədən, 1992-ci ilin dəhşətli fevral gecəsində baş vermiş hadisələr barədə həqiqəti söyləyib.

Beynəlxalq münasibətlər sahəsində israilli ekspert, İsraildəki "Cəmiyyət üçün beynəlxalq layihələr" adlı qeyri-hökumət təşkilatının rəhbəri Arye Qut Ermənistan silahlı qüvvələri tərəfindən Gəncədə çoxmənzilli evə raket zərbəsi endirilməsi faktı ilə bağlı şərhinin sonunda deyib: Serj Sarkisyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar britaniyalı jurnalist Tomas de Vaala müsahibəsi jurnalistin "Qara bağ: Ermənistan və Azərbaycan sülh ilə müharibə arasında" adlı kitabına daxil edilib. Xocalı faciəsi barədə sualın cavabında Sarkisyan deyib: "Xocalı hadisələrinə qədər azərbaycanlılar düşünürdülər ki, biz onlarla zarafat edirik. Onlar hesab edirdilər ki, erməni xalqı mülki əhaliyə əl qaldıra bilməz. Biz bu stereotipi aradan qaldıra bildik və bu hadisələr baş verdi".

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən İsmayıllı rayonunda "DOST EVİ"nin layihələndirilməsi işlərinin satın alınması üçün keçirilən təkliflər sorğusunda "AM.M Line" MMC qalib olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 09.09.2020-ci il tarixdə "BTR" MMC-nin xidməti ərazisində olan EATS-lərdə qəza və yeni quraşdırmada istifadə üçün mal-materialların satın alınması üzrə elan edilmiş açıq tenderin davamından "Dövlət satınalmaları haqqında" qanunun 11-ci maddəsinə əsasən imtina edilmişdir.

*Tender komissiyası*

## Lənkəran Dövlət Universiteti
## *açıq tender elan edir*

LOT - 1. Lənkəran Dövlət Universitetinin 2 saylı tədris korpusunun həyətində 5 mərtəbəli yeni tədris korpusunun layihə-smeta sənədlərinin hazırlanması işləri

Lənkəran Dövlət Universiteti büdcədənkənar vəsaiti hesabına açıq tender metodu tətbiq etməklə elektron satınalma vasitəsilə 2 saylı tədris korpusunun həyətində 5 mərtəbəli yeni tədris korpusunun layihə-smeta sənədlərinin hazırlanması işlərinin satın alınmasını həyata keçirir.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun öz tender təkliflərini **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

İddiaçılar **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

İddiaçılar aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı: 300 (üç yüz) manat**
**Lənkəran Dövlət Universiteti**
**Hesab №: AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**"Kapital Bank" ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (arayışın verilmə tarixi 15 oktyabr 2020-ci ildən sonrakı tarix olmalıdır);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının son bir ildəki (əgər daha az müddətdə fəaliyyət göstəribsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayışı (arayışın verilmə tarixi 15 oktyabr 2020-ci ildən sonrakı tarix olmalıdır);*
- *nizamnaməsi;*
- *qeydiyyatdan keçdiyi ölkə;*
- *rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **04 noyabr 2020-ci il saat 17:30-a** qədər, tender təklifi və bank təminatını isə **13 noyabr 2020-ci il saat 17:30-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **16 noyabr 2020-ci il saat 17:30-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun "Xüsusi qovluq və təbrik açıqcalarının satın alınması" məqsədilə 12.08.2020-ci il tarixdə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində **"DE TAL" MMC** qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## Göygöl Rayon İcra Hakimiyyəti 2020-ci il üçün
## *açıq tender elan edir*

Göygöl şəhərinin H.Əliyev prospekti, S.Hacıyev, A.Hacıyev və M.Ə.Sabir küçələrində abadlıq işlərinin aparılması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq göstərilən LOT üzrə təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqavilənin vaxtında yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar Tender komissiyasına müraciət edə bilərlər.

Ünvan: Göygöl şəhəri, A.Kazımov küçəsi, №01
Telefon: 022-205-30-62, (055) 362-92-11
Əlaqələndirici şəxs: Muradov Ramin Akif oğlu
EMAİL: ramin-muradov@inbox.ru

Maraqlananlar aşağıdakı məbləğdə iştirak haqqını köçürdükdən sonra əsas şərtlər toplusunu yuxarıda göstərilən ünvandan ala bilərlər.

İştirak haqqı - 100 manat. İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

**Təşkilat: Göygöl Rayon İcra Hakimiyyəti**
**Hesab: AZ23CTRE00000000000002511231**
**VÖEN: 7600027881**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/hesab: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWİFT: CTREAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında məlumat;*
- *işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat;*
- *vergilərə və digər icbari ödənişlərə dair borcların olmaması barədə arayış;*
- *tender təkliflərinin təminatı (zərflərin açıldığı tarixdən sonra 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində bank zəmanəti (zərflərin açıldığı gündən sonra 60 bank günü qüvvədə olmalıdır).*

İddiaçılar tələb olunan sənədləri möhürlü zərflərdə **18 noyabr 2020-ci il saat 15:00-dək** Göygöl Rayon İcra Hakimiyyətinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçılar tender təklifi və bank zəmanətini **10 noyabr 2020-ci il saat 15:00-dək** təqdim etməlidirlər.

Tender zərfləri **19 noyabr 2020-ci il saat 15:00-da** Göygöl Rayon İcra Hakimiyyətində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti
## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

LOT 1: - "Aztelekom" MMC tərəfindən ayrılmış xətt tikintisinin satın alınması.

**İştirak haqqı: 1000 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını "ASAN ödəniş" sistemi vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu **etender.gov.az** vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı:**
**"Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəh., Tbilisi prospekti - 187**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **11 noyabr 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **19 noyabr 2020-ci il saat 17:00-dək** vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri **20 noyabr 2020-ci il saat 11:00-da** vahid satınalma Portalında açılacaqdır.

*Tender komissiyası*

# Beynəlxalq aləm

## Əsəd rejimi müxalifəti ölüm hökmləri ilə qorxutmaq istəyir

Bəşər Əsəd rejiminin nəzarətində olan məhkəmələr son illər mövcud hakimiyyətin 2100 nəfərdən çox əleyhdarını ölüm cəzasına məhkum etmiş, 4 min nəfərədək suriyalının əmlakı müsadirə olunmuşdur. Bu barədə Suriyadakı SNHR hüquq müdafiə şəbəkəsinin hesabatında məlumat verilir.

Hesabat məhkumlar və onların ailələri ilə söhbətlər əsasında hazırlanmışdır. Müxalifətçilərlə mübarizə üçün 2012-ci ildə xüsusi olaraq "Terrorçuluğa qarşı mübarizə məhkəməsi" yaradılmışdır. Həmin ilin iyul ayından etibarən rejimin əleyhdarları üzərində məhkəmələr davam edir. Bu müddətdə azı 90560 məhkəmə iclası keçirilmişdir. İclasların əksəriyyətində müttəhimlər iştirak etməmişdir. Azı 2147 nəfər ölüm cəzasına məhkum edilmişdir. Bununla yanaşı, Əsəd rejimi 3970 nəfərin əmlakını müsadirə etmişdir.

Məhkəmələr bir çox hərbi cinayətlərdə əli olan güc strukturları əməkdaşları və hakimlər üçün qazanc mənbəyinə çevrilmişdir. Hesabata görə, bəzi imkanlı ailələr məhkəmə təqibindən yaxa qurtarmaq üçün rüşvət verməyə məcbur olurlar.

## Avropada PKK-ya havadarlıq edirlər

Avropanın bir neçə ölkəsinin hakimiyyət və KİV orqanları beynəlxalq cinayətkarlığa qarşı mübarizəyə və aldadılaraq qanlı təşkilatın sıralarına cəlb olunmuş yeniyetmələrin qaytarılması üçün türk analarının çağırışlarına məhəl qoymur. Hazırda övladları PKK sıralarında olan bir qrup qadın bir neçə aydır Türkiyənin cənub-şərqində yerləşən Diyarbəkir şəhərində aksiya keçirir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

PKK Qərbin bir çox ölkələrində terrorçu təşkilat kimi tanınsa da, əslində terrorçuların və onların havadarları Avropada hərəkət üçün geniş imkanlara malikdirlər. Eyni zamanda PKK terrorçularının bəyanatları tez-tez Fransa, Almaniya, Niderland və İsveç KİV-də "kürd xalqının rəyi" kimi qələmə verilir. Həmçinin Avropa KİV-i PKK-nın qanlı cinayətləri barədə xəbərlər dərc etmir və Diyarbəkirdə anaların etiraz aksiyasına bənzər hadisələri işıqlandırmır.

## Sooranbay Jeenbekov istefa verdi

Qırğızıstan Prezidenti Sooranbay Jeenbekov istefaya getmək barədə qərar qəbul etmişdir. Bu barədə TASS agentliyi xəbər verir.

Məlumata görə, Prezident istefasını xalqa müraciəti zamanı elan etmişdir.

"Mən hakimiyyətdən yapışmıram, tarixdə də qan tökmüş və öz vətəndaşlarına atəş açmış prezident kimi qalmaq istəmirəm. Buna görə getmək barədə qərar qəbul etdim" deyə Jeenbekov bildirmişdir. O, diqqəti ölkədə vətəndaş qarşıdurmasının növbəti dalğası təhlükəsinə cəlb etmişdir. Jeenbekovun dediyinə görə, heç bir hakimiyyət ölkənin bütövlüyü və cəmiyyətin birliyi qədər dəyərli ola bilməz.

## Livanda yeni hökumətin tərkibinin müzakirəsi təxirə salındı



Livan Prezidenti Mişel Aun Baş nazir vəzifəsinə namizədlər məsələsi ilə bağlı məsləhətləşmələri oktyabrın 22-dək təxirə salmışdır. Bu barədə Prezidentin Administrasiyasına istinadən NNA agentliyi xəbər verir.

Beyrutda bildirmişlər ki, Aun bu qərarı "siyasi partiyaların istəyinə" cavab olaraq qəbul etmişdir.

Bu arada keçmiş Baş nazir və sünnilərin "Gələcək uğrunda hərəkat" partiyasının lideri Səəd Həriri Fransa Prezidenti Emmanuel Makronun Livanla bağlı təşəbbüslərinin həyata keçirilməsi üçün səyləri fəallaşdırmağa hazır olduğunu bildirmişdir.

Srağagün Həriri Prezident Mişel Aun və parlamentin spikeri Nəbih Berri ilə görüşmüşdür.

Sabiq baş nazirin fikrincə, Makronun Livanın yeni hökumətinin tezliklə formalaşdırılması barədə təşəbbüsü iqtisadi böhrandan və Beyrut limanında baş vermiş partlayışın törətdiyi fəsadların aradan qaldırılması üçün yeganə çıxış yoludur.

Həriri bir neçə ay ərzində islahatlar həyata keçirməyə qadir olan yeni hökumət formalaşdırmağa hazır olduğunu bildirmişdir.

## Azərbaycanda koronavirus infeksiyasına 530 yoluxma faktı qeydə alınıb, daha 101 nəfər sağalıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasına 530 yeni yoluxma faktı qeydə alınıb, daha 101 nəfər sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 43 min 280 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 39 min 671 nəfər müalicə olunaraq sağalıb, 619 nəfər vəfat edib. Aktiv xəstə sayı 2990 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 201 min 924 test aparılıb. Dünənki test sayı isə 8054-dür.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi səhmdar cəmiyyətin vitse-prezidentinin müavini Saleh Məmmədova həyat yoldaşı

**KAMALƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7471
Sifariş 2397
Qiyməti 40 qəpik